AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NƏSİMİ ADINA DİLÇİLİK İNSTİTUTU

VAHİD ADİLOV, RƏXŞANƏ BABAZADƏ

MİRZƏ MƏHƏMMƏD ƏFŞAR
FƏNNİ - SƏRFÜ NƏHVİ - TÜRKİ

(qrammatik oçerk, mətnin transliterasiyası, lüğət və əlyazmanın fotosurəti)

"Elm və təhsil"
Bakı – 2015

Azərbaycan MEA Nəsimi adına Dilçilik İnstitutu
Elmi Şurasının 27 aprel 2015 - ci il tarixli qərarı ilə
(protokol № 3) çap olunur.

Redaktorlar: **Tofiq Hacıyev**
AMEA -nın həqiqi üzvü,
filologiya üzrə elmlər doktoru, professor

Kamandar Şərifli
filologiya üzrə elmlər doktoru, professor

Rəyçilər: **Sevil Mehdiyeva**
filologiya üzrə elmlər doktoru, professor

Reyhan Mədətova
filologiya üzrə fəlsəfə doktoru, dosent

Vahid Adilov, Rəxşanə Babazadə
Mirzə Məhəmməd Əfşar "Fənni-sərfü nəhvi-türki" (qrammatik oçerk, mətnin transliterasiyası, lüğət və əlyazmanın fotosurəti), Bakı, "Elm və Təhsil", 2015, 260 səh.

Monoqrafiyada XIX əsr Azərbaycan dilçiliyinin görkəmli nümayəndələrindən biri olan M. Əfşarın "Fənni-sərfü nəhvi-türki" əsərinin ərəb əlifbasından müasir əlifbaya transliterasiyası verilmiş, eyni dövrə aid dilçilik əsərləri ilə müqayisələr əsasında hazırlanmış qrammatik oçerk, habelə izahlı dilçilik terminləri və çətin anlaşılan ərəb və fars mənşəli sözlərin lüğəti mətnə əlavə edilmişdir.

Əsərin nəşrinin dilçi-mütəxəssislər, Azərbaycan dilinin tədrisi tarixi ilə məşğul olan tədqiqatçılar və geniş oxucu kütləsi üçün faydalı olacağını güman edirik.

BİR NEÇƏ SÖZ

Azərbaycan dilçiliyi tarixində Mirzə Məhəmməd Əfşarın "Fənni-sərfü nəhvi-türki" əsəri xüsusi yer tutur. "Fənni-sərfü nəhvi-türki" əsərinin yazıldığı tarixi dəqiq müəyyənləşdirmək mümkün olmasa da, müqəddiməsindəki izahlardan onun təxminən XIX əsrin II yarısında – Mirzə Kazım bəyin "Грамматика турецко-татарского языка" (1839) və Mirzə Əbülhəsən Vəzirovun "Учебник татарско-адербайджанского наречия" (1861) əsərlərindən sonra və Nəriman Nərimanovun "Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi" (1899) əsərindən əvvəl yazıldığı məlum olur. Nəstəliq xətti ilə yazılmış 90 əlyazma səhifəsindən ibarət olan bu əsər indiyə qədər nəşr edilməmiş, ən yaxşı halda, bir neçə tədqiqat işində əsərin müqəddiməsindən, nitq hissələrinin təsnifat prinsiplərindən və dilçilik terminlərindən qısaca məlumat verilməklə kifayətlənilmişdir. "Fənni-sərfü nəhvi-türki" əsəri quruluşuna görə müqəddimə (giriş), iki böyük hissə və hər hissə üzrə bir neçə bab və fəsildən, nəticə xarakterli "Qüyudi-mübin" (aydınlaşdırıcı qeydlər) adlı hissələrdən ibarətdir. Bu hissələrdə Azərbaycan dilinin fonetik, morfoloji və sintaktik quruluşları ayrı-ayrılıqda tədqiq olunmuş, öz dövrünə görə yenilik sayıla bilən bir sıra orijinal elmi müddəalar irəli sürülmüşdür. Azərbaycan dilçiliyi tarixindəki əhəmiyyətinə, eləcə də yazılı-tarixi abidə kimi ədəbi dilimizin elmi üslubunun formalaşmasındakı roluna görə bu əsərin ərəb əlifbasından latın qrafikalı Azərbaycan

əlifbasına transliterasiya edilməsi və onun dilçiliyimiz tarixindəki yerinin müəyyənləşdirilməsi əsas məqsəd kimi qarşıya qoyulmuşdur.

Tədqiqat işi ön söz, qrammatik oçerk, mətnin transliterasiyası, izahlı dilçilik terminləri lüğəti, ərəb və fars mənşəli sözlər lüğəti hissələrindən ibarətdir. Araşdırıcılara mətnin orijinalı ilə müqayisələr aparmaq imkanı yaratmaq üçün sonda əsərin fotosurəti verilmişdir.

Girişdə M. Əfşarın "Fənni-sərfü nəhvi-türki" əsərinə qədər olan dövrdə və daha geniş şəkildə XIX əsrdə Azərbaycan dilçiliyinin tarixinə ümumi bir nəzər yetirilir, Azərbaycan dilçilik elminin formalaşmasına təsir edən müxtəlif amillər araşdırılır, ayrı-ayrı dilçilik kateqoriyalarının inkişafı ilə bağlı qısa xülasələr şəklində icmal verilir.

"Qrammatik oçerk" bölməsində əsərin Azərbaycan dilçiliyi tarxində yeri müəyyənləşdirilir, müxtəlif dövrlərdə bu əsərə müraciət etmiş dilçi-alimlərin fikirlərinə münasibət bildirilir, əsərin quruluşu və hissələri haqqında yığcam məlumat verilir. Burada həmçinin ayrı-ayrı morfoloji və sintaktik kateqoriyalar araşdırılmış, bu kateqoriyaların izahında ənənəvi ərəb dilçiliyi və Avropa dilçiliyindən irəli gələn prinsiplərin nisbəti məsələsi aydınlaşdırılmış, müasir dilçiliyimizdə bu problemlərlə bağlı fərqli elmi görüşlərin şərhinə yer verilmişdir. Müqayisələr aparılarkən təkcə Azərbaycan dilçiliyinin faktları ilə kifayətlənilməmiş, yeri gəldikcə ümumi dilçilik tarixinə aid nəzəriyyə və konsepsiyalara da müraciət edilərək, əsərə tarixi-müqayisəli metod prizmasından qiymət verilmişdir.

Dilçilik tariximizdə ilk dəfə olaraq M. Əfşarın "Fənni-sərfü nəhvi-türki" əsərinin müasir əlifbaya transliterasiya edilmiş tam mətni verilmiş, əsərdən istifadə

edəcək oxucuların işini asanlaşdırmaq üçün izahlı dilçilik terminləri və ərəb-fars mənşəli sözlərin lüğəti də mətnə əlavə edilmişdir.

Əsərin nəşrinin dilçi-mütəxəssislər, Azərbaycan dilinin tədrisi tarixi ilə məşğul olan tədqiqatçılar və geniş oxucu kütləsi üçün faydalı olacağını güman edirik.

QRAMMATİK OÇERK
MİRZƏ MƏHƏMMƏD ƏFŞARIN "FƏNNİ-SƏRFÜ NƏHVİ-TÜRKİ" ƏSƏRİ VƏ ONUN AZƏRBAYCAN DİLÇİLİYİ TARİXİNDƏ YERİ

1. XIX ƏSRDƏ AZƏRBAYCAN DİLİNİN QRAMMATİKASINA DAİR YAZILMIŞ DƏRSLİKLƏR (qısa xülasə)[1]

Dünyanın ən qədim inkişaf tarixinə malik zəngin dillərindən biri olan Azərbaycan dilinin bugünkü yüksək struktur-qrammatik və zehni-intellektual səviyyəyə çatmasında bir çox amillər mühüm rol oynamışdır. Bu amillər sırasında yazılı ədəbi dilin formalaşması və bunun vasitəsilə bir dövrdə qazanılmış ədəbi dil vərdişlərinin və təcrübəsinin sonrakı dövrlərdə təkmilləşdirilərək davam etdirilməsi, Azərbaycan dilində əsərlər yazan qüdrətli söz sənətkarlarının yetişməsi və onların ədəbi-bədii dilə gətirdiyi yeniliklər, dilin cəmiyyət həyatının müxtəlif sahələrində tətbiqi və bununla əlaqədar ədəbi dilin üslubi cəhətdən diferensiallaşması, ana dilində tədris-təhsil ocaqlarının yaranması və burada uşaq yaşlarından dil daşıyıcılarına ana dilimizin qayda-qanunlarının öyrədilməsi, Azərbaycan dilinin normativ leksik-qrammatik quruluşunun təsvirini verən dil dərsliklərinin yazılması və s. göstərmək olar. Azərbaycan dilinin inkişafına təsir edən bu amillərin hər birinin öz rolu və tarixi missiyası var. Göstərilən cəhətlər içərisində Azərbaycanda təhsil sisteminin formalaşması və

[1] Xülasə hazırlanarkən əsas etibarilə A. Abdullayevin və M. Hüseynzadənin tədqiqatlarından (Bax: 1; 9) götürülmüş faktlara istinad edilmişdir.

ana dilinə aid dərsliklərin meydana gəlməsi də müəyyən əhəmiyyət daşıyır.

Azərbaycan dilinin tədrisi qədim tarixə malikdir. Eramızın III əsrindən başlayaraq Azərbaycanda ilkin savad təlimi verən ayrı-ayrı məktəblər mövcud olmuş və belə məktəblər XIX əsrə qədər öz fəaliyyətini davam etdirmişdir. Həmin təhsil ocaqlarında bir sıra elmi və bədii əlyazmalardan dərslik qismində (təlim materialı kimi) istifadə olunmuşdur [29,1]. Orta əsrlərdə mədrəsələr sistemi geniş yayılmış, bu təhsil müəssisələrində kiçik yaşlardan uşaqlara yazı və oxu vərdişləri aşılanmış, gələcəkdə müxtəlif sahələr üzrə dünya miqyaslı elmi uğurlara imza atan görkəmli Azərbaycan alimlərinin bir çoxu bu mədrəsələrdə yetişmişlər. Mədrəsələrdə dini elmlərin, Qurani-Kərimin öyrədilməsi əsas yer tutsa da, ana dilinin tədrisinə də müəyyən dərəcədə diqqət verilmişdir. Ana dilində tədrisin vacibliyi öz növbəsində ərəb-fars dillərinin qrammatik quruluşuna aid Azərbaycan dilində dərsliklərin yazılmasına təkan vermişdir. Orta əsrlərdə mədrəsə təhsil sisteminin bir çox hallarda sxolastik xarakter daşımasına, tədrisin əzbərləmə üsulu əsasında aparilmasına baxmayaraq, dövrün qabaqcıl müəllimləri və ziyalıları ərəb və fars dillərinin tədrisinin ana dili ilə paralel aparılması zərurətini aydın başa düşürdülər. Məhz bu zərurətin nəticəsində ana dilində dərsliklər yaranmağa başlayırdı. Bilavasitə ana dilində yazılan dərsliklərin tarixi XVII əsrdən başlanır. XVII əsrin sonlarında, xüsusən XVIII əsrdə mədrəsələrdə, məktəblərdə ərəb və fars dillərinin tədrisi ilə əlaqədar azərbaycanca bir sıra tədris vəsaiti yazılmışdır. Dövrün tələbinə uyğun olaraq belə əsərlər əlyazma halında meydana çıxır, üzü köçürülərək onlardan mədrəsələrdə dərs vəsaiti kimi istifadə

olunurdu. Bu əsərlərdə təhkiyə əsasən sual-cavab şəklində qurulmuşdur. Yeri gəlmişkən qeyd edək ki, ayrı-ayrı mövzuların şərhinin sual-cavab şəklində verilməsi ənənəsi Azərbaycan dilində yazılmış dərsliklərdə XX əsrin əvvəllərinə qədər davam etmişdir. 1784-cü ildə yazılmış ərəb dilinin nəhvinə aid azərbaycanca dərslik də məhz sual-cavab şəklində qurulmuşdur. Dərslikdə verilən bir sıra dilçilik terminlərindən (ism, feil, zərf, sifət, fail, məful, məfuli-beh, müzaf, xəbər, mübtəda, cümlə, cümleyi-ismiyyə və s.) sonrakı dövrlərdə bilavasitə Azərbaycan dilinə aid əsərlərdə də istifadə olunmuşdur. Məsələn: "Məfuli-bih. O da neçə qismdir? İki: məfuli-bihi-sərih, məfuli-bihi-qeyri-sərih"; "Xəbər neçə qismdir? İki qismdir: ya müfrəd olur, ya cəm. Cəm cümlədə neçə qismdir? Dörd: cümleyi-feiliyyə, cümleyi-ismiyyə, cümleyi-şərtiyyə, cümleyi-zərfiyyə" (8,256).

Bütün bunlarla yanaşı olaraq, Azərbaycan dilinə aid müasir tipli dərsliklər yalnız XIX əsrdə yazılmağa başlanmışdır. XIX əsrin ilk yarısında Şimali Azərbaycanın rus qoşunları tərəfindən işğalı və Azərbaycanın ikiyə bölünməsi təhsil sistemində də müəyyən dəyişikliklərə səbəb oldu. Azərbaycanın görkəmli maarifçilərindən biri olan A.Bakıxanovun vətənə, xalqa xidmət etmək, xalq maarifini inkişaf etdirmək, ikidilli dünyəvi məktəb yaratmaq məqsədi ilə 1832-ci il fevralın 20-də tərtib etdiyi "müsəlman məktəblərinin təsis edilməsi layihəsi" Zaqafqaziyadakı çarizm nümayəndələri tərəfindən laqeyd qarşılanmışdı. Yalnız 15 il sonra Zaqafqaziyanın bir sıra iri şəhərlərində "müsəlman məktəbləri" təsis etmək işində ilk addımlar atıldı. 1847-ci il dekabrın 12-də Qafqazda ilk dəfə Tiflis şiə məktəbinin təntənəli açılışı oldu. Bu

məktəbin nümunəsində 1849-cu il yanvarın 15-də Tiflis sünni məktəbi də yaradıldı.

Zaqafqaziyada canişinlik yaradılması ilə əlaqədar olaraq 1848-ci ildə Qafqaz Tədris Dairəsi təşkil edildi. Azərbaycanda ilk müsəlman məktəbi 1849-cu il aprelin 10-da Gəncədə açıldı. Bunun ardınca Şuşada, Şamaxıda, Bakıda, 1850-ci ildə Şəkidə, Salyanda və Lənkəranda, 1853-cü ildə Zaqatalada da müsəlman məktəbləri fəaliyyətə başladı. Həmin məktəblərdə şagirdlər birinci sinifdə ərəb əlifbasını öyrənmək və "Quran" oxumaqla yanaşı, Azərbaycan dilinin qrammatikası ilə də tanış olurdular.

Çar hökuməti əhalini idarə etmək işində çətinlik çəkirdi. Çətinliklərdən ən mühümü çar məmurlarının yerli dili (Azərbaycan dilini) bilməmələri idi. Buna görə də tərcüməçilər hazırlamaq məqsədilə bir çox mərkəzi şəhərlərdə məktəblər açılıb ruslara Azərbaycan dilinin tədris edilməsinə, lüğətlər və dərs kitabları yazılmasına başlanır. Azərbaycan dili tədris planına daxil edildikdən və məktəblərdə öyrədilməyə başlandıqdan sonra qarşıya həmin fənn üzrə dərslik tərtib etmək məsələsi çıxmışdır. O vaxtlar dövlət məktəblərində ruslara Azərbaycan dilini tədris etmək üçün münasib dərsliklər yox idi. XIX əsrin ortalarına doğru Azərbaycan dilinin tədrisi sahəsində elmi-pedaqoji tələblərə cavab verən yeni dərsliklər meydana gəldi.

Son tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan dilində ilk "Əlifba" və "Oxu" kitabı 1839-cu ildə Tiflisdə çap edilmişdir. Hər iki kitabın müəllifi Zaqafqaziya məktəblər direktoru vəzifəsini icra edən N.Dementyevdir. Fonetik tədris üsulu ilə tərtib edilmiş bu dərslikdən Zaqafqaziyada, o cümlədən Azərbaycandakı dövlət məktəblərində istifadə edilmişdir [26,1].

Mirzə Kazım bəyin 1839-cu ildə yazdığı 556 səhifəlik “Грамматика турецко-татарского языка” (“Türk-tatar dilinin qrammatikası”) əsəri (daha sonra “Общая грамматика турецко-татарского языка”, Kazan, 1846) vaxtilə Azərbaycan dilini öyrənmək istəyən ruslar üçün ilk mükəmməl qrammatika dərsliyi və metodik vəsait olmuşdur. Üç hissədən ibarət olan bu əsərdə Azərbaycan dilinin fonetik, morfoloji və sintaktik quruluşu haqqında məlumatlar öz əksini tapmışdır. Əsərin yazılması üçün fransız alimi A. P. Joberin 1833-cü ildə Parisdə nəşr etdirdiyi “Elements de la grammaire turke” adlı əsərini model kimi götürən (15,138) M. Kazım bəy xələflərindən fərqli olaraq ilk dəfə Azərbaycan dilində mövcud olan morfoloji və sintaktik kateqoriyaların izahını Avropa dilçilik ənənələrinə uyğunlaşdırmağa çalışmış, bu prosesdə ərəb dilçilik ənənələrindən də bəhrələnmişdir. Əsərin birinci hissəsində fonetika və morfologiyanın feilə qədər olan bölmələri, ikinci hissəsində feil, zərf və köməkçi nitq hissələri bölmələri, üçüncü hissəsində isə sintaksis bölmələri əhatə olunmuşdur.

Azərbaycan dilini yeni öyrənənlər üçün L.Budaqov tərəfindən tərtib edilmiş “Турецко-татарский букварь” (1844) dərsliyində Azərbaycan dilinin qrammatik qanunları, leksikası, cümlə quruluşu, təhlil prinsipləri və s. haqqında izahat verilir.

T. Makarovun “Татарская грамматика кавказского наречия” (Tiflis, 1848) əsəri də Azərbaycan dilinin qrammatikası ilə bağlı ilk işlərdəndir (12,5).

XIX əsrin II yarısında M.F. Axundzadə, H.Zərdabi, S.Ə. Şirvani, M.Ş. Vazeh, A.O. Çernyayevski, N. Vəzirov, R. Əfəndiyev, S. M. Qənizadə, H. Mahmudbəyov və b.

təhsilin məzmun, forma və metodlarını dəyişməyə çalışır, xalqın savadlanması və maariflənməsi üçün xüsusi dərsliklərin, savad təlimi üçün fonetik üsulla dil qaydalarını öyrədən metodiki vəsaitlərin hazırlanmasına səy göstərirdilər.

1852-ci ildə Mirzə Şəfi Vazeh Tiflis gimnaziyasının Şərq dilləri müəllimi İ.Qriqoryevlə birlikdə "Kitabi-türki", rusca isə, "Татарская хрестоматия азербайджанского наречия" adlı dərslik yazmışdır. "Kitabi-türki"nin ikinci hissəsində əlifba sırası ilə **"**Татарско-русский словарь**"** verilmişdir. 1856-cı ildə "Татарский букварь" adlı Azərbaycan dili dərsliyi ikinci dəfə nəşr olunur. Həmin dərslikdə Azərbaycan dilinin bəzi qrammatik xüsusiyyətləri haqqında çox yığcam məlumat verilmişdir.

1857-ci ildə L.Budaqov Moskvada "Практическое руководство турецкого-татарского азербайджанского наречия" adlı dərslik çap etdirmişdir. 20 dərsdən ibarət olan həmin dərslikdə əvvəlcə sözlərin fonetik və morfoloji quruluşu, bunların tərcüməsi, rusca verilmiş mətnin tərcüməsi, sonra ruscadan azərbaycancaya və azərbaycancadan ruscaya müqayisəli tərcümələr verilmiş, hər bölmənin sonunda mətndə olan sözlərin morfoloji təhlili və onların sintaktik xüsusiyyətləri izah edilmişdir.

1861-ci ildə M. Ə. Vəzirovun tərcüməçilərə Azərbaycan dilini öyrətmək məqsədi ilə yazılmış "Учебник татарско-адербайджанского наречия" adlı dərsliyi çap olunmuşdur. L. Budaqov və M. Ə. Vəzirovun əsərləri öz dövrü və dilçilik tariximiz üçün müəyyən əhəmiyyət kəsb etsə də, elmi cəhətdən M. Kazım bəyin tədqiqatından olduqca aşağı səviyyədə idi (10,231). Bu əsərlərdə Azərbaycan dilinin qrammatik quruluşunu tədqiq emək problemi qarşıya qoyulmadığı üçün M. Kazım bəyin qrammati-

kasındakı bəzi müddəalar sadələşdirilmiş şəkildə eynilə təkrarlanır.

1866-cı ildə L. M. Lazarev "Türk dilinin müqayisəli müntəxəbatı" adlı dərsliyini Moskvada çap etdirmişdir. Ruslara türk (Osmanlı) və Azərbaycan dillərini öyrətmək üçün yazılmış 348 səhifəlik həmin dərslikdə prof. L.M.Lazarev Azərbaycan dilinin əhəmiyyətindən, onun Asiya ölkələri və Yaxın Şərqdə yayılmasından da bəhs edir. Kitabın sonunda qısa lüğət də verilmişdir.

S. Ə. Şirvaninin 1877-ci ildə tərtib etdiyi "Rəbiül-ətfal" (Uşaqların baharı) dərsliyi də öz dövrü üçün mütərəqqi əhəmiyyət daşıyırdı. Lakin bu əsər kiçik yaşlı uşaqlar üçün tərtib edildiyindən burada didaktik məzmunlu illüstrativ materiallara üstünlük verilmiş, qrammatik izahlar nisbətən arxa plana keçirilmişdir.

1876-cı ildə Gürcüstanın Qori şəhərində Zaqafqaziya əyalətləri üçün açılmış "Загафгазская Учительская семинария"da yalnız rus, gürcü və ermənilər oxuyurdular. 1879-cu ildə Qori müəllimlər seminariyasının yanında tatar (Azərbaycan) şöbəsi açılır. Seminariyanın bu şöbəsinə Aleksey Osipoviç Çernyayevski müdir təyin olunur.

Qori müəllimlər seminariyası vasitəsilə rus pedaqoji fikri sahəsindəki yeniliklərin Azərbaycanda yayılması öz təsirini göstərmiş, rus məktəblərində tətbiq olunan tədris üsulları ilə az-çox tanış olan xüsusi məktəb sahibləri şəhərlərdə "Üsuli-cədid" (Yeni üsul) adlı məktəblər açmağa başlamışdılar. Məsələn, Şuşada M. M. Nəvvab, Lənkəranda M.İ. Qasir, İrəvanda M.K. Əskərzadə Müttəle, Şamaxıda S.Ə.Şirvani, Ordubad və Naxçıvanda M.Sidqi "Üsuli-cədid" məktəbi açıb yeni üsulla Azərbaycan dili və ədəbiyyat dərsləri keçirdilər. Həmin məktəblərdə Azərbay-

can və fars dillərinin qrammatik quruluşu haqqında məlumat verilirdi.

Azərbaycan dilinin tədrisi tarixində A. O. Çernyayevskinin xüsusi yeri vardır. O, fonetik üsulla azərbaycanlı uşaqlara ana dilini tədris edən "Vətən dili" adlı dərslik yazmış, bu dərslik azacıq dəyişikliklərlə müxtəlif illərdə (1882-1910) bir neçə dəfə nəşr olunmuşdur.

Azərbaycan dilinin qrammatikasına dair bu dövrdə yazılmış tədqiqatlardan A.Tahirovun "Самоучитель татарского языка" (1887) və S.M.Qəniyevin "Полнейший самоучитель татарского языка кавказско-азербайджанского наречия" (1890) əsərlərini də qeyd etmək olar (12,6).

Görkəmli maarifçi Rəşid bəy Əfəndiyevin 1889-cu ildə yazdığı "Uşaq bağçası" dərsliyi də ana dilinin tədrisi sahəsində xüsusi yer tutur. Əsərin üzərində qeyd edilmişdir: "Savadsız adam bu kitab ilə bir ayda oxur və yazır". R. Əfəndiyev 1901-ci ildə "Bəsirətül-ətfal" adlı qiraət kitabı da çap etdirmişdir. 226 səhifəlik dərslikdə orfoqrafiyaya dair məlumatlar da vardır (1,69).

Məktəblərdə Azərbaycan dili dərslərinin keyfiyyət və səlahiyyətini yüksəltmək məqsədilə N. Nərimanov 1899-cu ildə "Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi" dərsliyini yazmışdır. Bu dərslik orta məktəblərdə oxuyan azərbaycanlı uşaqlar üçün hazırlanmışdı.

XIX əsrdə Azərbaycan dilinə aid yazılmış dərsliklərin və dərs vəsaitlərinin qısa xülasəsindən göründüyü kimi, bu dövrə aid qrammatika əsərlərinin əksəriyyəti rus dilində yazılmış və Azərbaycan dilini ruslara öyrətmək məqsədi daşımışdır. Bunların arasında tək-tük Azərbaycan dilində yazılmış və azərbaycanlılar üçün nəzərdə tutulmuş

yeni tipli qrammatika kitabları da var idi ki, həmin əsərlər içərisində Mirzə Məhəmməd Əfşarın "Fənni-sərfü nəhvi-türki" əsəri həm elmi sanbalına, həm də tarixi əhəmiyyətinə görə xüsusilə diqqəti cəlb edir.

2. MƏHƏMMƏD ƏFŞARIN "FƏNNİ-SƏRFÜ NƏHVİ-TÜRKİ" ƏSƏRİ HAQQINDA

Azərbaycan dilçiliyi tarixində özünə məxsus yeri olan Mirzə Məhəmməd Əfşarın "Fənni-sərfü nəhvi-türki" əsəri istər elmi-nəzəri, istərsə də praktiki-pedaqoji cəhətdən kifayət qədər əsaslı şəkildə öyrənilməmişdir. Bu vaxta qədər əsər birinci hissəsinin adı ilə "Fənni-sərfi-türki" kimi adlandırılmışdır. Halbuki əsərdə həm sərf (morfologiya), həm də nəhv (sintaksis) məsələləri əhatə olunmuşdur. Buna görə də əsərə verilmiş "Fənni-sərfi-türki" adı onun məzmununu tam əhatə etmir. Bu cəhəti nəzərə alaraq, biz əsəri "Fənni-sərfü nəhvi-türki" şəklində adlandırmağı daha münasib və doğru hesab edirik. Bu əsərdən müəyyən müddət darülmüəllimin və mədrəsələrdə tədris vəsaiti kimi istifadə edilmişdir. M. Əfşar Qori müəllimlər seminariyasında şəriət və ana dili müəllimi vəzifəsində çalışmış və çox güman ki, bu əsəri də həmin seminariyanın tələbələri üçün yazmışdır. Təəssüf ki, əski əlifba ilə yazılmış bu əsərin yalnızca fotosurəti mövcuddur. Əlyazmanın əslinin harada saxlandığı barədə əlimizdə dəqiq məlumat yoxdur. Nəstəliq xətti ilə yazılmış 90 əlyazma səhifəsindən ibarət olan bu əsər indiyə qədər nəşr edilməmiş, ən yaxşı halda, bir neçə tədqiqat əsərində əsərin müqəddiməsindən, nitq hissələrinin təsnifat prinsiplərindən və dilçilik terminlərindən qısaca məlumat verilməklə

kifayətlənilmişdir. Bu baxımdan Muxtar Hüseynzadə və Ağaməmməd Abdullayevin xidmətləri xüsusi qeyd edilməlidir, çünki əsər haqqında ən geniş məlumat onların kitablarında verilir (10,232-235; 1,52-57). Qeyd edək ki, 2011-ci ildə nəşr olunan "Azərbaycan dilinin tədrisi tarixi" adlı dərs vəsaitində M. Əfşarın heç adı da çəkilmir (17).

Dilçilik tədqiqatlarında əsərin sonundakı "... *yanvar ayınıŋ* [...] *bəndeyi-kəmtərin in çakəri-canfəşan dər məqami-tə'cil beetmam rəsanideəm, səm' Əfşar müqimi-vilayəti-Urum(s)ə və xələfi Mirzə Məhəmməd əsli-Əfşar əst, iltimasi-du'a darəm*" qeydinə əsasən müəllifin adı şərti olaraq Mirzə Məhəmməd Əfşar kimi müəyyənləşdirilir.

M. Əfşarın kimliyini araşdırarkən məlum oldu ki, müəllifinin adı Hacı Mirzə Məhəmməd Əfşar olan, təqribən 1900-cü illərdə Bombeydə nəşr olunduğu qeyd edilən "Bəhrül-irfan" adlı bir kitab var. 287 səhifəlik həmin əsər üç hissədən ibarət olub, İslam dini ayələri və hədislərinə həsr olunmuş və fars dilində yazılmışdır [27]. "Fənni-sərfü nəhvi-türki" əsərinin müəllifi Məhəmməd Əfşarın həm də şəriət müəllimi olduğunu nəzərə alaraq, düşünmək olar ki, hər iki əsər eyni müəllifə aiddir.

Əlyazmanın ilk səhifəsində fars dilində belə bir qeyd var: "*Əz kotobe- kitabxaneye- Ə̇bdülxaliq Ğaffarzadei- Badkubei əl-mütəxəllisi be Cənnəti xəridəş nim manat əz ağayi- 'Əbdülxaliq Ğaffarzadə, iltimasi-zikri-xeyr darəm*. 95/1320". Bu qeyddən aydın olur ki, əsər vaxtilə Cənnəti təxəllüslü Əbdülxaliq Ğaffarzadə Badkubeinin kitabxanasına məxsus olmuş və onun özündən yarım manata satın alınmışdır. Sağ küncdə isə, ərəb rəqəmlərilə **1320** və **95** qeyd edilmişdir ki, **1320** rəqəmi miladi təqvimlə təqribən **1902**-ci ilə uyğun gəlir.

“Fənni-sərfü nəhvi-türki” əsərinin yazıldığı dəqiq tarix bəlli deyil. Akademik A. Axundov “Azərbaycan dili” adlı məqaləsində əsəri 1869-cu ilə aid etmişdir (6). Lakin M. Əfşarın öz qeydlərindən məlum olur ki, əsəri Qori müəllimlər seminariyasında dərs dediyi ərəfədə yazmışdır, deməli, onun tarixinin 1879-cu ildən əvvələ aid olması mümkün deyil. Məhəmməd Əfşarın “Fənni-sərfü nəhvi-türki” əsəri təqribən XIX əsrin II yarısında Azərbaycan dilinin qrammatikasına aid azərbaycanlı müəllif tərəfindən azərbaycanca yazılmış ilk əsər olub təxminən XIX əsrin II yarısında, Mirzə Kazım bəyin “Грамматика турецко-татарского языка” (1839), “Общая грамматика турецко-татарского языка” (1846) və Mirzə Əbülhəsən Vəzirovun “Учебник татарско-адербайджанского наречия” (1861) əsərlərindən sonra və Nəriman Nərimanovun “Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi” (1899) əsərindən əvvəl yazılmışdır. Bu faktı dərsliyin müqəddiməsində verilən izahat da açıq şəkildə təsdiq edir:

“Bu anə qədər səfəhati-Azərbaycanda bulunan ərbabi-mə’arifdən bir kəs dilimiziŋ qəva’idi-sərf və nəhvini istinbat və cəm’ etməgə e’tina etməyüb məhəlli güzar olmamışdur. Bunuŋ içün ... kəsbi-savada kitabətimiz məhz tutivari olub, səbki-kitabətə və rəsmi-xəttə hissi-bəsər nə tövr aşinalanubsa, o tövr qələmə gətürirük. Əslindən, kökündən və qəva’idindən xəbərimiz olmayub, insan işi maşina işinə bəŋzər bir iş olmuşdur ... Bəli, əgərçi bu babda Peterburğ darülfünunininiŋ müdərrisi cənab Kazım bekof və Novaçerkes ğimnaziyəsiniŋ mü’əllimi cənab Vəzirof rus balalarını türk diliniŋ qəva’idindən aşina etmək içün hər biri bir əsər baqi qoymuş isə də və lakin əvvəlimciniŋ təlifi ğayətdə mütəvvəl və ikinciniŋ risaləsi

nəhayətdə müxtəsər olmaqdan başqa, hər ikisi rusca yazıldıqına görə, türk balaları içün onlardan faydabərdar olmaq mütə'əssir və bəlkə, mütə'əzzir idi ...” [16,4-5].

Bu qeydlərdə M. Əfşar, hər şeydən əvvəl, mexaniki əzbərləməyə əsaslanan köhnə təhsil sistemi və həmin sistem əsasında tərtib edilmiş dərsliklərlə ana dilini öyrətməyin mümkün olmadığını, bu vəziyyətdə uşaqların öz milli köklərindən ayrı düşərək Azərbaycan dilinin qanun və qaydalarını mənimsəyə bilmədiklərini xüsusi vurğulayır, ruslar üçün yazıldığından M. Kazım bəyin və M. Ə. Vəzirovun əsərlərindən azərbaycanlı uşaqların istifadə etmələrinin çətin, hətta qeyri-mümkün olduğunu göstərir. Digər tərəfdən, müəllif bildirir ki, Mirzə Kazım bəyin əsəri həcminin çox olduğuna görə, M.Ə.Vəzirovun əsəri isə həddən artıq yığcam olduğuna görə tələblərə cavab vermir, azərbaycanlı tələbələr onlardan faydalana bilmir. Buradan aydın olur ki, M. Əfşarın başlıca məqsədi doğma dilimizin qrammatik qanun və qaydaları haqqında bilavasitə azərbaycanlı uşaqlara ətraflı məlumat vermək, Azərbaycan dilinin qrammatik quruluşunun elmi təsvirini vermək və dolayısı ilə bu dilin saflığını qorumaq və dildən istifadənin normativ əsaslarını hazırlamaq olmuşdur. Bu baxımdan “Fənni-sərfü nəhvi-türki” əsəri azərbaycanlılar üçün Azərbaycan dilində yazılmış yeni tipli ilk qrammatika dərsliyidir. Əsərin bu məziyyəti sonrakı dövrdə yazılmış qrammatikaya aid dərsliklərdə də ana xətt kimi inkişaf etdirilmişdir.

M. Əfşar kitabın müqəddiməsində dilin tərifini verir, dilin saflığını qorumağın vacibliyini və əhəmiyyətini qeyd edir. Müəllif göstərir ki, bir millətin nəsillər boyu əcdaddan öyrənib istifadə etməklə möhkəmlənən, vərdiş

halına gələn dili (şifahi və yazılı) başqa millətlərlə əlaqələr nəticəsində dəyişə bilir. Yəni başqa millətlərin söz və ifadələrindən (hətta səs və hərflərindən) istifadə etməklə dil vərdişinə xələl dəyir, dildə müxtəliflik əmələ gəlir və dolayısı ilə təhsildə uyğunsuzluq və çətinlik yaranır: “Hər bir millətiŋ sö[y]lədigi lisana, yəni tə’birat və təqriratına “lüğət” deyilür. Lüğət lisanda mələkə olub, xələf sələfdən, övlad ata-anadan əxz və istima’ etməklə fazil olur. Hərgah bir qövmiŋ lüğəti ixtilati-əqvam ilə təğyirpəzir olmaya, yə’ni başqa qövmləriŋ hüruf və əsvatından və luğat və ibaratından hissə almasa, o lüğətiŋ mələkeyi-lisaniyyəsi ’alə hali baqi qalub, qəva’idiniŋ təhsili dəxi səhl və asan olur və lakin ’indəl-’əks, mələkeyi-lisana xələl ’ariz olub, luğati-müxtəlifəyə müştəməl oldıqına görə kəsb və təhsilində ’usrət və siqlət ’əmələ gəlür” [16,1].

Müəllif bunun ardınca göstərir ki, “bu təqdirdə həmin dilin qaydalar külliyatının tərtibi və məxsusi bir fənnin tədrisi ən mühüm və gərəkli bir haldır. Bu səbəbdəndir ki, bütün mədəni millətlər özlərinin dil xüsusiyyətlərini qorumaq üçün dil qaydalarını yığıb xüsusi fənn üzrə tədris etmiş və bununla yanaşı, zamanla bütün qüsurları aradan qaldırmağa və ya asanlaşdırmağa çalışmışlar. Həmin xüsusi fənn ərəbcə “Sərfü nəhv” (morfologiya və sintaksis) adlanır. Bu fənnə ən etinalı və diqqətli xalq ərəblər olmuşdur, çünki “Qurani-Şərif” ərəb dilində nazil olmuşdur. Ona görə də bu dilin qaydalarını xələl və dəyişiklikdən müdafiə etməyi özlərinə vacib və dini bir xidmət bilmişlər”[2] [16,1-2].

---

[2] Bundan sonra “Fənni-sərfü nəhvi-türki” əsərindən gətirilən sitatlar sadələşdirilmiş şəkildə verilir.

Müəllif Şərqdə dilçiliyin tarixi məsələsinə toxunaraq qeyd edir ki, ərəb dilinin qrammatik qaydalarını ilk dəfə Əli ibni Əbi Talibin (Hz. Əli (r.a.)) tapşırığı ilə Bəni-Kənanə qəbiləsindən Əbul-Əsvəd Əd-Düəli (r.a.) tərtib etmişdir. O, qanuni-külliyyə üzrə araşdırma, dəqiqləşdirmə və bu məsələyə dair bir neçə əsəri tədqiq etməklə elmi nəticə çıxarıb və bunların xülasəsini köçürməyə xüsüsi bir fənn təyin etmişdir ki, getdikcə ən vüsətli və mükəmməl bir fənn meydana gəlmişdir. "Ondan "bu elmi kimdən öyrəndin?"- deyə soruşduqlarında, "Hz. Əlidən"- deyə cavab verərdi" [16,25].

Belə bir cəhətə də xüsusi diqqət yetirilir ki, bu fənn dəyişikliyin başlanğıc mərhələsində meydana gəlsə, dilin qayda-qanunlarının toplanması və nizamlanması daha asan olar. Müəllifə görə, xeyli dəyişikliyə məruz qalmış, pozulmuş türk (Azərbaycan) dilinin sərf və nəhvinin tədrisi, qaydalarının tərtibi çox mühüm, zəruri və eyni zamanda çətin işdir.

M. Əfşar əsərində bu gün də mühüm olan bir məsələyə − başqa dillərdən alınma sözlərə münasibətini bildirir, vaxtilə zərurət oldu-olmadı dilə keçmiş ərəb və fars mənşəli sözlərin təsirilə öz sözlərimizin bir qisminin tədricən unudulduğunu, əvəzində ərəb və fars dillərindən alınma sözlərin çoxunun türk dilinin qayda-qanunlarına uyğunlaşaraq başqa şəkil aldığını vurğulayır və qeyd edir ki, bir çox hallarda həmin sözlərin qarşılığı olsa da, ana dilinə məxsus sözlər dildən atılmış və elə vəziyyət yaranmışdır ki, kimsə milli sözlərdən istifadə etsə belə, artıq başqaları tərəfindən anlaşılmayacaqdır: "Zənn edirəm ki, bu gün də millətlər arasında mövcud olan və işlənən dillərdən türk dili kimi fəqir və möhtac dil yoxdur. Dayima

mə'ani-məxsusələri ifadə üçün iki əlli 'ərəb və fars dillərindən qarpub dəf'i-ehtiyac etməkdədir... Müəyyən biçimdə və müəyyən hala görə alınmış kəlmələr tədricən tərk edilmiş, köhnəlmiş və yaddan çıxmış, unudulmuşdur və əvəzinə ərəbi və ya farsi kəlmələrdən girib çoxu türkcə başqa şəkil almış və bəzən təqrir və ya təhrir etdiyimiz 'ərəbi və farsi sözlərin əvəzi türk dilində var olsa da, qəsdən tərk edib, guya tərk olunması fəsahətə lazım bir hal və bəlkə işlənməsi bəzən qəribəlik, fərqlilik yaratmaq səbəbilə olmuşdur. Məsələn, əgər bir kəs İstanbulda *ateş* 'əvəzinə *od* və ya Azərbaycanda *cəhənnəm* 'əvəzinə *damu* və *naxoş* və ya *naçaq* bədəlinə *sayrı* söyləsə, əksər insan muradını anlamayıb suala məcbur olur, xüsusən, bir surətdə ki, bir kəlam köhnəlmiş, yaddan çıxmış, unudulmuş, tərk edilmiş və alışılmamış türki kəlmələrə şamil ola. Məsələn, "*bir tapınan yoxdur, ancaq çalapdur*" dedikdə, yəqin ki, əvvəlincidən artıq uzaq və anlaşılmaz görünəcəkdir, amma *tapınan* 'əvəzinə *mə'bud* və *çalap* yerinə *Allah Tə'ala* deyilsə, qəti şəkildə, mütləq mətləb, məqsəd və ya mövzu anlaşılan olacaqdır..." [16,3].

Bu cəhət, yəni Azərbaycan dilində ərəb və fars alınmalarının çoxluğu tədris prosesində daha çox çətinlik yaradırdı. Bunları nəzərə alaraq, müəllif ərəb və fars dillərinin qayda-qanunları haqqında da məlumat verməyi vacib sayırdı.

Əsərin leksikasında (xüsusən, müqəddimədə) ərəb mənşəli sözlər və izafət tərkibləri üstünlük təşkil edir. Diqqət çəkən məqamlardan biri də odur ki, həmin sözlərdə orfoqrafik cəhətdən heç bir təhrifə yol verilmir, yəni sözlər mənşə dildə (ərəb dilində) olduğu kimi yazılır ki, bu da mətnin oxunmasını asanlaşdırır. Onu da qeyd etmək lazım-

dır ki, ərəb mənşəli sözlərin çoxluğu, bu gün üçün anlaşılmaz olan bir sıra birləşmələrin işlənməsinə baxmayaraq, cümlələrin sintaktik quruluşu fikrin anlaşılmasına imkan yaradır. Əsərin əsas hissəsində qrammatik qaydalar haqqında anlaşıqlı bir dildə məlumat verilir.

Müqəddimənin sonunda M.Əfşar əsərinin bölmələri haqqında məlumat verməzdən əvvəl elm və mərifət sahiblərinə müraciətlə dilimizin saflığının qorunması istiqamətində onun tərəfindən edilmiş ilk təşəbbüsün bütün qüsurlarına baxmayaraq, dilimizə xidmət baxımından çox dəyərli olduğunu bildirir və bu işdə ona kim yardımçı olsa, vətən, millət və Allah hüzurunda mükafatlarının daha çox olacağına inamını ifadə edir: "... xeyli zamandan bəri bu yolda az-çox işlədigim üçün və bu müddətdə darülmü'əllimin mədrəsəsində ilahiyyat mü'əllimi və həm türkcə tə'limi-savad öhdəmə həvalə olunduğuna görə müqəddəs vəzifəm hesab edib, qüvvə və mayamın azlığından çəkinməyərək vətənimin övladlarına bir xidmətcik etmək niyyətilə bu binayi-xeyrin bünövrəsinə bir kərpic atdım, yə'ni dilimizin rəvac və tə'limi yolunda bu risaləciqi təlif eylədim və əvvəldə zikr olan səbəblərə görə ancaq türki qəva'idinə qəna'ət etməyib, 'ərəb və fars dilinin qayda-qanunlarından da münasib olanını qeyd və dərc eylədim. Ümidvaram, səhvimi görənlər islah etmək, nöqsan və eyiblərimi düzəltməklə belə bəndeyi-'acizlərinə dəxi izharında minnət qoyalar..." [16,5-6]. Müqəddimənin sonunda isə, əsərdə hansı məsələlərdən bəhs olunduğuna dair qısa şəkildə məlumat verilir.

Əsər iki böyük hissəyə bölünür: "Fənni-sərf" (morfologiya) və "Fənni-nəhv" (sintaksis). Əvvəldə qeyd etdiyimiz kimi, əslində, bu əsərin "Fənni-sərfi-türki" deyil,

“*Fənni-sərfü nəhvi-türki*” və ya sadəcə “*Sərfü nəhvi-türki*”, yaxud müəllifin özünün yazdığı kimi, “*Türk lüğətinin fənni-nəhviyyə-sərfiyyəsi*” adlandırılması daha düzgün olardı. Çünki müəllif müqəddimədə bu fənnin ərəbcə “Sərfü nəhv” adlandırıldığını qeyd edir: “Bu cəhətədür ki, külli milləti-mütəməddinə özləriniŋ mələkeyi-lisaniyyələrini hifzü viqayə içün qəva’idi-lisanlarını yıqub bir fənni-məxsus üzrə tədvin edüblər və vəqtən-fövqətən işkalati-varidəsini rəf’ və təshil etməgə çalışublar. Fənni-məzkur ’ərəbcə “*sərfü nəhv*” adlanur” [16,1]. Daha sonra: “... *türk lüğətiniŋ fənni-nəhviyyə-sərfiyyəsini* tədvin etmək ancaq lüğəti-türküŋ qəva’idini zəbt etməgə möhtac olmayub, məzkur lisanlarıŋ da filcümlə qəva’idinə əl vırmaq gərəkdür” [16,4].

M.Əfşar burada müqayisə üsulundan istifadə edərək, Azərbaycan dili qrammatikasına dair məlumatları ərəb, fars dili və Osmanlı türkcəsi ilə qarşılaşdırır, bu dillərin hər birinə xas olan hərfləri göstərir: “... ’əsri-hazırda müstə’məl türk dili üç dildən mürəkkəb bir dil olub, əlifbası otuz üç hərfdür, bu hərflərdən yeddisi, yə’ni (ث ح ص ض ط ظ ع) ’ərəb dilinə müxtəssdür. Yə’ni hər bir kəlmədə ki bu hürufdan tapıla, yəqin edirük ki, o kəlmə ’ərəbidür, türki degildür. Məgər bir neçə kəlmə var ki, ... bu hürufdan birisilə yazılmaqı şöhrət tapubdur. Məsələn, **صو** (su), **صوكره** (soŋra), **صول** (sol), **صانمق** (sanmaq). Bu növ kəlmələr ’Osmanlu inşalarında çox görünür ... Dört hərf dəxi necə ki işarə olundı, yə’ni (پ چ ݣ ژ) fars və türk lüğətə məxsusdur, yə’ni hər bir kəlmədə tapılsa, yəqinən ki, ’ərəbi degildür, farsi və ya türkidür və həmçinin, *sağır nun* ancaq türk dilinə müxtəssdür, fars və ’ərəb ləhcəsində tapılmaz, məsələn: **بگا** (baŋa), **سگا** (saŋa), **اوگا** (oŋa), **تگری**

(Taŋrı). Və lakin hər bir kəlmədə bulunmaq ilə demək olmaz ki, o kəlmə türk lüğətidür. Zira ki, çox vəqtdə *sağır nun* ’ərəbi və farsi kəlmələrinə mülhəq olub ədati-izafə iste’mal olunur, məsələn: *mü’əllimiŋ dərsi, mütə’əllimiŋ bəhsi, sipəhsalarıŋ qoşunı*. İstisna olunmuş hərflərdən yerdə qalan 21 hərf müştərəkdür hər üç lüğətin arasında” [16,8-9].

“Fənni-sərfü nəhvi-türki” əsərində ilk dəfə M. Kazım bəyin qrammatikasında öz əksini tapmış və dilçiliyimiz üçün yeni olan bir sıra müddəalara da rast gəlmək mümkündür. Bu baxımdan onun əsəri ənənəvi ərəb qrammatikası prinsiplərindən yeni tipli qrammatik nəzəriyyəyə keçid üçün körpü rolunu oynayır.

“Fənni-sərfü nəhvi-türki” əsərində işlənən dilçilik terminləri XIX əsrin II yarısında yazılan bütün qrammatika əsərlərində olduğu kimi, əksərən ərəb mənşəlidir və onların bir qismi sonradan dilimizdə yeniləri ilə əvəz olunmuşdur. Əsərdə ərəb dilçilik ənənələri ilə bağlı olan dilçilik anlayışları üstünlük təşkil edir. Buna görə də, dilçilik terminləri içərisində ərəb mənşəli sözlərə və izafət tərkiblərinə daha çox rastlanır.

Əsərin birinci hissəsinin “Fənni-sərf” adlandırılmasına baxmayaraq, burada fonetika haqqında da geniş məlumat verilir. Bu hissə “babül-hərf” (//babül-hüruf), “babül-ism”, “babül-fe’l” və “babül-mübhəmat vəl-ədəvat” bölmələrindən ibarətdir. Bu bölgü klassik ərəb dilçiliyi ənənələrinə uyğun idi. Zəməxşaridən başlayaraq ərəb dilçiləri uzun bir müddət ərzində ərəb dilini və başqa dilləri tədqiq edərkən bu bölgünü tətbiq edirdilər (26,72).

Müəllif birinci babda (babül-hüruf) Azərbaycan dilinin fonetik quruluşundan, səslərin və hərflərin spesifik

xüsusiyyətlərindən, səslərin əmələ gəlməsində rol oynayan danışıq üzvlərindən bəhs edir. Qeyd edək ki, əsərdə “bab” termini “fəsil” terminindən daha geniş mənada başa düşülür. Bu cəhət müəllifin öz qeydindən də aydın olur: “Fənni-nəhviyyə dəxi bir bab və neçə füsul (fəsillər) üzrə xitam bulur”. Əsərdə “bab” adı altında hər hansı mövzu haqqında təməl məlumatlar, “fəsil” adı altında isə, həmin mövzu haqqında əlavə məlumatlar verilir. Ümumiyyətlə, əsərin bölgüsü böyükdən kiçiyə doğru belə sıralanır:
qism > bab > fəsil > qeyd.

Hərflər bəhsində əlifbadakı bütün hərflər ümumilikdə “hürufi-heca” adlandırılır. Səs mənasında “sövt” termini işlənir. Ondan əvvəl yazılmış əsərlərdə olduğu kimi hərflər məxrəcinə görə üç yerə bölünür: 1) boğaz (hürufi-həlq); 2) dil (hürufi-lisani); 3) dodaq hərfləri (hürufi-şəfəvi). Bundan başqa, “hürufi-müttəsilə” və “hürufi-münfəsilə” adı ilə bitişik və ayrı yazılan hərflər şərh olunur. Məlumdur ki, ərəb əlifbasında bir sıra hərflər vardır ki, özündən sonra gələn hərflərlə əsla birləşmir: (ا د ذ ر ز ژ و). Müəllif saitlərdən bəhs edərkən sait səsləri bildirən hərflər və səsləri, habelə uzun və qısa saitləri bir-birindən fərqləndirir, “hürufi-müsavvitə” (səsli hərflər) və ya “hürufi-imla” adı ilə yerindən asılı olaraq müxtəlif səsləri bildirən (ا و ی ه) hərflər, “hərəkeyi-müsavvitə” (səsli hərəkə) adı ilə isə sait səsi bildirən hərəkələr (diakritik işarələr) haqqında bəhs edir: “Hərəkeyi-müsavvitə dəxi üçdür: *zəbər, zir, puş*. Bunların hər birisi həmcinsi olan hərfin yarı sövtini verir; zəbər *əlif*in, zir *ya*nın və puş *vav*ın həmcinsidir. Bu ’əlamətlər ’ərəbcə “*fəthə, kəsrə, zəmmə*” adlanur” [16,13]. Müəllif göstərir ki,

(ا و ى ه) hərflərindən başqa qalan hərflər “hürufi-samitə” (lal hərf) adlandırılır.

İsim bəhsində cins, kəmiyyət və hal kateqoriyaları ərəb və fars dilləri ilə müqayisəli şəkildə izah edilir və isimlər iki əsas qrupa ayrılır: “ismi-cins” (məs.: heyvan, daş, ağac) və “’ələm” (şəxs adları: Əli, Həsən, Hüseyn). Maraqlıdır ki, kəmiyyət anlayışı türk mənşəli *san* sözü ilə ifadə edilir: “Türk dilində *san* ikidir: “müfrəd” (tək) və “cəm’ ” [16,18]. M. Əfşar ayrıca kateqoriya kimi yer anlayışı bildirən sözləri fərqləndirir və göstərir ki, “İsmi-məkan” bir şeyin məkanını göstərən kəlmədir: a) türkcə: çəmənlik, tikanlıq (*-lıq // -lik*); b) ərəbcə: mə’bəd, məscid (*məf’əl* və *məf’il* vəznində): c) farsca: laləzar, gülistan, nəməkdan, ’ibadətgah (*-zar, -istan, -dan, -gah*) və s.

XX əsrdə yazılmış bəzi qrammatika kitablarında olduğu kimi, M.Əfşar da türk (Azərbaycan) dilində ismin yeddi halı olduğunu qeyd edir. Bu hallar həm ərəbcədəki hallanma üsulundan, həm də müasir dilimizdəki hal kateqoriyasından fərqlənir. M. Əfşar “əhvali-ism” (ismin halları) adı altında Azərbaycan dilində aşağıdakı halların mövcudluğunu təsbit edir: “mübtəda və münada”, “izafə”, “məf’ulun-ileyh”, “məf’ulun-bih”, “məf’ulun-mə’əh”, “məf’ulun-fih”, “məf’ulun-minh // anh” (müasir terminlər-lə: adlıq, yiyəlik, yönlük, təsirlik, birgəlik, yerlik, çıxışlıq hallar). Deməli, müəllif başlanğıc halla (*mübtəda*) çağırış halı (*münada*) ismin bir halı kimi qəbul edir. İsimlərin əvvəlinə artırılan *ay, ey* və *ya* nidaları adlıq hal əlaməti kimi qiymətləndirilir. Müqayisə üçün göstərək ki, M. Kazım bəyin əsərində də ismin yeddi halının olduğu göstərilir. M. Kazım bəy adlıq halı *əlmübtəda* və ya *əlfail* adı ilə verərək *əlmünadi* (çağırış) halını ayrıca bir hal kimi

göstərir. M. Əfşarda isə *münada* halı *mübtəda* (adlıq) halıyla birləşdirilmişdir. M. Əfşar Kazım bəydən fərqli olaraq, Azərbaycan dilində birgəlik halın (*məf'ulun-mə'əh*) olduğunu göstərir. Şübhəsiz ki, hal sisteminə çağırış halının əlavə olunması ərəb qrammatika məktəbinin ənənələrindən irəli gəlirdisə, birgəlik halın verilməsi rus dilinə məxsus qrammatika kitablarında birgəlik hal (творительный падеж) termininin işlənməsi ilə bağlı idi. Qalan halların müəyyənləşdirilməsində elə bir ciddi fərq görünmür və M. Əfşarın əsərindəki hal kateqoriyasına aid məlumatlar müasir qrammatika kitablarımızdakı faktlarla üst-üstə düşür. Fərq yalnız M. Əfşarın əsərində halların adlarının ərəb dilinə məxsus terminlərlə ifadə edilməsindədir. M. Əfşarın əsərində hal kateqoriyası ilə bağlı bir sıra yeniliklər də özünü göstərir. O, dilçilik tariximizdə ilk dəfə olaraq hal sistemində müəyyənlik kateqoriyası məsələsinə toxunmuş, ismin təsirlik halının müəyyən və qeyri-müəyyən formalarını nümunələrlə təsbit etmişdir. "Müəllif sözün yalnız şəkli cəhətinə deyil, onun məzmununa da əhəmiyyət verərək göstərir ki, isimlərin təsirlik halı qeyri-müəyyənlik bildirdiyi zaman öz hal şəkilçisini itirir. Bununla da dilimizdə müəyyənlik və qeyri-müəyyənlik dərəcəsinin olduğunu da göstərmiş olur" [10,234].

Əsərdə "nitq hissələri" terminindən istifadə edilməsə də, sözlərin qruplaşdırılmasından belə qənaətə gəlmək olur ki, müəllif onları, ərəb dilində olduğu kimi, üç əsas qrupa bölür:

1. ***Adlar*** (babül-ism). Bu bölmədə ad bildirən sözlər: ism (ismi-cins, ələm), ismi-sifət, ismi-təsğir, ismi-mənsub, ismi-ədəd, ismi-məkan (ismi-cənb), ismi-işarə, ismi-zəmir və s. aydınlaşdırılır.

2. ***Feil*** (babül-fe'l). Bu bölmədə hərəkətə aid olan sözlər: ismi-məsdər // hasili-məsdər (bu tipli sözlər hərəkətin adını bildirdiyi üçün feil bəhsinə aid edilir), feilin təsriflənən və təsriflənməyən formaları (növləri, şəkilləri) və s. əhatə olunmuşdur.

3. ***Köməkçi nitq hissələri*** (babül-mübhəmat vəl-ədəvat). *Babül-mübhəmat* termini altında müəllif mənası qeyri-müəyyən, aydın olmayan, müxtəlif cür başa düşülən sözlər kimi sual əvəzlikləri, qeyri-müəyyən əvəzliklər və nisbi əvəzliklərdən, *ədəvat* başlığı altında isə ayrılıqda leksik mənası olmayan, lakin başqa sözlərlə əlaqəyə girdikdə qrammatik mənanın yaranmasına xidmət edən köməkçi nitq hissələrindən (ədat, qoşma, bağlayıcı, modal sözlər, nida və s.) bəhs edir.

Bir mühüm cəhəti də qeyd etmək lazımdır ki, əsərdə bir söz yalnız bir nitq hissəsinə aid edildiyi üçün müasir dərsliklərdəki kimi dolaşıqlığa səbəb olmur. Məlumdur ki, dilçiliyimizdə nitq hissələrinin bölgüsünə münasibət müxtəlifdir, zərfin, modal sözlərin və b. nitq hissəsi kimi varlığı və yeri mübahisəlidir (23,110-129). Əsərdəki nümunələrə əsasən deyə bilərik ki, “zərf” nitq hissəsi kimi deyil, cümlə üzvü kimi qəbul edilir.

“İsmi-sifət” bəhsində sifətin tərifi verilir, sifətin aid olduğu isim “mövsuf” (vəsf olunmuş) adlandırılır və qeyd edilir ki, “türk dilində sifət ilə mövsuf arasında mütabiqət (uzlaşma) yoxdur; nə sanda, nə cinsdə və nə başqa hallarda və həmişə mövsufdan müqəddəm (əvvəl) düşür, məsələn: yaxşı kişi / kişilər / kişilərin”.

Məlumdur ki, sifətin başqa nitq hissələrindən, xüsusən isimlərdən əsas fərqi onun dərəcə kateqoriyasına malik olmasıdır. Tarixən sifətin dərəcələri haqqında müxtəlif

fikirlər irəli sürülmüşdür. "Azərbaycan dilində sifətin neçə dərəcəsi var və bu dərəcələr hansı üsullarla əmələ gəlir?" suallarına dilçilərimiz fərqli cavablar vermişdir. Y. Seyidov ümumiyyətlə, sifətin dərəcə kateqoriyasını "*sifətin müqayisə dərəcələri*" adlandırır (23,270). "İnqilaba qədər Azərbaycan dilinə dair yazılmış bəzi qrammatika kitablarında sifətin üç dərəcəsi (müqayisə, kiçiltmə, üstünlük) olduğu irəli sürülür. 1924-cü ildə Azərnəşr tərəfindən buraxılmış qrammatika kitabında sifətin dərəcələri tamamilə ərəb dili sifət dərəcələrinə uyğun olaraq, yeddi növə bölünür və adları da ərəb terminləri ilə verilir. 1948-ci ilə qədər yazılmış dərsliklərdə sifətin beş dərəcəsi verilmişdir: 1) adi, 2) kiçiltmə, 3) müqayisə, 4) üstünlük, 5) şiddətləndirici. Ə.Dəmirçizadə 1947-ci ildə sifət haqqında yazdığı məqaləsində sifətin dərəcələrini adi, azaltma və çoxaltma adı ilə üç yerə bölür. O, adi dərəcəni özündən əvvəlkilərdə olduğu kimi verir, həmin vaxta qədər müqayisə dərəcəsi kimi qiymətləndirilən -raq (-rək) şəkilçisini azaltma dərəcəsi kimi verir və həmin şəkilçi ilə işlənən *yaxşıraq, gödərək* sifətlərini də azaltma dərəcəsini bildirən sifətlər hesab edir" [11,78-79].

M. Əfşar sifətin üç əsas dərəcəsini və onların növlərini fərqləndirir:

I. "'Adi": Məsələn: *gözəl*;

II. "İzafi" (əlavə): 1. adi dərəcə + *-raq* şəkilçisi: *gözəlraq*; 2. a) çıxışlıq halda olan söz + adi dərəcə: *bu kağız o kağızdan yaxşıdur*; b) *artıq // ziyadə // çox // dəxi* sözlərilə: *üyun maydan çox // dəxi ... istidür*;

III. "Ə'la" (üstün): 1. İsmi-sifətə "*əŋ*" ədatını qoşmaqla: *bu kağız əŋ yaxşı kağızdur*; 2. *ziyadə, çox, nəhayətdə, ğayətdə, ifrat* sözlərini qoşmaqla: *bu adam ifrat*

// *ğayət də gözəldir*; 3. Mübaliğə (şişirtmə): *qap qara, sap sarı, qup qurı, yam yaşıl, bom boş*.

Göründüyü kimi, Əfşarın özünəməxsus bölgü prinsipi vardır. Burada azaltma dərəcəsinin şəkilçisi kimi qəbul edilən *-raq* şəkilçisi "əlavə" dərəcəsinə aid edilir. Müasir qrammatikalarda çoxaltma dərəcəsinin göstəricisi olan *m, p, r, s* samitləri ilə düzələn sifətlər isə sifətin "üstün" dərəcəsinin "mübaliğə" növü kimi qeyd edilir. Maraqlıdır ki, -cıq // -cik; -cığaz // -cigəz (oğlancıq – oğlancığaz, övrətcik – övrətcigəz) və -ca // -cə (yaxşıca, ağca, gözəlcə) şəkilçiləri ilə düzələn sözlər sifətin "azaltma" və ya "kiçiltmə" dərəcəsi kimi deyil, ayrıca nitq hissəsi kimi "ismi-təsğir" (kiçiltmə ismi) adı ilə verilir. Qeyd edək ki, ümumiyyətlə, sifətin azaltma dərəcəsi fərqləndirilmədiyi kimi, ona aid edilən bir sıra şəkilçilər (məsələn, *-ımtıl*[4]*; -ımtraq; -sov; -şın*) və sözlər (məsələn, *ala, təhər, açıq* və s.) də başqa adla da olsa, qeyd edilmir. Həmçinin müasir qrammatikalarda qeyd olunan çoxaltma dərəcəsini ifadə edən *tünd, zil* və *düm* sözləri də xatırlanmır. Müasir qrammatikada sifət düzəldən şəkilçilərdən -lı[4] da başqa bəhsə aid edilir: "ismi-mənsub" bir şəxsin bir yerə və ya mütləq bir sifətə nisbətlənməyini ifadə edir, məs; *şirvanlu, gəncəli, güclü, qüvvətli*.

Saylardan "ismi-'ədəd" başlığı altında bəhs edilir və göstərilir ki, "ismi-'ədəd" say, miqdar göstərən kəlmələrdir (sayılan, yəni ismi-ədədin aid olduğu söz "mə'dud" adlandırılır). Bunlar da, öz növbəsində, üç yerə ayrılır:

I. "*Əsli*" saylar (miqdar sayları): "əhad" (təkliklər), "'əşərat" (onluqlar), "miət" (yüzlüklər) və "uluf" (minliklər);

II. “*Tərtibi*” (sıra sayları) bir şeyin miqdarı ilə birgə mərtəbəsini (sırasını) göstərir. Məs.: ikinci, yeddinci, dördünci; əvvəlinci // əvvəlimci, axırımcı;

III. “*Kəsri*” (kəsr sayları). Bu tipli saylar bir ədədin müəyyən hissəsini göstərir. Məsələn, *üçdən bir, altıdan bir* kimi. Və ya dərəcə göstərən ədədə *pay* ləfzini qoşmaqla, məsələn: ğəllatdan onuncı pay zəkat və ğənimətdən beşinci pay xümsdür. Bu tipli saylar fars dilində *çərək* (dörddə bir), ərəbcə *nisf* (yarım; 1/2), *süls* (1/3), *rüb'* (1/4), *xüms* (1/5), *süds* (1/6), *süb'* (1/7), *sümn* (1/8), *tus'* (1/9), *'üşr* (1/10) sözləri vasitəsilə yaranır.

Say bəhsində sayla isim arasında işlənən bəzi sözlər, müasir terminlə “numerativlər” ayrıca qeyd edilir: “İsmi-’ədəddən soŋra türk və fars dilində bir para qeydlər dəxi iste’mal olunur. Məsələn, insan növ’ində *nəfər* və heyvan cinsində *ras* və ya *baş* və kəsər-silahda yaraq *qəbzə* və ğəllat və cəvahiratda *danə*, tək və mütəhərrik şeylərdə *’ədəd* və biri-birisiz yaramayan şeydə (başmaq, corab kimi) *cift* iste’mal olunur” [16,32].

Yaxına işarə edən “bu” və uzağa işarə edən “o // ol” sözləri “ismi-işarə” adı ilə verilir və qeyd edilir ki, “o” işarə üçün olduğu kimi, həm də “zəmiri-ğayib”dir (III şəxs əvəzliyidir), məsələn: mən, sən, o. İşarəylə göstərilən “müşarün-ileyh” adlandırılır.

Şəxs bildirən, şəxsə nisbət verən bütün anlayışlar (şəxs əvəzlikləri (*zəmiri-münfəsil*), mənsubiyyət (*zəmiri-izafi*), şəxs (*zəmiri-rəbti*) və xəbərlik (*zəmiri-fe’li*) kateqoriyaları əvəzliyin növləri kimi “ismi-zəmir” adı altında birləşdirilir və nümunələrlə izah edilir. Əvəzliklər iki əsas qismə ayrılır: ayrı (münfəsil) və bitişik (müttəsil). Ayrı yazılan əvəzliklər (*zəmiri-münfəsil*) şəxs əvəzlikləri-

dir. Şəxs əvəzliklərinin qruplaşdırılmasında fərqlilik maraq doğurur, belə ki, I, II və III şəxs tək və cəm əvəzlikləri ayrıca "zəmiri-mütəkəllim" (söyləyən: mən, biz // bizlər), "zəmiri-müxatəb" (xitab olunan: sən, siz // sizlər) və "zəmiri-ğayib" (hazırda olmayan, iştirak etməyən: o, olar // onlar) şəklində qruplaşdırılmaqla şəxs əvəzliklərinin üç növü göstərilir. Bitişik yazılan əvəzliklər (*zəmiri-müttəsil*) isə, şəxs bildirən şəkilçilərdir ki, onlar da təyin edilənə ("zəmiri-izafi": *-m, -ŋ, -ı* // *-i* və ya *-sı*; cəmdə: *-miz, -ŋiz, -ləri* // *-ları*), feilə ("zəmiri-fe'li": *-m, -ŋ, -k, -ŋiz, -lər*) və ya xəbərə, yəni ada ("zəmiri-rəbti": *-əm, -sən, -dur, -ik* // *-ıq, -sıŋız, -durlar*) əlavə olunmasına görə fərqləndirilir. Göründüyü kimi, bunlar müasir qrammatikalarda mənsubiyyət, şəxs və xəbərlik kateqoriyalarına uyğun gəlir, lakin bütün əvəzliklərin şəxs göstərdiyi əvvəlcədən qeyd olunduğu üçün sonunculara müvafiq ad seçilərək əvəzliklərin içərisində öyrənilir. Məlumdur ki, müasir dilçiliyimizdə həmin şəkilçilər gah şəxs, gah xəbərlik, gah da ikisi birlikdə şəxs-xəbərlik şəkilçiləri kimi öyrənilir (11,58-64; 23,154-157). Digər tərəfdən, M. Əfşar yalnız şəxs bildirən sözləri və şəkilçiləri "zəmir" (əvəzlik) hesab edir, yəni "əvəzlik" anlayışı müasir anlayışdan tamamilə fərqlənir. Maraqlı bir cəhəti də qeyd edək ki, yiyəlik halda olan şəxs əvəzliklərinə və ya ismə qoşularaq *təxsis* (aid etmə) və *tərif* bildirən (məsələn: mənimki, səniŋki, onuŋkı, bizimki, siziŋki, onlarıŋki və ötəki və səhərki) -*ki* şəkilçisinin özü təklikdə (hər vəziyyətdə) *zəmir* (əvəzlik) adlandırılır. Müasir qrammatikalarda bəzi hallarda bu şəkilçi "ədat" və həmin şəkilçi ilə düzələn şəxs əvəzlikləri isə "yiyəlik şəxs əvəzliyi" adlandırılır (11,102). -Ki şəkliçili sözlərin (əvəzliklərin) əvəzlik kateqoriyasına aid edilməsi ənənəsi

müəyyən dərəcədə bu gün də davam etməkdədir. “Akad. V.A.Qordlevskiy “Грамматика турецкого языка” adlı əsərində nəinki yiyəlik hal və mənsubiyyət şəkilçiləri qəbul etmiş əvəzlikləri, hətta yiyəlik hal şəkilçisi və *ki* ünsürü ilə işlənən isimləri də yiyəlik əvəzlikləri hesab edir” [23,290].

Qeyd etmək istərdik ki, bu gün *əvəzlik* kimi adlandırdığımız morfoloji kateqoriyanın “Fənni-sərfü nəhvi-türki” əsərində *zəmir* (ə. zəmir – “ürək; iç, batin; daxili məna və s.”) olaraq verilməsi daha doğru sayıla bilər. Bu termininin qarşılığını “əvəzlik” termini ilə ifadə etmək o qədər də dəqiq deyil. Ərəb dilində *əvəzlik* mənasına “*bədəl*” termini işlənir ki, o da, adətən, işarə əvəzliklərindən sonrakı aydınlaşdırıcı sözə deyilir. Məsələn, “*bu kitab*” birləşməsində işarəylə göstərilən *kitab* sözü *bədəl* (qarşılıq, əvəz) hesab edilir. Fikrimizcə, bir nitq hissəsi kimi *əvəzlik*, onun əhatə dairəsi barədə mübahisələr də onun adlandırılmasında qeyri-dəqiqliyə yol verilməsi ilə bağlıdır.

“Fe’l” babında feilin növlərindən, zamanlarından, sadə və mürəkkəb şəkillərindən, ümumi və xüsusi, naqis feillərdən anlaşıqlı bir dildə bəhs edilir. Feil üç əsas qismə ayrılır: *əsli* (məsdər), *zəmani* (şəxs və zaman göstərən, məs.; getdi, gedəcək) və *fər’i* (zaman göstərməyib, şəxs bildirən, məs.; gedən, gedici). Maraqlı bir cəhəti də qeyd edək ki, əsərdə incə saitli məsdərlər “xəfif” (yüngül) və qalın saitli məsdərlər isə “səqil” (ağır) terminləri ilə verilir. Məsələn, “məsdəri-xəfif”, yəni “xəfif məsdər” deyildikdə “-mək”, “məsdəri-səqil”, yəni “ağır məsdər” deyildikdə isə, “-maq” şəkilçiləri nəzərdə tutulur. “İsmi-məsdər” və ya “hasili-məsdər”, adından göründüyü kimi, feildən düzə-

lib, hərəkətin adını bildirən sözlərdir. Məsələn: *içmək* – *içim, atmaq* – *atım; salmaq* – *salma, dişləmək* – *dişləmə*; *getmək* – *gediş, gəlmək* – *gəliş* və s. Bəzən məsdərə və ya sifətə artırılan -*lıq* // -*lik* şəkilçisi ismi-məsdəri andırır, məsələn, *yazmaqlıq, getməklik, yaxşılıq* və *yamanlıq* kimi. Bu babda M. Əfşar ərəb dilinə məxsus məsdərlərdən də ətraflı şəkildə bəhs edir.

Feilin forma və mənasına görə altı növü qeyd edilir: *mütəəddi* (təsirli), *lazım* (təsirsiz), *məlum, məchul, müsbət* (təsdiq), *mənfi* (inkar). Bunlar müasir qrammatikalarda feilin ayrı-ayrı kateqoriyaları kimi təsbit edilir. M. Əfşarın əsərində "lazım" termini feilin şəkli kimi deyil, feilin təsirsiz növü mənasında işlənir və feilin icbar (*mütə'əddiyi-kamil*), qarşılıq-müştərək (*müşarikət*) və qayıdış (*mütavi'ət*) növləri təsirli və təsirsiz feillərin tərkibində verilir və nümunələrlə izah edilir. Burada təsirli feili təsirsizə və əksinə, təsirsiz feli təsirliyə çevirən şəkilçilərdən də bəhs edilir.

Etmək, e(y)ləmək, qılmaq, olmaq köməkçi feilləri ilə yaranan formalar "ümumi feil" (*fe'li-'amm* // *'ammə*), həmin köməkçi feillərin ərəb, fars sözlərinə qoşulmasıyla yaranan feillər (məs.: *təzim etmək, ehsan eyləmək, hədiyyə qılmaq, dövlətlü olmaq* və s.) isə "xüsusi feil" (*fe'li-xass* // *xassə*) adlandırılır. *Zəhmət çəkmək, qəmgin oturmaq, könül tikmək, ev yıxmaq* kimi frazeoloji vahidlər də mürəkkəb feil kateqoriyasına daxil edilir.

Əsərdə feilin zaman kateqoriyası ilə bağlı da geniş məlumat verilir və zaman anlayışının məntiqi və qrammatik aspektləri fərqləndirilir. Müəllifə görə, məntiqi kateqoriya kimi zamanın üç növü var: keçmiş (*mazi*), indiki (*hal*), gələcək (*istiqbal*). Qrammatik kateqoriya kimi isə,

feilin doqquz zamanı göstərilir ki, onların sırasına vacib, arzu, şərt və əmr şəkilləri də daxildir: *maziyi-şühudi, maziyi-nəqli, hal, müstəqbəl, vücubi, təmənni, şərti, əmr, nəhy* (əmrin inkarı: et – etmə). Feilin arzu şəklinin üzərinə "bilmək" feilinin əlavəsilə düzələn feillər "fe'li-iqtidari", yəni feilin bacarıq şəkli adlandırılır: *yaza bilirəm, yaza bilirsən, yaza bilir...*

Feilin *fər'i* növünün üç forması qeyd edilir: *ismi-fa'il* (iş görən: gələn, alan, oxuyan; yazıcı), *ismi-məf'ul* (üzərində iş görülən: kəsilən, kəsilmiş) *və sifəti-müşəbbəhə* ((ismi-failə) bənzədilən sifət: kəskin, yorğın). Bunlar müasir qrammatikalarda *feili sifət* adı ilə bilinir. Əsərdə ərəb dilinə məxsus ismi-fa'il, ismi-məf'ul və sifəti-müşəbbəhə haqqında da ayrıca bəhs edilir.

Müstəqil işlənməyən "*olmaq*" feili və "*idi*", "*imiş*" "*isə*" hissəcikləri ilə yaranan formalar "*əf'ali-naqisə*" adlandırılır. "*İdi*", "*imiş*", "*isə*" hissəcikləri ilə yaranan formalar müasir qrammatikalarda *feil şəkillərinin hekayəti, rəvayəti və şərti* adlanır. Feil şəkillərinin şərti "*əf'ali-şərtiyyə*" (şərt feilləri) adlandırılır və hər birinə aid misallar göstərilir.

"*Hal*" başlığı altında feili bağlamalardan bəhs edilir. *-(a)raq // -(ə)rək, ikən // -kən, -dıqda*[4] şəkilçiləri və -a, -ə şəkilçili feili bağlamalar "halı bəyan olunmuş kəlimə" (mübtəda və ya tamamlıq) adlandırılır. Müəllifə görə, *Fərhad çaparaq getdi* cümləsində "çaparaq" sözü mübtədanın, *Mən bu kağızı ağ ikən qaraladım* cümləsində "ağ ikən" forması isə tamamlığın halını, tərzini bəyan edir. Göründüyü kimi, əsərdə "*hal*" termini omonim səciyyəli olub, həm ismin halı, həm indiki zaman və həm də tərz

bildirən feili bağlama və ya tərzi-hərəkət zərfi mənalarını ifadə edir.

"*Təmyiz*" başlığı altında *cəhət(iy)lə* sözü və ya -*cə* ədatı ilə düzəlib ayırma, seçmə, fərqləndirmə və ya aydınlaşdırma məqsədilə işlədilən sözlərdən danışılır. Məsələn: "*Biz, fənn və sənaye' cəhətlə çox geri qaldıq (*və ya *fənn və sənaye'cə* ...". Müəllif qeyd edir ki, ərəbcə *təmyiz* sözlərin axırına tənvin gəlməklə düzəlir, məsələn: "*Mən qardaşımdan sinnən* (yaşca) *böyügəm, amma o məndən 'elmən və mənsəbən artıq və böyükdür*".

Müasir qrammatikalarda sual və qeyri-müəyyən əvəzliklər hesab edilən *nə? nə içün? niyə? niçün // ne(y)çün?, neçə? kim? haçaq? hansı? hanki? qanqı?*, *nə qədər // tövr // qism // növ // cür // günə?* kimi sözlər əsərdə "*mübhəmat*" adlandırılır: "*Mübhəmat* fe'lə və ismə və bil'ümum cümlələrə qoşulmış bir para mübhəm ədatlardur ki, istifham və sualı andırar: *nə, ha* ..." [16,69]. "Ədatlar" (*ədəvat*) adı altında köməkçi nitq hissələri (qoşma, bağlayıcı, nida və s.) ümumiləşdirilir və onların 42 növü olduğu əlifba sırası ilə göstərilir. Ədata belə tərif verilir: "o cürə ləfzlərdür ki, ismə və fe'lə və bə'zi kəlamlara qoşulub bir-birinə rəbt verər və özləri də yalquz iste'mal olunmayub sərfə gəlməzlər" [16,70]. Deməli, bəzi sözlərin cümlədə birləşdiricilik və qüvvətləndiricilik xüsusiyyətləri də nəzərə alınaraq onlar sintaktik cəhətdən ədatlar kimi fərqləndirilir. Təsadüfi deyil ki, müəllif "*mübhəmat vəl-ədəvat*"ın morfologiyadan sintaksisə keçid mövqedə dayandığını xüsusi nəzərə çarpdırır.

Əsərdə "nida" termini daha çox "çağırış" mənalı sözləri əhatə edir. Müəllif *a // ə! ay! ey!* nidalarını "ədati-

nida”, *ah, uff, of, ox, eyvah* nidalarını təhəssür və təəssür ədatları adlandıraraq, onları bir-birindən fərqləndirir.

Əsərdə sintaksis məsələlərinə də geniş yer verilmişdir. Lakin müasir qrammatikalardan fərqli olaraq burada söz birləşmələrindən “Fənni-sərf” hissəsində “İzafət” bölməsində bəhs edilir. Müəllifin fikrinə görə, “İzafət” − bir şeyin bir ismə əlaqə və aidliyini göstərir və onun iki növü var: “izafeyi-lamiyyə” (*ağacıŋ barı, dostuŋ cəfası*) və “izafeyi-bəyaniyyə” (*qızıl yüzük, gümüş kasə*). Bunlar müasir qrammatikalarımızda müvafiq olaraq III və I növ təyini söz birləşmələrinə uyğun gəlir. Bu birləşmələrdə birinci tərəf “müzafün-ileyh” (əlavə edilən), ikinci tərəf isə “müzaf” (əlavə olan) (müasir terminlərlə *təyin edən və təyin edilən*) adlandırılır. Onu da qeyd edək ki, izafət tərkiblərindən “tərkibi-izafi” adı altında “Fənni-nəhv” hissəsində də ayrıca bəhs edilir. Burada türk dillərinə məxsus izafətlə (təyini söz birləşməsi ilə) ərəb və fars dillərinə məxsus izafət tərkiblərinin fərqləri müqayisəli şəkildə izah edilir (16,67-68). Məlum olur ki, əsərdə “izafət” termini ümumən yiyəlik, aidlik anlayışı bildirən söz olsa da, omonim səciyyəli termin kimi həm ismin yiyəlik halını, həm mənsubiyyəti, həm də təyini söz birləşmələrini ifadə edir.

“Fənni-nəhv” hissəsi “*Babül-kəlimət vəl-kəlam*” ilə başlayır və burada başlıca olaraq cümlədən bəhs edilir. Bu bölmədə qısa və aydın şəkildə *nəhv* (sintaksis) elminin vəzifələri araşdırılır, *kəlam* (cümlə) və *kəlmənin* (sözün) tərifi verilir. Məsələn, “*Nəhv* o fənnə deyilür ki, kəlamıŋ təlifindən və kəlməniŋ məhəll iste’malından bəhs edə” (Sintaksis o fənnə deyilir ki, cümlənin qurulmasından və sözün hansı mövqedə işlənməsindən bəhs edə). “*Kəlam* kəlmələrdən tərkib tapar” (Cümlə sözlərdən ibarət olur,

sözlərin birləşməsindən formalaşır) [16,76]. Kəlmənin üç növü göstərilir: isim (adlar), feil (məsdər, feili sifət) və hərf (şəkilçi, köməkçi nitq hissələri; ümumiyyətlə, müstəqil cümlə üzvü ola bilməyən bütün söz və söz birləşmələri). Onu da qeyd edək ki, risalədə şəkilçi mənasında bəzən "ədat", bəzən də "hərf" termini işlənir. Bu ondan irəli gəlir ki, ad bildirən bütün sözlər "isim" termini ilə göstərildiyi kimi, müstəqil cümlə üzvü ola bilməyən bütün dil vahidləri "hərf" termini ilə ümumiləşdirilir.

"*Kəlam*" (cümlə) başlığı altında cümlənin daha geniş tərifi verilir: "*Kəlam* o 'ibarəyə deyilür ki, müxatəbi müntəzir qoymaya, yə'ni qarşudakı şəxs kəlamı eşidəndə oŋa fayideyi-tammə verüb sükut edə, bu da əqəllən iki isimdən ya bir isim və bir fe'ldən tərkib tapar, məsələn: *Əhməd gəldi, Hava istidür* [16,77]. Maraq doğuran cəhətlərdən biri də cümlənin baş üzvlərinin bölgüsüdür. Belə ki, cümlənin iki əsas üzvü göstərilsə də, onların da ayrıca iki növü qeyd edilir: "kəlamıŋ baş cüzvləri *müsnəd* (-istinad olan) və *müsnədün-ileyh*dür" (-istinad ediləndir). "*Fa'il*" (kim? sualına cavab verən, hərəkəti edən şəxs) və "*mübtəda*" *müsnədün-ileyh*, "*fe'l*" və "*xəbər*" (ismi xəbər) "*müsnəd*" adlandırılır. Məsələn, "*Əhməd gəldi*" cümləsində "Əhməd" *fa'il*, "gəldi" *fe'l*dir; "*Hava istidür*" cümləsində isə, "hava" *mübtəda*, "istidir" sifətlə ifadə edilən *xəbər*dir. Müəllif cümlənin formalaşmasında rolu olan digər üzvləri (sifət, hal, təmyiz, tərkibi-izafə, tərkibi-tədadi, məfullar) "Qüyudi-mübin" (aydınlaşdırıcı qeydlər) adı altında izah edir: "Əczayi-kəlamı bəyanedici qeydlər *sifət, hal, təmyiz, tərkibi-izafi* və *te'dadi* və *məf'ullardur*" [16,85]. Cümlə üzvü kimi "məf'ul" dedikdə tamamlıq nəzərdə tutulur ki, onlar da iki qismə ayrılır: *məf'ulun-bihi*

sərih (vasitəsiz tamamlıq: ismin təsirlik halı) və *məf'ulun-bihi ğeyri-sərih* (vasitəli tamamlıq: ismin yönlük, birgəlik, yerlik, çıxışlıq halları). Bir cəhəti də qeyd edək ki, əsərdə "sifət" sözü "isim" sözü ilə tərkib şəklində işləndikdə (*ismi-sifət*) nitq hissəsi, tək işləndikdə cümlə üzvü (təyin) kimi izah edilir.

"*Kəlami-mütləq və mütəqəyyid*" başlığı altında müasir terminlərlə *müxtəsər* və *geniş* cümlələr nəzərdə tutulur. "Əgər bir məqsud ki, ifadəsi məhz bunlar (müsnəd və müsnədün-ileyh) ilə hasil oldı, o kəlama *mütləq* (müxtəsər cümlə) deyilür və illa bir para qeydləri izafə etməklə hasil olsa, oŋa *kəlami-müqəyyəd* (geniş cümlə) deyilür, məsələn: (Hava istidür) *mütləq* və (Hava istiligi gündən alur) *kəlami-müqəyyəd* olur". [16,78].

"*Mütabiqət*" başlığı altında cümlənin baş üzvlərinin şəxsə və kəmiyyətə görə (xüsusən, I və II şəxslərdə) uzlaşmasından bəhs edilir: "Müsnəd ilə müsnədün-ileyh arasında mütəkəllim (söyləyən, I şəxs) və müxatəb (xitab olunan, II şəxs) siğələrində mütabiqət şərtdür, yə'ni müsnədün-ileyh əgər müfrəd və ya cəm' olsa, müsnəd də gərək oŋa mütabiqət eyləsün, məsələn: *mən yazdım, sən yazdıŋ, biz oxuyurıq, siz oxuyursıŋız, mən şa'irəm, siz katibsiŋiz*. Əmma ğayib (hazırda olmayan: III şəxs) siğəsində müsnədün-ileyh cəm' olsa da, müsnədi müfrəd gətürmək cayizdür. Məsələn: *Qonaqlar gəldi (və ya gəldilər)*. Məgər fa'il *ğeyri-'aqil* ola, o surətdə fe'li müfrəd gətürmək vacibdür, məsələn: *Atlar kişnəyür. Qoyunlar mələyür. Gözlərim ağrıyur* və ğeyrə" [16,78-79]. Müəllif ərəb dilinə xas qrammatik cins kateqoriyasının türk dillərində mövcud olmadığını və bu səbəbdən də türk

dillərində, o cümlədən də, Azərbaycan dilində cinsə görə uzlaşmanın vacib olmadığını xüsusi şəkildə vurğulayır.

“*İxbariyyə, inşaiyyə*” başlığı altında cümlənin növlərindən danışılır. Hökm, məlumat (doğru və ya yalan) bildirən cümlələr “*ixbariyyə*” (xəbər vermə, bildirmə), tələb və ya təmənna, sual və tənbih ifadə edən cümlələr “*inşaiyyə*” adlandırılır. Deməli, cümlənin növləri də mənti-qi və qrammatik cəhətdən izah edilir. Hökm bildirən nəqli cümlələr xəbərin (hökmün) həqiqətə uyğun olub-olmamasına görə iki növə ayrılır: “*sadiq*” (doğru) və “*kazib*” (yalan). “İnşaiyyə” cümlələr tələb və ya təmənna, sual və tənbih ifadə olunmasına görə dörd növə ayrılır və hər birinə dair misallar verilir: *tələb* – “Dərsiŋə çalış, vəqtiŋi itürmə”; *təmənna* – “Kaş mən də oxumuş ola idim”; *sual* – “Nə ’elmdən təhsil edirsən?” və *tənbih* – “Ey Taŋrı, sən bilürsən qəlbimdəki dərdimi! Pərvərdigara, bu iş saŋa əyandur! Taŋrı haqqı, bu rəhnümalılıq saŋa zərərdür. Subhanə, ah, bu nə rəftardur! Ax, biçarə, nə bəlalı başıŋ var imiş!”. Göründüyü kimi, sadalanan nümunələr müasir qrammatikalarda cümlənin məqsəd və intonasiyaya görə “əmr”, “sual”, “nida” və məlumat verən cümlə (*ixbariyyə*: *Mü’əllim gəldi*) “nəqli” cümlə növünə uyğun gəlir. Müəllif tələb bildirən inşaiyyə cümlələrini də tələbin dərəcəsinə görə fərqləndirir: 1. “Əgər tələb iste’la (yüksəliş) üzrə vaqe’ olsa, oŋa *əmr* deyilür, böyükdən küçügə sadir olan hökmlər kimi; 2. Əgər rica və niyaz üzrə vüqu’ya gəlsə, *du’a və istid’a* deyilür, bəndəniŋ Allah-Tə’ala dərgahına olan ərzi-halı kimi; 3. Və əgər müsavat (bərabərlik) vəc-hiylə vüqu’ bulsa, *iltimas* deyilür, yoldaşdan yoldaşa izhar olunan tələb və xahişlər kimi” [16,81].

“*Kəlami-əsli və fər'i*” başlığı altında tabeli və tabesiz mürəkkəb cümlələrdən bəhs edilir. Maraqlıdır ki, tabesiz mürəkkəb cümlə *baş* cümlə, tabeli mürəkkəb cümlə isə *budaq* cümlə adlandırılır. Yəni əsərdə “*kəlami-əsli*” termini “baş cümlə”, “*kəlami-fər'i*” isə “budaq cümlə” mənası ifadə edir: “Hərgah bir fəqərədə iki kəlam bir-biriniŋ dalınca gəlüb aralarında ədati-rəbt olmaya və ya olsa da, hər biri 'ümdəligini itürməyə, hər ikisinə *kəlami-əsli* deyilür və əgər onlardan biri əsl və 'ümdə olan kəlamı tövzih və təkmil etsə, oŋa *kəlami-fər'i* deyilür” [16,81]. Həmçinin tabeli və tabesiz mürəkkəb cümlələrin tərəflərini bir-birinə bağlayan ədatlar (bağlayıcılar) da ayrılıqda göstərilir və ədatlara əsasən budaq cümlənin növləri fərqləndirilir. Göstərilir ki, *ki, hansı ki* ədatları ilə “*fər'iyi-vəsfi*” (təyin budaq cümləsi) cümləsi yaranır: *Bir va'iziŋ ki, fe'li qövlinə müvafiq olmadı, söziniŋ təsiri olmaz; Bosman, hansı ki çox girdablar görmişdi, özini bu girdabda heç itürmədi*. Müəllif *zira, çünki, bu cəhətə, ondan ötri ki, o səbəbə ki, onuŋ içün ki, içün, görə* və s. ədatları ilə “*fər'iyi-səbəbi*” (səbəb budaq cümləsi) yarandığını qeyd edir: *Şükr və səna ne'mətiŋ artmaqına ba'is oldıqına görə şükri-mün'im vacibdür. Sizdən dostluq hüquqını görmədigim içün siziŋlə dostluq etməgi tərk eylədim*” və s. *Vəqtiki, zamaniki, o və'də ki, o zaman ki* ədatları “*fər'iyi-zəmani və hali*”nin (zaman və tərzi-hərəkət budaq cümlələrinin) yaranmasında iştirak edir: *Həzrət Nuh vəqtiki 'əlaməti-tufanı gördi, öz tabe'lərini gəmiyə daxil eylədi* və ya *Həzrət Nuh 'əlaməti-tufanı görüb (və ya görcək və ya gördikdə) tabe'lərini gəmiyə daxil eylədi*”. *Əgər, hərgah* ədatları ilə “*kəlami-şərti*” (şərt budaq cümləsi) yaranır: *Əgər bir kəs saŋa yamanlıq e(y)ləsə, sən*

oŋa yaxşılıq e(y)lə. Göründüyü kimi, müəllif bir sıra hallarda qrammatik meyarlardan çıxış edərək, tabeli mürəkkəb cümlələrin növlərini düzgün müəyyənləşdirir, bəzi hallarda isə məntiqi meyarlara əsaslanaraq feili tərkibli sadə geniş cümlələri tabeli mürəkkəb cümlə adı altında təqdim edir.

Onu da qeyd edək ki, ara sözlər və əlavə cümlələr "*cümleyi-mö'tərizə*" adlandırılaraq cümlənin bir növü kimi fərqləndirilir: "Kəlamlardan biri də "*cümleyi-mö'tərizə*"-dür ki, bir kəlamıŋ və gah iki kəlamıŋ arasında vaqe' olub, təfsiri-məram içün və ya du'a və şükr məqamında iste'mal olunur, kəlamdan atılsa, əsl məqsuda xələl gəlməz, bu cürə kəlamı *beynəlqövseyn* (mötərizədə) yazmaq münasibdür, məsələn: Misir padişahları (*Misirdə səltənət edənlər fir'aun ləqəbiylə məşhur idilər*) bəni-İsrailiŋ haqqında çox zülm eylədilər. Bu il yoldaşlarımdan üç nəfər təhsilini tamam eylədi (*inşaallah*) mən də gələn sənə qurtarıram. Bəndəŋiziŋ halın sorsaŋız (*şükrallah*) səlamət varam" [16,84-85] və s.

M. Əfşarın əsərində durğu işarələrinin işlənməsi ilə də bağlı maraqlı cəhətlər müşahidə olunur. Məlum olduğu kimi, ərəb dilində və ərəb əlifbası ilə yazılmış klassik mətnlərdə durğu işarələrindən istifadə edilmirdi. Azərbaycan dilində yazılmış klassik mətnlərdə cümlələrin sərhədi bir sıra hallarda nəbati ornamentlərlə müəyyənləşdirilirdi. XIX əsrin ortalarında M. Kazım bəy, M. F. Axundzadə və b. əsərlərində bəzi durğu işarələri görünməyə başlasa da, bu prosesin ardıcıl və sistemli şəkil alması həmin əsrin 70-ci illərinə, "Əkinçi" və xüsusilə də, "Kəşkül" qəzetlərinin nəşri ilə bağlı dövrə təsadüf edir. M. Əfşarın əsərində də durğu işarələrinə geniş yer verilmişdir. Əsərdə müasir

dilimizdə işlənən, demək olar ki, bütün durğu işarələrinə: nöqtə, vergül, nöqtəli vergül, mötərizə, qoşa nöqtə, dırnaq işarəsi, sual işarəsi, üç nöqtə və s. təsadüf olunur. Bir sıra yerlərdə nöqtə işarəsindən vergül və defis işarələri yerində istifadə edilir. Çox hallarda cümlələr arasında nöqtə yerində ara məsafə qoyulmasına üstünlük verilir. Müəyyən məqamlarda sözləri nəzərə çarpdırmaq üçün üstündə xətt çəkilir. Bəzən paralellik bildirmək üçün işlədilən (//) işarəsinə də rast gəlinir. Bundan əlavə müəllif yeri gəldikcə abzasdan, cədvəldən və müxtəlif qrafik vasitələrdən də ustalıqla istifadə etmişdir.

Belə bir cəhət də diqqəti cəlb edir ki, əsər boyu M.Əfşar “Azərbaycan dili” anlayışını bildirmək üçün *türk dili*, “Anadolu türkcəsi” anlayışını ifadə etmək üçün *Osmanlu ləhcəsi* terminlərindən istifadə etmişdir. Lakin əsərin 14-cü səhifəsində bir yerdə *Azərbaycan dili* (“***Azərbaycan dilində*** gah və kah ədati-vəsf iste’mal olunur”) və 48-ci səhifəsində bir yerdə *Azərbaycan lisanı* termininə də təsadüf olunur (“*’Osmanlu lisanında* maziyi-nəqlini ancaq eşitməkiylə bilinən xəbərlərdə iste’mal edirlər, məsələn: *Şayiə’ olan xəbərlərə görə sultan Bulğariyə valisiniŋ təklifini qəbul etmişdür.* Amma ***Azərbaycan lisanında*** “*qəbul etmişdür”* ’əvəzinə ğalibən “*qəbul edübdür”* iste’mal olunur”). Ümumiyyətlə, əsərdə “Azərbaycan dili” anlayışı daha çox *türk dili, türk lüğəti, türk lisanı* və bir neçə yerdə *türki* terminləri ilə ifadə olunmuşdur. Əsərin üzərində müəllif tərəfindən verilmiş ad qeyd olunmamışdır. Risalədə *türki* termininə nisbətən *türk* termininin daha çox işləndiyini nəzərə alaraq, onu “Fənnisərfü nəhvi-lisani-türk” şəklində də adlandırmaq olardı (və bu həm tarixi-dilçilik, həm də mətnşünaslıq baxımından

daha obyektiv təsir bağışlardı). Lakin elmi ictimaiyyətdə bu terminlə bağlı formalaşmış rəyi nəzərə alaraq, "Fənni-sərfü nəhvi-türki" adını saxlamağı münasib hesab etdik.

"Fənni-sərfü nəhvi-türki" özünün elmi-nəzəri məzmunu ilə yanaşı mükəmməl bir ədəbi dil nümunəsi olması cəhətindən də xüsusi əhəmiyyət kəsb edir. Müqəddimə nəzərə alınmazsa, əsərin əsas bölmələrində dil tam anlaşıqlı və sadədir. Bir çox hallarda danışıq dili ünsürlərinin də mətnə daxil edilməsi elmi dilin xəlqiləşdirilməsi yolunda atılan ilk addım kimi qiymətləndirilə bilər. Məhz buna görə akademik T.Hacıyevin sərrast ifadəsi ilə desək, "M.Əfşarın xidməti təkcə Azərbaycan dilinin qrammatikasını yazmaq deyil, həm də bu dilin elmi üslubunu xəlqi bünövrədə möhkəmləndirmək üçün əməli işdir" [8,128]

MƏTNİN TRANSLİTERASİYASI

[1] *MÜQƏDDİMƏ*

Hər bir millətiŋ sö[y]lədigi lisana, yə'ni tə'birat və təqriratına **"***lüğət***"** deyilür. Lüğət lisanda mələkə olub, xələf sələfdən, övlad ata-anadan əxz və istima' etməklə fazil olur. Hərgah bir qövmiŋ lüğəti ixtilati-əqvam ilə təğyirpəzir olmaya, yə'ni başqa qövmləriŋ hüruf və əsvatından və luğat və 'ibaratından hissə almasa, o lüğətiŋ mələkeyi-lisaniyyəsi 'alə haliyə baqi qalub, qəva'idiniŋ təhsili dəxi səhl və asan olur. Və lakin 'indəl-'əks, mələkeyi-lisana xələl 'ariz olub, luğati-müxtəlifəyə müştəməl oldıqına görə kəsb və təhsilində 'usrət və siqlət 'əmələ gəlür. Bu surətdə həman lüğətiŋ bir qa'ideyi-külliyə təhtinə girməsi və bir fənni-məxsusə möhtac olması əŋ mühim(m) və gərəklü bir halıdur. Bu cəhətdədür ki, külli millət-mütəməddinə özləriniŋ mələkeyi-lisaniyyələrini hifzü viqayə içün qəva'idi-lisanlarını yıqub bir fənni-məxsus üzrə tədvin edüblər. Və vəqtən-fövqətən işkalati-varidəsini rəf' və təshil etməgə çalışublar. Fənni-məzkur 'ərəbcə *sərfü nəhv* adlanur. Bu fənnə əŋ e'tinalu və diqqətlü 'ərəb qövmi olubdur. Bu səbəbə ki, əsasi-dini-İslam olan *Qurani-Şərif* 'ərəb lisanında nazil [2] olub, qəva'idini xələl və təğyiratdan viqayə etməgi özlərinə vacib və bir xidməti-diniyyə bilüblər. 'Ərəb lisanınıŋ fənni-nəhviyyəsini əŋ əvvəl təlif edən, Bəni-Kənanə qəbiləsindən Əbul-Əsvəd-Düəlidür ki, oŋa da mövlaül-məvali 'Əliy(y) bin Əbi-Talib lisani-'ərəbdə bir cüzi təğyir görcək, qəva'idi-külliyəsinə işarə və təlqin buyurdılar. Və bə'də Əbul-Əsvəd dəxi ol qanuni-külli üzrə tətəbbö' və

istiqra edüb, füru'atını istinbat etməgə bir fənn məxsus etmişdür. Və gedə-gedə əŋ vüs'ətlü və mükəmməl bir fənn meydana gəlmişdür. Mə'lumdur ki, bir lüğətə 'ariz olan təğyirat nə dərəcədə bulunur isə, ol qədər fənni-nəhviŋ istinbat və tədvinini lüzumiyyət peyda eylər və nə qədər ki(m), fənni-məzkur xələl və təğyiratıŋ başlanmasına yaxın meydana gəlsə, ol qədər o lüğətiŋ qəva'idi-külliyəsini cəm' və istinbat etmək səhl və asan olur. Bu hesaba görə bilmək olur ki, bu halda türk lisanınıŋ sərf və nəhvini tədvin etmək 'ariz olan təğyiratı-külliyə cəhətinə nə dərəcədə mühim(m) və zərur bir əmrdür. Və həmçinin [3] bu mərtəbədə mütəğəyyir və fasid olan lüğətiŋ qəva'idini cəm' etmək nə dərəcədə müşkil və düşvardur. Zənn edirəm ki, bu gün də beynəl-əqvam mövcud və müstə'məl olan lisanlardan türk lisanı kimi bir fəqir və möhtac dil yoxdur. Dayima mə'ani-məxsusələri ifadə içün ikiəlli 'ərəb və fars lisanından qarpub dəf'i-ehtiyac etməkdədür. Keyfiyyət ədasına və ləhcəsinə 'ariz olan xələldən ma'əda mə'ani-məxsusə içün vəz' alınmış kəlmələr ilə mətruk və mənsidür və 'əvəzinə 'ərəbi və ya farsi kəlmələrdən girüb çoxısı türkcə vəz'i-sanəvi peyda etmişdür. Və bə'zən təqrir və ya təhrir etdigimiz 'ərəbi və farsi sözləriŋ 'əvəzi lisani-türkdə bulunsa da, 'anqəsd tərk edüb, guya tərk olunması fəsahətə lazım bir hal və bəlkə iste'malı bə'zən mövcibi-ğərabət olmuşdur. Məsələn, əgər bir kəs İstanbulda *ataş* 'əvəzinə *od* və ya Azərbaycanda *cəhənnəm* 'əvəzinə *damu* və *naxoş* və ya *naçaq* bədəlinə *sayrı* söyləsə, əksər nas muradını aŋlamayub suala məcbur olur. Xüsusən bir surətdə ki, bir kəlam məhcur və ğeyri-mənus türki kəlmələrə şamil ola. Məsələn, *Bir tapınan yoxdur, ancaq çalapdur* dedikdə, yəqin ki, əvvəlimcidən

artıq ğərib və vəhşi görünəcəkdür. Amma *tapınan* ’əvəzinə *mə’bud* və *çalap* yerinə *Allahu Tə’ala* deyilsə, qət’a mətləb məfhum olacaqdur. Müxtəsər, ’alimlərimiziŋ [4] mükalimatı və türkcə inşaatı, ’ələlxüsus qövmi-türkdən İstanbul əhalisiniŋ təğyiratı demək olur ki, səbkən və üslubən türkidür və lakin əlfaz və ’ibarələri əğləbi ’ərəbi və farsidür. Bu məzkuratdan məqsudumuz lüğəti-türküŋ təğyir və fəsadına işarə və ’ərəb və fars lüğətiniŋ nə dərəcədə lisanımızda meydan aldıqını göstərməkdür. Zimnən bunı yetürməkdür ki, *türk lüğətiniŋ fənni-nəhviyyə-sərfiyyəsi*ni tədvin etmək ancaq lüğəti-türküŋ qəva’idini zəbt etməgə möhtac olmayub, məzkur lisanlarıŋ da filcümlə qəva’idinə əl vırmaq gərəkdür.

Bu ana qədər səfəhati-Azərbaycanda bulunan ərbabi-mə’arifdən bir kəs dilimiziŋ qəva’idi-sərfü nəhvini istinbat və cəm’ etməgə e’tina etməyüb məhəlli-güzar olmamışdur. Bunuŋ içün türkcə olan inşalarımız məla həsəbincə küllən bir-birinə müxalif və zid(d)dür. Və kəsbi-savad və kitabətimiz məhz tutivari olub, səbki-kitabətə və rəsmxəttə hissi-bəsər nə tövr aşinalanubsa o tövr qələmə gətürirük. Əslindən, kökündən və qəva’idindən xəbərimiz olmayub, insan işi maşina işinə bəŋzər bir iş olmuşdur. Bu vəsilə ilə kəsb etdigimiz kitabəti-savad nəinki az zamanda və hətta illər ilə vəqt sərf etməgə mövquf və möhtac olub, genə də qüsur və xələldən və səhv və ğələtdən xali [5] olmayur və ola bilməz. Bəli, əgərçi bu babda Peterburğ darülfünununuŋ müdərrisi Kazım bekof və Novaçerkes ğimnaziyasınıŋ mü’əllimi cənab Vəzirof rus balalarını türk diliniŋ qəva’idindən aşina etmək içün hər biri bir əsər baqi qoymuş isə də, və lakin əvvəlimciniŋ təlifi ğayətdə mütəvvəl və ikinciniŋ risaləsi nəhayətdə müxtəsər

olmaqdan başqa, hər ikisi rusca yazıldıqına görə, türk balaları içün onlardan faydabərdar olmaq mütə’əssir və bəlkə, mütə’əzzir idi. Lihəzə həqiri-kəsirit-təqsir, xeyli zamandan bəri bu yolda az-çox işlədigim içün və bu ovqatda darülmü’əllimin mədrəsəsində ’elmi-ilahi mü’əllimi və həm türkcə tə’limi-savad öhdəmə həvalə olundıqına görə vəzifeyi-müqəddəsim hesab edüb, qüvvə və mayəmiŋ azlıqından çəkinməyərək əbnayi-vətənimə bir xidmətcik etmək mənzuriylə bu binayi-xeyriŋ bünövrəsinə bir kərpic atdım, yə’ni dilimiziŋ rəvac və tə’limi yolunda bu risaləciqi təlif eylədim. Və fövqdə zikr olan səbəblərə görə ancaq türki qəva’idinə qəna’ət etməyüb, ’ərəbi və farsi lisanınıŋ qəva’idindən də filcümlə münasib məqam zəbt və dərc eylədim. Ümidvaram, səhv və ləğzişimə müttəle’ olanlar islah etmək ilə belə bəndeyi-’acizlərinə dəxi izharında minnət qoyalar. İnsan səhv və xətasız olmaz. Səhvimi göstərənə Xuda rəhmət [6] eyləyə. İnşallah, gələcəkdə bu bünövrə üzrə rəf’i-qəvayim edən ’elm və mə’rifət baniləri köməgincə bu binayi-xeyriŋ təsdid və təşyidinə bəzli-himmət buyurub, bəndeyi-həqir ilə belə zikri-xeyirləri ’indəlmillətə baqi və ’indəllah əcrləri cəzil və cəmil olacaqdur.

Bu risalə iki qismə münqəsimdür. Əvvəlimci “Fənni-sərf” və ikinci qism “Fənni-nəhv” adlanur. Fənni-sərfiyyəsi dört baba mübtənidür: 1) *babül-hərf*; 2) *babül-ism*; 3) *babül-fe’l*; 4) *babül-mübhəmat vəl-ədəvat*dur. Və fənni-nəhviyyəsi dəxi bir bab və neçə füsul üzrə inşaallahu tə’ala xitam bulur və billahit-tövfiq, ni’məl-mövla və ni’mər-rəfiq!

[7] ***BİSMİLLAHİ-XEYRÜL-ƏSMA***

FƏNNİ-SƏRFİ-TÜRKİ

BABÜL-HÜRUF

Türk və fars qövmi içün məxsusən bir əlifba olmayub, ’ərəb əlifbasını əxz və iste’mal etmişlər. Bunuŋ içün hər üç lisanıŋ səbki-kitabəti və həmiyyəti-tərqimiyyəsi bir olub, saqdan sola başlanur.

’Ərəb əlifbasınıŋ surəti-əsliyyəsi və şəkilləri 17-dür. Bu tövr: **ا ب ح د ر س ص ط ع ف ک ل م ن ه و ی**

Və lakin bə’zi şəkilləriŋ altına və ya üstünə bir və iki və ya üç nöqtə qoymaq ilə tamam igirmi səkkiz şəkil hasil olur, hansılara ki *hürufi-heca* deyilür.

Hərfi-məzkur üzrə fars və türk dəxi dört hərf, yə’ni [**پ** (pe) [8] **چ** (çe) **گ** (gaf) **ژ** (je)] hərflərini və əlavə türklər *sağır nun* hərfiniŋ şəklini (**ڭ**) dəxi izafə edüb iste’mal etdilər. Bu cəhətə ’əsri-hazırda müstə’məl türk dili üç dildən mürəkkəb bir dil olub, əlifbası otuz üç hərfdür. Bu tövr: **ا ب پ ت ث ج چ ح خ د ذ ر ز ژ س ش ص ض**
ط ظ ع غ ف ق ک گ ل م ن ه و ی

Bu hərflərdən yeddisi, yə’ni (**ث ح ص ض ط ظ ع**) ’ərəb dilinə müxtəs(s)dür, yə’ni hər bir kəlmədə ki bu hürufdan tapıla, yəqin edirük ki, o kəlmə ’ərəbidür, türki degildür. Məgər bir neçə kəlmə var ki, ğeyri-qiyas üzrə bu hurufdan birisiylə yazılmaqı şöhrət tapubdur. Məsələn: **صو** (*su*), **صوکره** (*soŋra*), **صول** (*sol*), **صانمق** (*sanmaq*) və ğeyri-zəlikə. Bu nəhv kəlmələr ’Osmanlu inşalarında çox görünür. Amma türk sözlərini ’ərəbə müxtəs(s) hərflərlə yazmaqı tərk etmək övladur.

Dört hərf dəxi necə ki işarə olundı, yə’ni (پ چ ݣ ژ) fars və türk lüğətinə məxsusdur, yə’ni hər bir kəlmədə tapılsa, yəqinən ki, ’ərəbi degildür, farsi [9] və ya türkidür. Və həmçinin, *sağır nun* ancaq türk dilinə müxtəs(s)dür, fars və ’ərəb ləhcəsində tapılmaz, məsələn: بگا (*baŋa*), سگا (*saŋa*), اوگا (*oŋa*), تگری (*Taŋrı*). Və lakin hər bir kəlmədə bulunmaq ilə demək olmaz ki, o kəlmə türk lüğətidür. Zira ki, çox vəqtdə *sağır nun* ’ərəbi və farsi kəlmələrinə mülhəq olub, ədati-izafə iste’mal olunur. Məsələn: *mü’əllimiŋ dərsi* və *mütə’əllimiŋ bəhsi*, *sipəhsaların qoşunı* və ğeyri-zəlikə. İstisna olunmuş hərflərdən yerdə qalan 21 hərf, yə’ni ا ب ت ج خ د ذ ر ز س ش ع ف ق ک ل م ن ه و ی müştərəkdür hər üç lüğətiŋ arasında.

Hərf həqiqətdə o sövtdür ki, ağızda olan üzvlərdən birisinə e’timad edə və hissi-səm’idə biri-birindən təmyiz tapa. Pəs hərfi ancaq eşitmək olur, görməg mümkün degil və görügməz. Ancaq hürufuŋ ismləri və şəkilləridür, hansıları ki yazmaq və əl sürtmək dəxi mümkündür (min qəbili təssəmiyəhiz-zaalli biismil-mədluli). Bu əsldən əşkali-məxsusəyə hüruf itlaqı mücaz olur. Hər bir hərf içün məxsusi bir ad vardur ki, sövtinə çoxınıŋ münasibəti və müşabihəti yoxdur, məsələn: (الف) [əlif], (جيم) [cim], [10] (دال) [dal], (عين) [’ayn] kimi.

Hürufuŋ məxrəci üçdür: 1) *həlq*, 2) *dil*, 3) *dodaq*-dur. Boğazdan gələn hərflər altıdur; ikisi *hai* və *həmzə*dür, bu tövr: (ه ء), boğazıŋ əŋ axırından gəlür və ikisi də (ع ح) -dur, boğazıŋ vəsətindən xaric olur və ikisi dəxi (غ خ)-dur, boğazıŋ əvvəlindən gəlür. Bu altı hərfə *hürufi-həlq* deyilür.

Dildən törənən hərflər 18-dür; beşi (ص ض ظ س ر)-dur ki, diliŋ yan dişlərə vırılmaqından və bə’zi sünayi

dişlərdən hasil olur və on biri (ط ت ش ج ی د ل ن ر ق ک) vəsəti-lisanıŋ üst çənəyə yapışmaqından ’əmələ gəlür və ikisi dəxi (ذ ث) diliŋ ucı qabaq dişlərə e’timad etməgindən səhmə gəlür. Bunlara ’ümumən *hürufi-lisani* deyirlər. Dodağdan gələn hərflər ’ərəb dilində dört və fars və türk dilində پ [pe] hərfiniŋ artmaqı ilə beş olur. Bu qərar ilə (م ف و ب پ). Bu hərflər iki dodağıŋ biri- [11] birinə münzəm(m) olmaqından hasil olur, adına da *hürufi-şəfəvi* deyirlər. Hurufi-türkidən (چ ژ ڭ) hərflərininŋ məxrəci dəxi diliŋ vəsəti üst çənəyə yapışmaqından hasil olur, amma *sağır nunuŋ* məxrəci dimağ və xəyşumdur.

Tənbih: ’ərəbidə, xüsusən tilavəti-Quranda hərfləri məxrəcindən əda etmək vacibatdandur. Və hər bir hərfiŋ məxrəcini tapmaq içün qa’idə budur ki, murad olunan hərfiŋ əvvəlinə bir *həmzeyi-məftuhə* gətürilür və ikinci hərf sakin oxunur. Dil nə məhəldə qərar dutsa, o hərfiŋ məxrəci odur, məsələn: اَخْ [əx].

Hər üç dildə hərflər başda və vəsətdə və axırda durmaq ilə öz surəti-münfəridəsindən bir növ’i dəgişilüb başqa bir sövtə girir: ـعـ. Və bu keyfiyyət ibtidai əmrdə sibyanlarıŋ tə’liminə ziyadə siqlət və sü’ubət verir. Lihəzə gərəkdür ibtidai tə’limdə hurufuŋ bu növ’i ixtilafına diqqət olunub mübtədilərə nişan verilsün, necə ki bir sühulət içün dildə yazılan cədvəldə hər bir hərfiŋ surəti-münfəridə və müttəsiləsini və hürufi-’ərəbiyyədən [12] hər biri hansı ’ədəddən kinayə oldıqını təsbit və dərc eylədik. Bu cədvələ mülahizə edəndə mə’lum olur ki, nə tövr hərfləri təğyir vermək və nə nəhv sabiqinə və lahiqinə müttəsil etmək lazımdur.

Məzkur hərflərdən yeddisi (ا د ذ ر ز ژ و) özlərindən soŋrakı hərfə əsla müttəsil olmazlar, necə ki cədvəldə aşkar görünür. Bunuŋ içün onlara *hürufi-münfəsilə* deyilür.

Qayda**:** (ﻬ [ha]) hərfi ibtida və vəsətdə vaqe' oldıqı surətdə hurufi-müttəsilədən sayılur, amma kəlməniŋ axırında zəbər sövtini verən halda hurufi-münfəsilədən məhsubdur, məsələn, **كلمه** [kəlmə] ləfziniŋ axırında olan (ه) kimi.

HÜRUFİ-MÜSAVVİTƏ VƏ SAMİTƏ

Müsavvitə sövt verən hərflərdür ki, onlar da (ا و ى) -dür və həmçinin kəlməniŋ axırında zəbər sövtini verən ه da türk dilində müsavvit [13] hesab olunur, amma həqiqətdə hərəkeyi-müsavvitə hökmindədür, bunlara *hürufi-imla* dəxi deyilür. Məzkur hürufdan ma'ədasına *hürufi-samitə* deyilür, *lal hərf* deməkdür. Hürufi-müsavvitədən *əlif vava* və ya ى hərfinə qoşuldıqda və habelə *ya* hərfi iki hərfi-samitiŋ arasında vaqe' olanda cürəbəcürə sövtlərə 'əlamət vaqe' olur, məsələn: (**اوزمك** *üzmək,* **اوگرنمك** *ögrənmək,* **اوخومق** *oxumaq,* **اورمق** *urmaq,* **ايراق** *İraq,* **ايران** *İran,* **ايلمك** *əyilmək / ilmək,* **جيران** *ceyran,* **فيل** *fil,* **قيل** *qıl*) kimi.

Gahi *vav* hürufi-samitədən hesab olunur. O surətdə ki, sakin ola, məsələn: ***ev****lənmək* kimi. Və 'əlavə bə'zi farsi kəlmələrdə *vav*ıŋ qabaqında *əlif* olan surətdə bilmərrə o tələffüzdən düşər, amma rəsmxət(t)də baqi qalur, məsələn: **خواجه** (xacə), **خوار** (xar) *zəlil* mə'nasına, **خواهش** (xahiş), **خواب** (xab), **خواستن** (xastən), **خوانند ه** (xanəndə) kimi. Bixilafi **نوازنده** (nəvazəndə) və ğeyrə.

Hərəkeyi-müsavvitə dəxi üçdür: *zəbər, zir, puş*. Bunlarıŋ hər birisi öz həmcinsi olan hərfiŋ yarı sövtini verir; zəbər "*əlif*"iŋ, zir "*ya*"nıŋ və puş "*vav*"ıŋ həmcinsidür. Bu 'əlamətlər 'ərəbcə *fəthə, kəsrə, zəmmə* adlanur. Hərəkeyi-məzkurədən başqa genə bir para 'əlamətlər vardur ki, hürufuŋ üstündə [14] qoyulur və hər birisi bir mə'naya dəlalət edür. Əvvəlinci *çalma* nişanəsidür ki, 'ərəb dilində *cəzm* və *sükun* təsmiyə olunur, *qət'* və *aram* mə'nasına. Bu nişanə hər bir hərfiŋ üstündə olsa, dəlalət edür ki, o hərfiŋ heç bir sövt verən 'əlaməti yoxdur, məsələn: *həftə, müftə* ləfzlərində *fa* hərfi kimi.

2) *təşdid*dür, bərkitmək mə'nasına. Bu nişanə hər bir hərfiŋ üstündə olanda göstərir ki, o hərfi mükərrər və ikiqat demək lazımdur, məsələn: *cənnət* və *cəhənnəm*.

3) *məd(d)*dür; *çəkmək* və *uzatmaq* mə'nasına. Bu nişanə həmişə əlifiŋ üstündə yazılur və dəlalət edür ki, onuŋ dalınca bir özgə əlif dəxi vardur, amma atılubdur, məsələn: ادم – آدم (*adam – ādəm*), اشنا – آشنا (*aşna – āşina*).

4) *həmzə*dür. Bu nişanə 'ərəb lüğətində bi'eynihi əlifdür və ancaq 'ərəb diliniŋ qanununa görə bə'zən müxtəlif surətlər ilə yazılur.Və lakin ***Azərbaycan dilində*** (!) gah və kah ədati-vəsf iste'mal olunur, məsələn: *məhkəmeyi-şər'i, mədrəseyi-'ülum* və ğeyri-zəlikə. İkincidən misal [15] : *töhfeyi-həqirə, Məkkeyi-Mükərrəmə, Kə'beyi-Mü'əzzəmə* kimi.

HÜRUFİ-ŞƏMSİYYƏ VƏ QƏMƏRİYYƏ

’Ərəbi hürufi-hecası bil’ümum iki qismdür: birinə *şəmsiyyə* və o birinə *qəməriyyə* deyilür. *Hürufi-şəmsiyyə* (**ت ث د ذ ر ز س ش ص ض ط ظ ن**)-dur. *Hürufi-qəməriyyə* (ا ب ج ح خ ع غ ف ق ک ل م و ه ی)-dür. Əgər bir kəlmədə *əlif-lam* (ا ل) hürufi-şəmsiyyədən birinə müttəsil olsa, tələffüzə gəlməz və hərfi-şəmsi də müşəddid oxunur, məsələn: *’alət-təxsis, ’aləz-zahir* və ğeyri-zəlikə. Və əgər hürufi-qəməriyyədən birinə müttəsil ola, *əlif-lam* həmi kitabətdə və həmi tələffüzdə zahir olur, məsələn: *’aləl-xüsus, bil-’ümum, bil-fe’l, bil-qüvvə* və hakəza. (*Şəmsiyyə və qəməriyyə təsmiyyələriniŋ vəchi və münasibəti mü’əllimiŋ bəyanına həvalə olunur*). *Əlif-lam* məhz ’ərəb dilinə müxtəs(s)dür, farsi və türki kəlmələrinə daxil olmaz. Məgər *həsbul-fərmayiş* sözi məc’ul ləfzlərdən olub, iste’malı səhih degildür və habelə, o kəlmə ki, onda *tənvin* ola, yə’ni *dü zəbər, dü zir, dü puş* ola, o da [16] ’ərəbidür, zira ki, tənvin farsi və türki kəlmələrində tapılmaz. Tənvinlü kəlmələrdən türk dilində çox iste’mal olan *dü zəbərlü* kəlmələrdür. Necə ki, bir neçəsini burada zikr edirik, məsələn: *fərzən, daimən, əbədən, hətmən, hökmən, vaqi’ən, küllən, cüzən, saniyən, ilə ’aşərən* və ğeyri-zəlikə. Belə kəlmələriŋ surəti-imlası bu tövrdür ki, əsl kəlməniŋ axırına bir *əlif* gətürilüb üstündə *dü zəbər* ’əlaməti qoyulur. Məgərinki kəlməniŋ axırı *ta* (**تا**) hərfinə qurtara, bu surətdə *əlif* yazmaq lazım degil, məsələn: **مدّةً بعدَ مدّةٍ و قربةً الی الله** (*müddə**t**ən bə’də müddə**t**in və qurbə**t**ən iləllah*) kimi. ’Ərəb diliniŋ qanununa görə dördinci və ya beşinci mərtəbədə məsmu’ olan *əlif* sövti (ی) [y] surətində yazılur, məsələn: **موسی** (*Musa*), **عیسی** (*İsa*), **مصطفی** (*Mustafa*),

مرتضى (*Murtəza*), مجتبى (*Müctəba*) kimi. Və əgər özindən irəlü *ya* hərfi olsa, *əlif* yazılur, məsələn: دنيا (*dünya*), رُؤيا (*röya*) kimi. Məgər ki, *'ələm* ola, bu surətdə genə (ى) yazılacaqdur, məsələn: سيحى (*Yəhya*) və ğeyrə.

[17] ***BABÜL-İSM***

İsm 'ümumən o kəlmədür ki, ondan xəbər vermək dürüst ola, məsələn: *Zeyd gəldi – getdi*. Əgər bir ism bir mə'naya dəlalət edə və o mə'nanıŋ hər bir fərdinə sadiq gələ, oŋa *ismi-cins* deyilür, məsələn: *heyvan, daş, ağac*. Və əgər mü'əyyən şəxsə dəlalət etsə, oŋa *'ələm* deyilür, məsələn: *'Əli, Həsən, Hüseyn* kimi. Və əgər mütləq sifət göstərsə, oŋa *ismi-sifət* itlaq olunur, məsələn: *böyük, kiçik, ağ, qara, sarı*.

Türk və fars dilində *zükur* və *ünas* cinsini bildürmək içün ləfzən bir 'əlamət yoxdur və ancaq fərqləri məxsusi ləfzlər ilə bəyan olunur, məsələn: zi'əqldə // *oğlan, qız, kişi, 'övrət* deyilür, heyvanda *erkək* və *dişi* kəlmələri iste'mal olunur. Və lakin türk dilinə girmiş 'ərəbi kəlmələrdə ünas cinsini bildürmək içün 'ərəb dilində tənis 'əlaməti olan ت [ət] və ya ه [ə] kəlməniŋ [18] axırına mülhəq olur, məsələn: دلاّل - دلاّله (*dəllal – dəllalə*), معلّم – معلّمه (*mü'əllim – mü'əllimə*) və ğeyri-zəlikə.

Türk dilində *san* ikidür: *müfrəd* və *cəm'*. Cəm' siğəsi 'əmələ gəlür müfrədiŋ axırına ***-lər*** ədatını artırmaq ilə, məsələn: *qələm – qələmlər, adəm – adəmlər*.

***İşarə*:** Hərgah kəlməniŋ əvvəlində və ya vəsətində [a] və ya [o] sövti eşidilsə, (*-lər* لر) 'əvəzinə (*-lar* لار) yazmaq dəxi cayizdür, məsələn: *ağa – ağalar, ağac – ağaclar*. *-lər* ədatı 'ərəbi və farsi kəlmələriŋ də axırına

mülhəq olub cəm’ bağlar, məsələn: *mü’əllim−mü’əllimlər, mütə’əllim − mütə’əllimlər, naxoş − naxoşlar* kimi. Və eyzən ’ərəb dilində müstə’məl təsniyə və cəm’ siğələri və habelə fars dilində bağlanmış cəm’ siğəsi bi’eynihi türk dilində iste’mal olunur. Buŋa görə onlarıŋ da bilinməsi lazım oldıqından əlamətlərini bəyan edirik.

’Ərəb dilində təsniyə siğəsi ’əmələ gəlür müfrədiŋ axırına (-*an*) və gah (-*eyn*)[3] hissələrini artırmaqla, məsələn: *tərəf − tərəfan // tərəfeyn, dövlət − dövlətan // dövləteyn*. Və fars dilində cəm’ siğəsi zihəyatdan oldıqı surətdə hasil olur müfrədiŋ axırına (-*an*) hissəsini artırmaqla, məsələn: *şir − şiran, padişah − padişahan*. Və əgər bir kəlməniŋ axırında [19] zəbər sövtini verən (ه) hərfi olsa, cəm’ bağlananda *kafi*-farsiyə qəlb olunub, (*gan*) deyilür, məsələn: *şahzadəgan, bəndə −bəndəgan, zində −zindəgan* və həmçinin, axırında *əlif* və ya *vav* olan kəlməyə cəm’ ’əlaməti ilə bir *ya* dəxi ziyadə olur, məsələn: *aşinayan, bədguyan* kimi. Və cansız şeylərdə cəm’ ’əlaməti farsidə (*ha*)-dur, məsələn, *kağız − kağızha*. Və lakin bu nəhv cəm’iŋ dilimizdə iste’malı yoxdur.

Cəm’ ’ərəb dilində iki qismdür: birinə *salim* və o birinə *mükəssər* deyilür. *Salim* odur ki, müfrədiŋ heyəti-əsliyyəsi cəm’ bağlananda pozulmaya, amma *mükəssər* bunuŋ ’əksincədür. Salimdə qa’ideyi-külliyə budur ki, müzəkkər içün müfrədiŋ axırına (-*ūn*) və gah (-*īn*)[4] və müənnəsdə (-*āt*) ləfzi gəlür, məsələn: *müslim − müslimūn // müslimīn, müslimāt; möminūn // möminīn, möminat;*

---

[3] Əslində, - *ani* və -*eyni* şəklində olmalıdır, lakin müəllif danışıq dilinə əsasən sükunla vermişdir.

[4] -*unə* və -*inə* şəklində olmalı idi.

mü'əllimūn // mü'əllimīn, mü'əllimāt. Amma cəm'i-mükəssər içün bir qa'ideyi-külliyə yoxdur. Və bu cəhətə 32 vəzn üzrə gəlmişdür ki, onlardan türk və fars dilində çox işlənən bunlardur:

1) fü'ul (فُعُل) vəznidür, məsələn, *kitab − kütub, sühuf, tühuf, rüsul*; [20]

2) fi'āl (فِعال) − *rəcul* (müfrəd) − *rical* (cəm'), *cəbəl − cibal*;

3) fü'ūl (فُعُول) – *bəhr* (müfrəd) −*bühur* (cəm'), *dəhr − dühur, fənn − fünun*;

4) əf' āl (افعال) −*xəbər −əxbar, əhval, ətvar, əxlaq*;

5) fü'əlā (فُعلا) − *şa'ir −şü'əra, hükəma, füzəla, 'üləma, şürəha, üməra, vüzəra*;

6) fəvā'il (فَواعِل) − *canib −cəvanib, səvahil, rəvayit, 'əvaqib*;

7) fə'āil (فَعائِل) − *'əskər −'əsakir, əqa'id, qəsayid*;

8) fə'āl (فَعال) − *zayir −zəvvar, 'əmmal, xətib −xəttab;*

9) əf'ilə (افعله) − *fuad −əfidə, ət'imə, əşribə, əmsilə, əlsinə*;

10) məfā'il (مَفاعِل) −*mənzil −mənazil, məsacid, mə'abid, məşahid, mənabir*;

11) məfā'īl (مَفاعيل) −*məsakin, məqadir*.

[21] ***ƏHVALİ-İSM***

İsm içün türk dilində yeddi hal vardur: 1) *mübtəda* və *münada* halıdur. Hər ikisində ism öz əsl vəz'i üzrə baqi qalur. Məgər ki, münada halında ismiŋ əvvəlinə (*ey*), sadə dildə (*ay*) və yainki (*ya*) və ğeyr hərfi-nidalar qoşulur, məsələn: Ey Taŋrı! Ya Allah!

2) *izafə*dür. İzafə halı hasil olur mübtədanıŋ axırına *sağır nun* hərfini artırmaqla, məsələn: *kağız* − *kağızıŋ*. Məgər ki, kəlmə müsavvit hərflərə, yə’ni (ا و ى ه) hərflərindən birisinə qurtara, o surətdə *sağır nun*dan irəlü *nuni-mənqutə* dəxi zayid olur, məsələn: *dəvə − dəvəniŋ, ağa − ağanıŋ*. Tərkibi-izafidə bə’zən *sağır nun* atılub müzafda olan zəmirə iktifa olunur, məsələn: *Məhəmməd ümməti damuda qalmaz, damudan çıqınca cani də qalmaz*. Türkcə *damu* ’ərəbcə *cəhənnəm* deməkdür. Dilimizdə ikinciniŋ iste’malı əvvəlimciyə ğalibdür. [22]
3) *məf’ulun-ileyh* halıdur, o da hasil olur mübtədanıŋ axırına ه [a/ə] hərfini artırmaqla, məsələn: *kitab − kitaba, ağac − ağaca*. Amma əgər kəlmə məzkur müsavvit hərflərindən birisinə qurtarmış olsa, o surətdə *ha* -dan irəlü bir də bir (*y*) artırmaq lazımdur, məsələn: *ağa − ağa**ya**, dəvə −dəvə**yə*** və hakəza.
4) *məf’ulun-bih* -dür. Və o da ’əmələ gəlür mübtədanıŋ axırına (ى *ı/i*) hərfini artırmaqla, məsələn: *qələm −qələm**i***, *kağız − kağız**ı**, əl − əl**i**.* Və lakin kəlmə əgər məzkur müsavvit hərflərə qurtarsa, o surətdə bir *nun* və ya bir (*y*) dəxi məzid olur, məsələn: *ağanı, ’əmuni, ’əmməni, xalanı, dayını, suyı* və ğeyri-zəlikə. Bə’zən *məf’ulun-bih nəkərə* bulunduqda *məf’ulun-bih* ’əlaməti ləfzdən atılur, yə’ni ibtida halında durar, məsələn: *Küçədə iki at gördüm. Dünən iki quş dutdum*.
5) *məf’ulun-mə’əh*-dür və o da ’əmələ gəlür mübtədanıŋ axırına (*ilə* ايله) və ya təxfif üzrə (*lə* له) və gah (*-ylə /-yla* يله) artırmaqla, məsələn: *qələm ilə // qələmlə, ’əsa − ’əsayla*.

6) *məf'ulun-fih* halıdur, o da hasil olur mübtədanıŋ axırına *da/də* ədatını [23] artırmaqla, məsələn: *bağ – bağda, ev – evdə* və ğeyri-zəlikə.
7) *məf'ulun-minh* -dür, o da 'əmələ gəlür mübtədanıŋ axırına (*dan/dən*) ədatını qoşmaqdan, məsələn: *qələmdən, kağızdan, adamdan* və hakəza.

SURƏTİ-TƏĞYİR				
Hürufi-müsavvitədən آ (a) hərfinə qurtaran ism			Hürufi-müsavvitədən وُ (u) hərfinə qurtaran ism	
Əhvali-ism	***Müfrəd***	***Cəm'***	***Müfrəd***	***Cəm'***
Mübtəda	baba	babalar	′əmu	′əmulər
Izafə	babanıŋ	babalarıŋ	′əmuniŋ	′əmuləriŋ
Məf'ulun-ileyh	babaya	babalara	′əmuyə	′əmulərə
Məf'ulun-bih	babanı	babaları	′əmuni	′əmuləri
Məf'ulun-mə'əh	baba ilə	babalar ilə	′əmu ilə	′əmulər ilə
Məf'ulun-fih	babada	babalarda	′əmudə	′əmulərdə
Məf'ulun-minh	babadan	babalardan	′əmudən	′əmulərdən

[24] ***SURƏTİ-TƏĞYİR***				
	Hürufi-müsavvitədən ه (a/ə) hərfinə qurtaran ism		Hürufi-müsavvitədən ی (i/ı) hərfinə qurtaran ism	
Əhvali-ism	***Müfrəd***	***Cəm'***	***Müfrəd***	***Cəm'***
Mübtəda	bağça	bağçalar	bacı	bacılar
Izafə	bağçanıŋ	bağçalarıŋ	bacınıŋ	bacılarıŋ
Məf'ulun-ileyh	bağçaya	bağçalara	bacıya	bacılara
Məf'ulun-bih	bağçanı	bağçaları	bacını	bacıları
Məf'ulun-mə'əh	bağça ilə	bağçalar ilə	bacıyla	bacılar ilə
Məf'ulun-fih	bağçada	bağçalarda	bacıda	bacılarda
Məf'ulun-minh	bağçadan	bağçalardan	bacıdan	bacılardan

[25] ***SURƏTİ-TƏĞYİR***				
	Hürufi-samitədən (ه) sakinə [h] hərfinə qurtaran ism		Hürufi-samitədən (و) sakinə [v] hərfinə qurtaran ism	
Hallar	***Müfrəd***	***Cəm'***	***Müfrəd***	***Cəm'***
Mübtəda	padişah	padişahlar	ev	evlər
Izafə	padişahıŋ	padişahlarıŋ	eviŋ	evləriŋ
Məf'ulun-ileyh	padişaha	padişahlara	evə	evlərə
Məf'ulun-bih	padişahı	padişahları	evi	evləri
Məf'ulun-mə'əh	padişah ilə müxəffəfi: padişahla	padişahlar ilə	ev ilə	evlər ilə
Məf'ulun- fih	padişahda	padişahlarda	evdə	evlərdə
Məf'ulun-minh	padişahdan	padişahlardan	evdən	evlərdən

Qeyd: Müsavvit hərflərə qurtaran kəlmələr (izafə, məf'ulun-ileyh və məf'ulun-bih halından sivasında) və habelə cəm' bağlananda hürufi-samitəyə qurtaran kəlmələr kimi iste'mal olunur, yə'ni *ya* və *nun* daxil olmayacaqdur.

[26] [*İZAFƏ BƏYANINDA*]

Izafə bir şeyiŋ bir ismə tə'əllüq və ya təməllükini göstərir. Əvvəlinci ismə *müzafün-ileyh* və ikinciyə *müzaf* deyilür, məsələn: (*Azadıŋ kitabı*) tərkibində *Azad* müzafün-ileyh, *kitab* müzafdur. Bu qism izafəyə (*izafeyi-lamiyyə*) deyilür. Bunda ğalibən müzafün-ileyhiŋ axırına *sağır nun* və müzafıŋ axırına bir (i/ı) lahiq olur. Və lakin əgər kəlmə müsavvit hərflərdən birinə qurtarsa, (*ya*) 'əvəzinə (*si//sı*) zəmiri qoşulur, məsələn: *ağacıŋ barı, dostuŋ cəfası*. Və lakin bu nəhv müzafların məf'ulun-bih, məf'ulun-mə'əh, məf'ulun-fih və müzafun-ileyh hallarında (ی i/ı) hərfi atılub 'əvəzinə bir *nuni-viqayə* gətürilür, məsələn: *Azadıŋ kitabı* tərkibində zikr olan surətlərdə bu tövr deyilüb və yazılur: *kitabını, kitabına, kitabından, kitabında, kitabınıŋ* və habelə *cəfasını, cəfasına, cəfasından.* Və ancaq axırı hürufi-münfəsilədən (د ذ ر ز ژ) və *vavi-sakin* hərflərinə qurtaran kəlmələrdə (ی ı,i) hərfi hər bir halda baqi qalur, məsələn: *ağacıŋ barı* tərkibində *barınıŋ, barına, barıyla, barından, barında* deyilüb yazılur. Hərgah müzafün-ileyh müzafıŋ növ'ini və cinsini göstərə və ədatı-izafədən mücərrəd ola, oŋa *izafeyi-bəyaniyyə* deyilür, məsələn: *qızıl yüzük*, [27] *gümüş kasa* kimi. Dilimizdə farsidə müstə'məl izafə tərkibi dəxi iste'mal olunur. Fars dilində izafə üç vəch ilə 'əmələ gəlür: 1) *kəsrə* ilə. O surətdə ki, əvvəlinci kəlmə samitə

hərflərə qurtara, məsələn: *padişah***i***-dövran, pərvərdigar***i***-'aləm*; 2) *həmzə* ilə ء. O surətdə ki, kəlmə *hai-rəsmiyyə* və ya (ى *i*) hərflərinə qurtara, məsələn: *mədrəseyi-səna'ət, valiyi-vilayət*;
3) ى [**y**] vasitəsiylə. O surətdə ki, kəlmə müsavvit hərflərdən *əlif*ə və ya *vavi-müsavvitə*yə qurtara, məsələn: *vəfayi-dünya*; *'əmuyi-mən*. Bu qism izafə tərkiblərini türk dilinə gətürdikdə ğalibən ikinci ismiŋ axırına *sağır nun* gətürilür, məsələn: *dövranıŋ padişahı, 'aləmiŋ pərvərdigarı* .... deyilür. Və gah belə tərkiblərdə ikinci ism əvvəlimci içün sifət düşər, məsələn: *bəndeyi-həqir, 'əmuyi-mehriban, ruyi-xub*. Və gah sifət mövsufundan müqəddəm keçirilüb ikisi mə'ən bir ism hesab olunur: *xubru, xoş avaz* kimi. Farsidən alınmış bu qəbil mürəkkəb ismlər türk dilində çox müstə'məldür, məsələn: *gül'üzar, güləfşan, pəriruy, gülçöhrə, cahandar, cahangir* və ğeyrə.

[28] [***İSMİ-SİFƏT BƏYANINDA***]

İsmi-sifət bir ismiŋ əhvalından və necəligindən xəbər verən ismdür. O da 'ümumən, 'üyub və əlvan və hüsn və qübh göstərən kəlmələrdür, məsələn: *ağ, qara, kor, kar, gözəl, çirkin* kimi. Və ğalibən lisani-'ərəbdə müstə'məl *ismi-fa'il* və *ismi-məf'ul* siğəsi və sifəti-müşəbbəhə cümləsindən *siğeyi-fə'il* dilimizdə ismi-sifət məqamında işlənür, məsələn: *'adil padişah, məzlum bəni-İsrail, 'əlil şəxs, bəxil adam*. Türk dilində sifət ilə mövsuf arasında mütabiqət yoxdur, nə sanda, nə cinsdə və nə başqa hallarda. Və həmişə mövsufdan müqəddəm düşər, məsələn: *yaxşı kişi / kişilər / kişiləriŋ*. Amma cəm' siğəsində münfəridən iste'mal oldıqı surətdə ismi-cins

mənziləsində olub hər bir hala təhvil olacaqdur, məsələn: *Qaraların yüzi yumaq ilə ağ olmaz* / *qaralara, qaraları, qaralar ilə*.

İsmi-sifət içün üç dərəcə vardur: 1) *'adi*; 2) *izafi*; 3) *ə'la*dur. Dərəceyi-izafi 'əmələ gəlür dərəceyi-'adiyə *-raq* hissəsini qoşmaq ilə, məsələn: *gözəl – gözəlraq*. Və lakin ğalibən dərəceyi-izafini bildürmək içün iki tərəfdən birisi məf'ulun-minh halında, ismi-sifət dərəceyi-'adi halında qoyulur, məsələn: *Bu kağız o kağızdan yaxşıdur*. Və gah bu surətdə dərəceyi-izafini [29] qüvvətləndirmək içün bu kəlmələri dəxi izafə edirlər, məsələn: *artıq // ziyadə // çox // dəxi*, məsələn: *May istidür, üyun maydan artıq / çox / dəxi istidür*. Dərəceyi-ə'la 'əmələ gəlür, əvvəla, 1) ismi-sifətdən irəlü *ən* ədatını gətürməklə, məsələn: *Bu kağız ən yaxşı kağızdur;* 2) zeyldə yazılan kəlmələrdən birini ismi-sifətə qoşmaq ilə, məsələn: *ziyadə, çox, nəhayətdə, ğayətdə, ifrat* və ğeyrə, məsələn: *Bu adam ifrat // ğayət də gözəldür*. Və gahi ismi-sifətə bir para möhməlat qoşulub mübaliğə andırar, məsələn: *qap qara, sap sarı, qup qurı, yam yaşıl, bom boş* və ğeyrə.

İSMİ-TƏSĞİR BƏYANINDA

İsmi-təsğir o kəlmədür ki, bir şeyin kiçikligini andıra. Türk dilində müsəğğər ismlər iki vəch ilə hasil olur: 1) 'ümumən, ismin axırına xəfif kəlmələrdə (*-cik*) və səqillərdə (*-cıq*) ədatlarını artırmaqla. Və bə'zən bunlara (**z**) hərfi dəxi lahiq olub, *qaf ğayna* təbdil olunur: *oğlancıq – oğlancığaz, 'övrət – 'övrətcik – 'övrətcigəz* kimi; 2) isim [30] ismi-sifətə, eyzən (*-ca*) hissəsini qoşmaq ilə, məsələn: *yaxşı – yaxşıca, ağ – ağca, gözəl – gözəlcə* və ğeyrə.

İSMİ-MƏNSUB BƏYANINDA

İsmi-mənsub o kəlmədür ki, bir zatıŋ bir yerə və ya mütləq bir sifətə nisbətlənməgini ifadə edə. Bu da ’əmələ gəlür ismiŋ axırına (-*lu* və ya -*li*) ədatını gətürmək ilə, məsələn: *şirvanlu, gəncəli, güclü, qüvvətli.* Səqil kəlmələrdə (-*lu*) və xəfif kəlmələrdə (-*li*) gətürmək münasibdür. Və lüğəti-farsidə farsi və ’ərəbi ismləriŋ axırına bir *i* və ya *mənd* və *sar, dar, nak* ləfzləri artırmaqla *ismi-mənsub* olur, məsələn: *fars* − *farsi, ’ərəb* − *’ərəbi, dərdmənd, dərdnak, ğəzəbnak, dağdar, şərmsar* kimi.

İSMİ-’ƏDƏD BƏYANINDA

İsmi-’ədəd san göstərən kəlmələrə deyilür. O da üç qismdür: *əsli, tərtibi, kəsri. Əsli* şeyiŋ ancaq miqdarını göstərir ki, bir və [31] birdən yuxarı ilə-ğeyrin-nihayə saylar kimi ki onların da üsuli-məratibi dörtdür: 1) *ahad* (اَحد); 2) *’əşərat* (عَشَرات); 3) *miətə* (مِأَت); 4) *üluf* (اُلوف)-dur. *Tərtibi* o kəlmədür ki, bir şeyiŋ miqdar ilə bilə mərtəbəsini də göstərə. O da ’əmələ gəlür ismi-’ədədiŋ axırına -*mci* və ya (-*nci*) hissəsini qoşmaqla. Bu surətdə axırı “*ya*”ya qurtaran kəlmələrdən (ی i) hərfi atılar. Və *tai-mənqutə* dəxi hər kəlmədə bulunsa “*dal*”a qəlb olunur: *ikinci, yeddinci, dördünci* kimi. *Kəsri* o kəlmələrdür ki, bir ’ədədiŋ mü’əyyən hissəsini göstərir. Bu da hasil olur əsliniŋ axırına (-*dən*) gətürüb hissə göstərən ’ədədi ondan soŋra qoymaqla, məsələn: *üçdən bir*, *altıdan bir* kimi. Və ya dərəcə göstərən ’ədədə *pay* ləfzini qoşmaqla, məsələn: *ğəllatdan onuncı pay zəkat* və *ğənimətdən beşinci pay xümsdür*. Və ğalibən yazıda və danışıqda *dörtdən bir*

’əvəzinə farsidən alınmış (*çarək*) və bə’zən ’ərəbidən alınmış (*rüb’*) kəlmələri [iste’mal] olunur. Və hətta ixtisar içün inşalarda *yarım* və *üçdən bir*dən *ondan bir*ə gedincə *’ərəbidə* müstə’məl küsuri-tis’əni iste’mal edirlər. Bu təriqlə: **نصف** *nisf* (1/2), **ثلث** *süls* (1/3), **ربع** *rüb’* (1/4), **خمس** *xüms* (1/5), [32] **سدس** *süds* (1/6), **سبع** *süb’* (1/7), **ثمن** *sümn* (1/8), **تسع** *tus’* (1/9), **عشر** *’üşr* (1/10).

Fayda: İsmi-’ədəddən soŋra türk və fars dilində bir para qeydlər dəxi iste’mal olunur. Məsələn, insan növ’ində (*nəfər*) və heyvan cinsində (*ras* və ya *baş*) və kəsər-silahda yaraq (*qəbzə*) və ğəllat və cəvahiratda (*danə*), tək və mütəhərrik şeylərdə (*’ədəd*) və biri-birisiz yaramayan şeydə – başmaq, corab kimi (*cift*) iste’mal olunur, məsələn: *Əsirlərdən əlli nəfər azad oldı. El bəgimiz filan ’alimə iki ras at və üç baş inək mərhəmət eylədi. Padişah vəzirinə bir qəbzə mürəssə’ qılınc ən’am buyurdı* və hakəza.

İsmi-’ədədiŋ iki əvvəlimci qismi həmişə öz haləti-vəz’iyyələri üzrə baqi qalur, yə’ni izafə və sayir hallarda dəgişilməz, məsələn: *bir adam, bir adamıŋ, bir adama* və ilaxır və ya *əvvəlimci adam / adamıŋ / adama* və ilaxır deyilür. Məgər ki münfəridən iste’mal olalar, məsələn: *İki altınıŋ üçdən biridür, üç doqquza üç kərrə daxildür*. Və həmişə ismi-’ədədiŋ mə’dudı müfrəd olur, məsələn: *Keçən da’vada yüz min adam tələf oldı*. [33] *Bu məclisdə on iki adam vardur*.

İSMİ-MƏKAN BƏYANINDA

İsmi-məkan o kəlmədür ki, bir şeyiŋ məkanını göstərə. O da türkcə hasil olur *ismi-cənbiŋ* axırına (لِک // لُک **lik** // **lük**) və ya (لِق // لُق **lıq** // **luq**) ədatını lahiq etməklə, məsələn: *çəmənlik, tikanlıq* kimi. Amma ’ərəbcə gah *məf’əl* və gah *məf’il* vəznində gəlür, *mə’bəd* və *məscid* kimi, ’ibadət yeri və səcdə məkanı deməkdür. Və farsidə ismləriŋ axırına ***zar***, ***gah***, ***dan***, ***stan*** ədatlarını artırmaqla hasil olur, məsələn: *laləzar, gülüstan, nəməkdan, ’ibadətgah* kimi. (***Gah***) ləfzi məkan göstərən kimi farsidə bə’zən zaman içün dəxi iste’mal olur, *sabahgah, səhərgah* kimi.

İSMİ-İŞARƏ BƏYANINDA

İsmi-işarə o kəlmədür ki, bir zatı göstərməgə dəlalət edə. Göstərilən şeyə *müşarün-ileyh* deyilür. İsmi-işarə ikidür: *bu* və *o* // *ol*. [34] Əvvəlinciylə qəribə, ikinciylə bə’idə işarə olunur. (*O*) ’əvəzinə türkiyi-’Osmanidə *şu* və əŋ yaxına işarə etdikdə (*işbu*) iste’mal edirlər. (*O*) işarə içün oldıqı kimi həm də *zəmiri-ğayibdür*, məsələn: (*mən, sən, o*). Bu cəhətə, münfəridən iste’mal olan surətdə heç bir fərqləri yoxdur. Və lakin *lam* lahiq oldıqda və ya bir ismiylə zikr olan surətdə işarə içün olmaqı mü’əyyəndür, məsələn: *ol adam, o xatun*. Gah (*ol*) ’əvəzinə nədrətən *şol* dəxi deyilür. Bunlarıŋ hər ikisi izafə və sayir hallara dəgişilməz. Və lakin (*bu*) və (*o*) cəm’ hallarda mübəddəl olur. Bu qərar ilə: *bu, bunuŋ, buŋa, bunı, bunuŋ ilə* (müxəffəfi: *bunuŋla*), *bundan, bunda;*

cəm'i: *bular // bunlar, bunlarıŋ, bunlara, bunları, bunlar ilə, bunlardan, bunlarda.*

İSMİ-ZƏMİR BƏYANINDA

Zəmir o kəlmədür ki, söyləyən şəxsə və ya qarşuda və ğayibdəki şəxsə dəlalət edə. O da iki qismdür: *müttəsil* və *münfəsil*. [Münfəsil] odur ki, tək və tənha iste'mal oluna, məsələn: *mən, sən, o;* cəm'i: *biz // bizlər, siz // sizlər, olar // onlar*. Əvvəlinciyə *zəmiri-mütəkəllim*, ikinciyə *zəmiri-müxatəb*, [35] üçünciyə *zəmiri-ğayib* deyilü[r]. *Müttəsil* odur ki, bir kəlməniŋ axırına qoşula və yalquz iste'mal olunmaya, o da müzaf ismlərə qoşuldıqda *m, ŋ, ı // i* və ya *sı*; cəm'də: *-miz, -ŋiz, -ləri //-ları'*dür, məsələn: *mənim kitabım / kitabıŋ / kitabı / kitabımız / kitabıŋız / kitabları.* Bunlara, müzaflara lahiq oldıqı içün "*zəmiri-izafi*" [d]eyilür. Amma fe'lə müttəsil olan surətdə ancaq iki maddədə əvvəlkilərdən ayrılar. Belə ki, cəm'i-mütəkəllimdə (*-miz*) 'əvəzinə (*-k*) və ya (*-q)* və cəm'i-ğayibdə (*-lər*) mülhəq olur, məsələn: *gəldim, gəldiŋ, gəldi, gəldik, gəldiŋiz, gəldilər.* Bunlara, fe'lə müttəsil oldıqı içün "*zəmiri-fe'li*" deyilür. Və hərgah zəmir xəbərə müttəsil olsa, oŋa "*zəmiri-rəbti*" deyilür və onlar da bunlardur: *-əm, -sən, -dur, -ik // -ıq, -sıŋız, -durlar***.** Məsələn: *Mən talibəm, sən talibsən, o talibdür, biz talibik, siz talibsiŋiz, onlar talibdürlər*.

Qeyd: Kəlməniŋ axırında hürufi-müsavvitədən bulunur isə, mütəkəllimdə zəmiri-rəbtidən müqəddəm bir (***y***) dəxi artar, məsələn: *aşina**y**am, bəndə**y**əm, razı**y**am, güclü**y**əm*. Və gah (***ki***) zəmiri bir ismə və yaxud zəmiri-münfəsilə müttəsil olub təxsis və [36] tə'rif andırar,

məsələn: *mənimki, səniŋki, onuŋkı, bizimki, siziŋki, onlarıŋki* və *ötəki* və *səhərki* kimi.

Müzafa müttəsil zəmir təməllük və ya mütləq nisbəti göstərir və ğalibən onuŋla mə’ən zəmiri-münfəsil dəxi iste’mal olunur. Məsələn: *mənim kitabım, səniŋ qələmiŋ*. Və lakin bə’zən müzafa qoşulan zəmiriŋ vücudiylə zəmiri-münfəsili atarlar. Məsələn: *Bu gün mənim dərsim çoxdur* ’əvəzinə *Bu gün dərsim çoxdur* deyilür. Zəmiri-münfəsiliŋ halları ’ümumi qa’idədən dört maddədə xaric olur: 1) mütəkəllim zəmiri-izafə halında *mim’*ə qurtarır, nəinki *sağır nun*; xah müfrəd ola və xah cəm’, məsələn: *mən / mənim / biz / bizim;* 2) cəm’i müfrədindən bağlanmayur, məsələn: *mən / biz;*
3) məf’ulun-ileyh halında hər üç zəmir müfrəd olan surətdə *hayi-rəsmiyyə’*yə (ه) qurtarmayub, *sağır nun* ilə *əlif’*ə qurtarır, məsələn: *maŋa* مگا // *baŋa* بگا *, saŋa* سگا , *oŋa* اوگا *;*
4) məf’ulun-mə’əh ’əlaməti (*ilə*) mütəkəllim zəmirlərində mübtədanıŋ axırına qoşulmayub izafə halınıŋ axırına lahiq olur, məsələn: (*mənim / mənim ilə, bizim / bizim ilə*) müxəffəfi: *mənimlə / bizimlə.* Və habelədür ğayib və müxatəb zəmirlərində müfrəd oldıqı surətdə, məsələn: *onuŋ* [37] / *onuŋ ilə, səniŋ / səniŋ ilə,* müxəffəfi: *onuŋla, səniŋlə.*

	Mütəkəllim		***Müxatəb***	
Əhvali-zəmayir	***Müfrəd***	***Cəm'***	***Müfrəd***	***Cəm'***
Mübtəda	mən	biz	sən	siz
Izafə	mənim	bizim	səniŋ	siziŋ
Məf'ulun - ileyh	maŋa / baŋa	bizə	saŋa	sizə
- bih	məni	bizi	səni	sizi
- mə'əh	mənim ilə müxəffəfi: mənimlə	bizim ilə müxəffəfi: bizimlə	səniŋ ilə müxəffəfi: səniŋlə	siziŋ ilə müxəffəfi: siziŋlə
- fih	məndə	bizdə	səndə	sizdə
- minh	məndən	bizdən	səndən	sizdən

[38] ***Ğayib***		
Əhval	***Müfrəd***	***Cəm'***
Mübtəda	O	Olar (اولر) // onlar (اونلر) // olar (اولار)
Izafə	Onuŋ	Olarıŋ
Məf'ulun-ileyh	Oŋa	Olara
- bih	Onı	Oları
- mə'əh	Onuŋ ilə, müxəffəfi: onuŋla	Olar ilə, müxəffəfi: olarla
- fih	Onda	Olarda
- minh	Ondan	Olardan

Gah mütəkəllim və müxatəb cəm'lərində (-*lər*) və cəm'i-ğayibdə bir (*nun*) dəxi zayid olur, məsələn: *bizlər* və *sizlər* və *o**n**lar* deyilür.

[39] ***BABÜL-FE’L***

Fe’l zatən üç qismdür: *əsli, zəmani, fər’i*. *Əsli* o siğədür ki, zat və zaman göstərməyüb sayir fe’llər içün məxəz vaqe’ ola ki, *getmək, oxumaq* kimi. *Zəmani* o siğədür ki, zat və zaman göstər[ə], *getdi, gedəcək* kimi. *Fər’i* odur ki, zaman göstərməyüb, ancaq fe’liŋ zat ilə qayim olmasına dəlalət edə, *gedən* və *gedici* kimi.

Fe’li-əsli *məsdər* adlanur. Məsdəriŋ ləfzən ’əlaməti odur ki, axırında (-*mək*) və ya (-*maq*) ədatı buluna və bu ədatlar atılan surətdə baqi qalan maddə *əmr* siğəsi ola, *gəlmək, yazmaq* kimi. Əvvəlinci misala “*məsdəri-xəfif*”, ikinciyə “*məsdəri-səqil*” deyilür.

İSMİ-MƏSDƏR (HASİLİ-MƏSDƏR)

İsmi-məsdər o kəlmədür ki, məsdərdən hasil olan bir halı göstərə. Bu da ləfzən hasil olur ədati-məsdəriŋ axırımcı hərfini atmaq [40] və ya (ه ə) hərfinə qəlb etməklə və ya bilmərrə ədati-məsdəri alub ’əvəzinə (*ş*) gətürməklə. Məsələn: *içmək – içim, atmaq – atım; salmaq – salma, dişləmək – dişləmə, getmək – gediş, gəlmək – gəliş, almaq / alma* və hakəza. Və bə’zən şu məsdəriŋ və habelə ismi-sifətiŋ axırına (-*lik*) və ya (-*lıq*) ədatı qoşulub ismi-məsdər mə’nasını andırar, məsələn: *yazmaqlıq, getməklik, yaxşılıq* və *yamanlıq* kimi.

MƏSDƏRİ-’ƏRƏBİ

’Ərəb lüğətiniŋ qanununa görə məsdər içün müxtəlif siğələr var. Bə’ziləri “*məsdəri-mücərrəd*” və bə’ziləri “*məsdəri-məzid*” adlanur. Əvvəlimcilərdən dilimizdə çox iste’mal olan bu vəznlərdür, hansılarıŋ ki mövzunlardan bir neçə kəlmə müqabillərində zikr olunur.

Qeyd*:* Zeyldə hər vəzndən irəlü yazılan hərəkələr əvvəlimci hərfiŋ ol hərəkə üzrə oxunmaqına işarədür:

1) _ **فعل** (fə’l // fi’l // fu’l) — *’ədl, ’ilm, şükr*; [41]

2) _ **فِعا ل** (fə’al̄ // fi’al̄ // fu’al̄) — *sərab, ’iqab, sual*;

3) _ **فعلان** (fe’lan̄ // fi’lan̄ // fu’lan̄) — ***heyran, hirman,*** *ğufran*;

4) _ **فعول** (fə’ul̄ / fü’ul̄) əvvəlinci hərfiŋ fəthəsi və ya zəmməsiylə – *qəbul, düxul*;

5) _ **فعلت** (fə’lət // fi’lət // fu’lət) — *rəhmət, firqət, ğurbət*;

6) _ **فعالت** (fə’al̄ət // fi’al̄ət) — *rəfaqət, ’inayət*;

7) _ **فُعولت** (fə’ul̄ət // fü’ulət) — *’ətufət, sühulət*;

8) _ **فعيلت** (fə’il̄ət) — *fəzilət, ’əzimət, həzimət*;

9) _ **مفعلت** (məf’ilət) — *məğfirət, məkrəmət, mə’dilət*;

10) _ **فعلان** (fə’əlan̄) — *cərəyan, ğələyan, sərəyan*.

Ikinci qismdən, yə’ni məsdəri-məziddən kəsir iste’mal olan vəznlər bunlardur. Hər vəzniŋ müqabilində maddeyi-əsli üzərinə artan hərflərə dəxi işarə olunur, tainki mə’naya müntəqil olmaq asan ola:

Hürufi-zəvayid

1) اِفعا ل (if’al̄): *ikram, i’zaz* kimi. (–)

2) تفعيل (təf’il̄): *təkrim, tə’zim, təqrir, təmrin* kimi.

(ت - ى) (t - y/i) [42]

3) تفعّل (təfə’ül): *təşəkkür, təfəzzül, tərəhhüm* kimi.

(ت - ع) (t -’ayn)

4) تفاعل (təfa̅’ül): *tədaxül, təkasür, tə’adül* kimi.

(ت - ا) (t - a)

5) اِفتِعا ل (ifti’al̄): *intiqal, iftiraq, ictima’.*

(ا - ت - ا) (i - t - a)

6) اِلفعا ل (ilfi’al̄): *inqisam, inqita’, inbisat.*

(ا ن - ا) (in - a)

7) مفاعله (müfa̅’ilə): *müharibə, müdaxilə, müsalihə, müqavilə, müqabilə.* (م - ا - ه) (m - a- ə)

8) اِستفعا ل (istif’al̄): *istixbar, isti’lam, isti’mal.*

(ا - س – ت) (i - s - t)

9) فَعُلله (fə’lələ): *vəsvəsə.* (ل - ه) (l - ə)

İNQİSAMİ-FE’L LƏFZƏN VƏ MƏ’NƏN

Məsdər və ya mütləq fe’l ləfzinə və mə’nasına görə altı qismdür: *mütə’əddi, lazım, mə’lum, məchul, müsbət, mənfi.*

Mütə’əddi o fe’ldür ki, əsəri başqasına təcavüz edə və *kimi* və ya *nəyi* kəlməsiylə ondan sual səhih ola, *kəsmək* və *dutmaq* kimi.

Lazım o fe’ldür ki, əsəri başqasına keçməyə və ancaq fa’il içün bir hal ola, *gülmək, uzanmaq* kimi. [43]

Fe'li-mütə'əddi həmişə *məf'ulun-bihi sərih* istər və onuŋla mə'ən sayir məf'ulları da alur. Amma *lazım* heç bir məf'ulı tələb etməz, ancaq bə'zi qövllər məkana tə'əllüqi oldıqı içün *məf'ulun-bihi ğeyri-sərih* ola bilür: *məscidə girmək, bağçaya çıxmaq* kimi.

Mütə'əddi və lazımdan hər biri ya *səma'i*-dür və ya *qiyasi*. *Mütə'əddiyi-səma'i* odur ki, əslən və vəz'ən mütə'əddi ola, *kəsmək* və *yazmaq* kimi. Amma *qiyasi* odur ki, əslən lazım ola və bir qa'idə üzrə soŋradan mütə'əddi qılına. Lazımı mütə'əddi qılmaq da qa'idə üzrə ki, fe'li-lazımıŋ maddeyi-əsliyyəsinə (*t*), (*dır*), (*ğuz*) və bə'zən (*z*) ədatları qoşula, məsələn: *ərimək* – [*əritmək*], *dinmək* – *dindirmək, durmaq* – *durğuzmaq, qalxmaq* – *qalxızmaq* kimi. Axırımcı misalda (*x*) hərfini atub (-*dır*) ədatilə dəxi mütə'əddi olur, *qaldırmaq* kimi. Hərgah məzkur ədatlardan ikisi mə'ən bir fe'ldə tapılsa, fe'liŋ bir vasitə ilə vüqu'ya gəlməgini andırar, məsələn: *gəz**dirt**mək* kimi. Və həmçinin *mütə'əddiyi-səma'iyyədə ədati-tə'əddiyədən* birisi daxil olub vasitə göstərir. Bu surətdə oŋa "*mütə'əddiyi-kamil*" deyilür, *örtmək* –*örtdürmək* kimi.

[44] *Lazımi-səma'i* odur ki, əslən lazım ola, *uzanmaq* və *yatmaq* kimi. Amma *qiyasi* odur ki, əslən mütə'əddi olub soŋradan bir qa'idə üzərinə lazım qılına. Mütə'əddini lazım etməkdə qa'idə budur ki, ədati-məsdərdən müqəddəm bir *nun* (*n*) və ya bir (*ş*) məzid ola, məsələn: *sarımaq* –*sarı**n**maq, qatmaq* –*qatı**ş**maq, yığmaq* –*yığı**ş**maq* kimi. Lazımıŋ bu qisminə "*mütavi'ət*" deyilür.

Qa'idə: ş hərfi ğalibən fe'lə lahiq oldıqda *müşarikəti* andırar. İstər fe'l əslən lazım ola və ya mütə'əddi, məsələn: *qaçmaq* – *qaçışmaq, urmaq* – *uruşmaq, yazmaq* –*yazışmaq*. Dəxi bəzi fe'ldə (**ş**) cövhər

kəlmədən oldıqı surətdə də genə müşarikəti bildirir, *yazışmaq, güləşmək* kimi.

MƏ’LUM VƏ MƏCHUL

Mə’lum o siğədür ki, fa’ilə isnad verilə, *kəsmək, yazmaq* kimi ki, *yazan* və *kəsən* zata nisbət verilür. Amma *məchul* o siğədür ki, məf’ulə isnad verilə. Fe’li-məchul həmişə fe’li-mütə’əddidən gəlür, fe’li- [45] lazımdan bağlanmaz. Mə’lumı məchul siğəsinə gətürmək içün qa’idə budur ki, ədati-məsdərdən müqəddəm bir (***l***) məzid olur, bişərtiki, maddeyi-əsliyyəniŋ axırımcı hərfi *lam* və ya hərəkəlü olmaya. Və illa bir (*nun*) zayid olacaqdur. Əvvəlimciniŋ misalı: *kəsmək* – *kəsilmək, urmaq* – *urılmaq* kimi, ikinciniŋ misalı: *oqumaq* – *oqunmaq, bilmək* – *bilinmək* kimi. Bu axırımcı surətdə mütavi’ət ilə məchuluŋ ləfzən fərqi bilinməyüb, ancaq mə’nən və məqamən fərqləri zahir olur, məsələn: əgər fe’l fa’iliŋ halı olsa mütavi’ət və əgər məf’uliylə qayim bulunsa məchul olur.

MÜSBƏT VƏ MƏNFİ

Müsbət o siğədür ki, fe’liŋ vücuda gəlməgini andıra, *oxumaq* və *gəlmək* kimi. Amma *mənfi* odur ki, fe’liŋ vücuda gəlməməgini bildirə, *yazmamaq, gəlməmək* kimi. Müsbəti mənfi siğəsinə gətürmək içün qa’idə budur ki, ədati-məsdərdən irəlü bir (*m*) *məftuhə* gətürilür, amma səqil məsdərlərdə “*mim*”iŋ fəthəsini izhar içün bir *əlif* artırmaq dəxi cayizdür: **فيلممق – قيلمق // فيلماق** *qılmaq* – *qılmamaq*.

[46] [ʾAMMƏ VƏ XASSƏ]

Fe’llərdən bə’zi (mə’nasında ’ümumiyyət olmaqa görə) عامّه *’ammə* və bə’zi (xüsus bir mə’naya dəlaləti içün) خاصه *xassə* adlanur. Əvvəlincininŋ misalı: *etmək, e(y)ləmək, qılmaq, olmaq* kimi, ikincininŋ misalı: *oxumaq*, *gəzmək* kimi. *Fe’li-’ammə* ’ərəbi və farsi məsdərlərdən və ya ismlərdən və bə’zən xud türki ismlərdən birinə qoşulmaqıyla *xassə* olur. Məsələn: *etmək* və ya *e(y)ləmək* fe’li-’ammdur, amma *tə’zim etmək* və *ehsan eyləmək* fe’li-xass olur və kəza *hədiyyə qılmaq, dövlətlü olmaq* və ya *xaşınlıq etmək.*

Və gah əf’ali-xassədən ’ərəbi və farsi kəlmələrə və bə’zən türki kəlmələrə qoşulub başqa bir mə’nanı andırar, məsələn: *çəkmək − zəhmət çəkmək, oturmaq − ğəmgin oturmaq, tikmək − köŋül tikmək, yıxmaq − ev yıxmaq* və hakəza. Bu qism fe’llərə “*mürəkkəb fe’l*” deyilür və təsrif dəxi ikinci kəlmədə vaqe’ olur.

FE’Lİ-ZƏMANİ

Fe’li-zəmani (necə ki, sədr babda zikr olundı) o siğədür ki, zat və zaman göstərə. Zaman üçdür: *mazi, hal, istiqbal.* [47]

Fe’li-zəmani doqquz qismdür: *maziyi-şühudi, maziyi-nəqli, hal, müstəqbəl, vücubi, təmənni, şərti, əmr, nəhy*.

Bunlar məsdərdən ədati-məsdəri atandan soŋra maddeyi-əsliyyəyə bir para ədat və zəmiriŋ qoşulmaq[ıy]la hasil olur və hər biri (mütəkəllim, müxatəb və ğayib) siğəsinə bölünməklə və habelə (müfrəd və cəm’)

e’tibariylə altı siğəyə münqəsim olur. Məgər ki, əmr və nəhy ancaq dört siğə üzərinə gəlür.

İşarə: Hər bir siğəyə mülhəq olan ədat və zəmiriŋ münfəridən zikr və bəyanına lüzum görünməyüb ancaq bəlli olmaq içün misallarında xətti-qövseyn ilə maddədən təfriq etməgə iktifa olunur.

Maziyi-şühudi o siğədür ki, ğayib siğələrində fe’liŋ vüqu’una hazır və ya hazır olan kimi xəbər verilə. Məsələn: *Həzrəti-Musa bəni-İsrailə fir’aunuŋ zülmündən nicat verdi.*

Əmsilə

Müsbət: ver(dim), ver(diŋ), ver(di);
[48] ver(dik), ver(diŋiz), ver(dilər).
Mənfi: ver(mədim), ver(mədiŋ), ver(mədi);
[48] ver(mədik), ver(mədiŋiz), ver(mədilər).

Maziyi-nəqli o siğədür ki, mütəkəllim keçmişdə vüqu’a gələn bir fe’li nəql e(y)ləyə, məsələn: *Mən bu evi böyük oğluma vermişəm.*

Əmsilə

Müsbət: ver (mişəm), ver (mişsən), ver (mişdür);
Ver (mişik), ver (mişsiŋiz), ver (mişlər).
Mənfi: ver(məmişəm), ver(məmişsən), ver(məmişdür);
ver(məmişik), ver(məmişsiŋiz), ver(məmişlər).

Qayda: ’Osmanlu lisanında maziyi-nəqlini ancaq eşitməkiylə bilinən xəbərlərdə iste’mal edirlər, məsələn:

(*Şayiə’ olan xəbərlərə görə sultan Bulğariyə valisiniŋ təklifini qəbul etmişdür*). Amma ***Azərbaycan*** (!) lisanında “*qəbul etmişdür*” ’əvəzinə ğalibən “*qəbul edübdür*” iste’mal olunur.

HAL, MÜSTƏQBƏL

Hal o siğədür ki, fe’liŋ zamani-hazırda vüqu’unı göstərə, *yazır, gedir* kimi. Hal və istiqbal ədatı maddeyi-əsliyyəyə qoşulan (*-ır/-ir*) ədatıdur. Və lakin *hal siğəsində* [49] ondan irəliki hərf kəsrə ilə və müstəqbəldə fəthə ilə oxunur və ğalibən kəsrə və fəthə bəlli olmaq içün kəsrəniŋ cinsi (ی i) və fəthəniŋ cinsi (ا ə) yazılur, məsələn: *atır* – *yaqır, atar* – *yaqar*. Və lakin maddeyi-əsliyyəniŋ axırında hərgah hüruf və ya hərəkeyi-müsavvitədən bulunsa, o surətdə (*r*)-dən müqəddəm bir (*yu*) artar, məsələn: *oquyuram, oynayuram, bəsləyürəm, e(y)ləyürəm* kimi. Və lakin hər iki surətdə fe’li-məchul siğələri və habelə mütavi’ət və müşarikət fe’llərində (-*r*)-dən irəlü *vav* [*u*] artacaqdur, məsələn: *atılur, qılur, sarınur, oxunur, oynanur, oxuşur, çalışur* kimi. Və həmçinin bə’zi mə’lum fe’llər qədimdən bəri *vav* [*u*] ilə yazıldıqından məzkur qa’idədən istisna olunur: *gəlür, qalur, olur, bulur* kimi. Lisanımızda müstəqbəl içün dəxi bir siğə vardur, hansı ki bəhəmə gəlür maddeyi-əsliyyəniŋ axırına -*əcək* və ya -*caq* gətürməklə. Və lakin maddəniŋ axırı əgər sakin isə fəthə ilə oxunub bəlli olmaq içün *hayi-rəsmiyyə* [ه] yazılur, məsələn: *yazacaq* və *danışacaq* kimi. Və əgər müsavvit hərfə və ya hərəkəyə qurtarsa (*y*) artar: *bəsləyəcək, oxuyacaq* kimi. [50]

Qeyd: ’Osmanlu lisanınca halda ’ümumən (*r*) hərfindən müqəddəm bir (*yo*) gətürilür və müstəqbəl siğəsi ancaq ikinci tərkib üzrə vaqe’ olur, məsələn: *geliyorum, gelecegim* deyilür.

Əmsileyi-hal

Müsbət: yaz(ıram) يازيرم , yaz(ırsan) يازيرسن ,
yaz(ır) يازير ; yaz(ırıq) يازيرق , yaz(ırsıŋız) يازيرسگز ,
yaz(ırlar) يازيرلر .
Mənfi: yaz(mayıram/mıram) يازميرم ,
yaz(mayırsan) يازميرسن , yaz(mayır)يازمير ;
yaz(mayırıq) يازميرق , yaz(mayırsıŋız) يازميرسگز ,
yaz(mayırlar) يازميرلر .

Eyzən:

Müsbət: oxu(yuram), oxu(yursan), oxu(yur);
oxu(yuruq), oxu(yursıŋız), oxu(yurlar).
Mənfi: oxu(mayuram), oxu(mayursan), oxu(mayur);
oxu(mayuruq), oxu(mayursıŋız), oxu(mayurlar).

Əmsileyi-müstəqbəl

Müsbət: yaz(aram) يازارم , yaz(arsan) يازارسن ,
yaz(ar) يازار ;
yaz(arıq) يازارق , yaz(arsıŋız) يازارسگز ,
yaz(arlar) يازارلر .
Mənfi: yaz(maram) يازمارم , yaz(mazsan) يازمازسن ,
yaz(ma**z**) يازماز ;
yaz(marıq) يازمارق , yaz(ma**z**sıŋız) يازمازسگز ,
yaz(ma**z**lar) يازمازلر .

[51] Dilimiziŋ xəvassından fe’li-mənfidə müxatəb və ğayib siğələrində *r* *z* hərfinə qəlb olunur.

Eyzən:

Müsbət: yaz(acaqam), yaz(acaqsan), yaz(acaq); yaz(acaqıq), yaz(acaqsıŋız), yaz(acaqlar).
Mənfi: yaz(mayacaqam), yaz(mayacaqsan), yaz(mayacaq); yaz(mayacaqıq), yaz(mayacaqsıŋız), yaz(mayacaqlar).

Eyzən:

Müsbət: oxuyacaqam, oxuyacaqsan, oxuyacaq; oxuyacaqıq, oxuyacaqsıŋız, oxuyacaqlar.
Mənfi: oxumayacağam, oxumayacaqsan, oxumayacaq;
oxumayacağıq, oxumayacaqsıŋız, oxumayacaqlar.

Fe’li-vücubi o siğədür ki, fe’liŋ lüzumını göstərə, bu da hasil olur maddeyi-əsliyyəniŋ axırına (**ملی** *malı // məli*) ədatını gətürməkiylə, məsələn: *Bu il həccə getməliyəm.* Və bə’zən zənn və təxmin məqamında dəxi iste’mal olunur, məsələn: *Belə olmalıdur.*

[52] ***Əmsilə***

Müsbət: oxumalıyam, oxumalısan, oxumalıdır, oxumalıyıq, oxumalısıŋız, oxumalıdırlar.
Mənfi: oxumamalıyam, oxumamalısan, oxumamalıdır, oxumamalıyıq, oxumamalısıŋız, oxumamalıdırlar.

Fe'li-təmənni o siğədür ki, fe'liŋ təmənna və arzu olunmaqına dəlalət edə. Bu da hasil olur [maddeyi]-əsliyyəniŋ axırına *hayi-rəsmiyyə* (ه) gətürməkiylə. Və lakin maddəniŋ axırı hərəkəli olsa bir (ی) dəxi artar (*sevə, oquya* kimi). Hər iki surətdə cəm'i-mütəkəllimdə zəmiri-nisbi 'Osmanlu ləhcəsində (لم *lim*) ləfzinə dəgişilür və bizim lisanımızda (گ *g*) hərfi artar. Təmənni siğəsinə *kaş ki* və sadə dildə *keşkə* və ya *nə ola* (müxəffəfi: *nola*) kəlməsini qoşmaqiylə mə'nası aşikar olur. Təmənnidən ğayib siğəsi təkrar oldıqı surətdə tədrici andırar, məsələn: *Oxuya-oxuya savadlu oldum*. Və (رق *-raq*) və ya (رک *-rək*) ədatları qoşuldıqda hal və vəqt bəyan eylər, məsələn: *Va'iz minbərə çıxaraq oxudı və düşərək müsafihə eylədi.* Və həmçinin *bilmək* məsdərindən müştəq(q) siğələr oŋa qoşuldıqda başarışı göstərir. Bu surətdə oŋa [53] "*fe'li-iqtidari*" deyilür: *yaza bilürəm* یازه بیلورم , *yaza bilür* یازه بیلور kimi. Bunda təsrif 'ümumən axırımcı kəlmədə vaqe' olur.

Əmsileyi-təmənni

Müsbət: (*Kaş ki*) gedəm, gedəsən, gedə,
gedək // (lim), gedəsiŋiz, gedələr.
Mənfi: getməyəm, getməyəsən, getməyə,
getməyə(*k*) // (*lim*), getməyəsiŋiz, getməyələr.

FE'Lİ-İQTİDARİ

Müsbət: yaza bilirəm یازه بیلرم ,
yaza bilirsən یازه بیلرسن , yaza bilir یازه بیلر ,
yaza bilirik یازه بیلرک , yaza bilirsiŋiz یازه بیلرسگز ,

yaza bilirlər یازه بیلرلر .
Mənfi: yaza bilm(əy)irəm یازه بیلمیرم ,
yaza bilm(əy)irsən یلزه بلمیرسن ,
yaza bilm(əy)ir یازه بلمیر,
yaza bilm(əy)irik یازه بلمیرک ,
yaza bilm(əy)irsiŋiz یازه بلمیرسگز ,
yaza bilm(əy)irlər یازه بلمیرلر .

ƏMR VƏ NƏHY

Əmr o siğədür ki, qarşudakı və ğayibdəki zatdan fe'liŋ tələbini göstərə: *yaz,* [54] *yazsun* kimi. Tələb müxatəbdən olsa "*əmri-hazır*", ğayibdən olsa "*əmri-ğayib*" deyilür. Əmri-hazır siğəsi (necə ki, mirarən zikr olundı) məsdərdən ədati-məsdəri atandan soŋra baqi qalan maddədür. Ancaq cəm'i-müxatəbi-mənfidə bir (*y*) artar: *yaz-mayıŋız* kimi.

Əmri-ğayib siğəsi hasil olur əmri-hazırıŋ axırına (سون *sun*) kəlməsini qoşmaqla, məsələn: *yazsun, oxusun* kimi.

Əmri-hazırıŋ mənfisi *nəhy* adlanub, müfrədində 'əlaməti-nəfy olan *mimiŋ* fəthəsi hayi-rəsmiyyə surətində yazılur, *yaz –yazma* یازمه kimi.

Əmsileyi-əmri-hazır

Müsbət: yaz, yazıŋız یازگز və ya (yazun) یازون;
Mənfi: yazma, yazmayıŋız یازمیگز və ya (yazmayun) یازمیون .

[*Əmsiləyi-əmri-ğayib*]

yazsun يازسون , yazsunlar يازسونلر ;
yazmasun يازمسون , yazmasunlar يازمسونلر .

Feli-şərti o siğədür ki, bir fe’liŋ oŋa mütərəttib olmaqını göstərə, məsələn: *Əgər dərsimi bilsəm, mü’əllim bəndən razı olur.* Bu da hasil olur maddeyi-əsliyyəniŋ axırına (*-sə* سه) ədatını gətürməklə. Və lakin -*sə* ədatında bulunan (*ə* ه) hərfi təsrifatıŋ [55] bə’zisində saqit olur. Və ’əlavə, mütəkəllim siğəsiniŋ cəm’ində rəf’i-qəbahət içün *sin* məzmum oxunur.

Əmsileyi-şərti

Müsbət: gəlsəm, gəlsüŋ[5] كلسُگ , gəlsə,
gəlsük كلسُک , gəlsəŋiz, gəlsələr.
Mənfi: gəlməsəm, gəlməsən, gəlməsə,
gəlməsük كلمسُک , gəlməsəŋiz, gəlməsələr.

FE’Lİ-FƏR’İ

Fər’i o siğədür ki, zaman göstərməyüb ancaq fe’liŋ bir zata müqarin olmaqına dəlalət edə. Bu da (*ismi-fa’il* və *ismi-məf’ul*) və *sifəti-müşəbbəhə* siğələridür. Bunlar məsdərdən ədati-məsdəri atandan soŋra bə’zi ədatlarıŋ

---

[5] Əslində, əmr şəklinin II şəxs təki və I şəxs cəmi *gəlsəŋ* və *gəlsək* (*gəlməsək*) kimi olmalı idi. Əlyazmadakı variantın dialekt xüsusiyyəti ola biləcəyini nəzərə alaraq, müəllifin verdiyi yazılış formasını olduğu kimi saxlamağı münasib hesab etdik.

maddəyə qoşulmaqla hasil olur. Amma axırımcı ancaq bə’zi məsadirdən gəlür, hər fe’ldən gəlməz.

İSMİ-FA’İL

İsmi-fa’il o siğədür ki, fe’liŋ bir zatla qaim olmaqını göstərə. Bu da [56] hasil olur məsdərdən ədatını atub maddeyi-baqiyəniŋ axırına məsdəri-xəfifində bir (*n*) və səqildə (*an*) və bə’zən (*yan*) və ya (*ıcı* // *ici*) ədatlarını gətürməklə, məsələn: *gələn, alan, oxuyan, yazıcı* kimi.

Əmsilə

Müsbət: oxuyan, oxuyanlar; yazıcı, yazıcılar.
Mənfi: oxumayan, oxumayanlar;
yazmayıcı, yazmayıcılar (iste’malı nadirdür).

İSMİ-FA’İLİ-’ƏRƏBİ

’Ərəb diliniŋ qanununa görə ismi-fa’il siğəsi məsdəri üç hərfli fe’ldən həmişə (*fa’il*) vəznində gəlür, məsələn: *’alim, ’adil, qadir, sadiq, raziq, xaliq* kimi. Bu kəlmələrdən hər birisini türk dilinə gətürdikdə türkcə olan ismi-fa’il siğələrindən birisi üzrə gələcəkdür, məsələn: *bilən* və ya *bilici* kimi. Və amma məsdəri beş və ya altı hərflidən ismi-fa’il siğəsini atidə zikr olan müxtəlif siğələr üzərinə gəlür: [57]

1) **مُفعِل** ***müf’il***: *mükrim, mücrim* kimi;
2) **مُنفَعِل** ***münfə’il***: *münfəsil, münzəcir, münhəsir* kimi;
3) **مُفتَعِل** ***müftə’il***: *müqtədir, müttəsil, mübtədi* kimi;
4) **مُتَفَعِل** ***mütəfə’il***: *mütəvəssil, mütəvəkkil* kimi;

5) مُفَعِل ***müfə’il***: *mükəmmil, müqəllid, müəssis* kimi;
6) مُفاعِل ***müfa’il***: *münasib, müraqib, mücavir* kimi;
7) مُتَفاعِل ***mütəfa’il***: *mütəfavit, mütəkasir, mütənasib* kimi;
8) مُستَفعِل ***müstəf’il***: *müstəxbir, müstəfsir, müstəcir* kimi;
9) مُتَفُعلِل ***mütəfə’lil*** -dür: *mütəzəlzil, mütəsəlsil* kimi.

Bu doqquz siğəniŋ əvvəlinci hərfi məzmum və axırımcı hərfdən irəlüki hərfi məksur oxunur, amma ismi-məf’ul siğəsində ancaq kəsrə ’əvəzinə fəthəli oxunmaqla fərqi zahir olur.

İSMİ-MƏF’UL

İsmi-məf’ul o siğədür ki, fe’liŋ bir zat üzərinə vaqe’ [58] olmaqını göstərə. Bu da hasil olur məsdəri-məchuldan ədatı-məsdəri atub, baqi qalan maddəyə məsdəri-xəfifdə (*ən*) və səqildə (*an*) və ya *mimiŋ* kəsrəsilə (*miş* // *mış*) ədatını gətürməklə, lakin məchul ədatı olan (***l***)-dan müqəddəm ğalibən (***i***) də artar: (*kəsilən, kəsilmiş, urılan, urılmış*) kimi.

İSMİ-MƏF’ULİ-’ƏRƏBİ

’Ərəb lisanında məsdəri üç hərfli fe’ldən ismi-məf’ul siğəsi həmişə (*məf’ul*) vəznində gəlür: *məqtul, məzlum, məhrum, mərhum, məxdum, mə’lum, məşhur* kimi. Və məsdəri beş və ya altı hərfli olandan zikr olan doqquz siğə üzərinə gəlür, axırınıŋ maqəblini məftuh oxumaq şərtiylə.

SİFƏTİ-MÜŞƏBBƏHƏ

Sifəti-müşəbbəhə o siğədür ki, vəsfiyyət göstərə, bə'zi ismi-fa'il[6] və bə'zi ismi-məf'ul yerində işlənür. Bu da hasil olur ədati- [59] məsdəri məsdərdən atandan soŋra *kin* **كين** və ya *qın* **قين** ədatlarını mülhəq etmək ilə, məsələn: *kəskin, ötkin, yorqın, düşkin* kimi. Sifəti-müşəbbəhə hər bir fe'ldən gəlməyüb, səma'id[ə] mövqufdur.

'ƏRƏBCƏ SİFƏTİ-MÜŞƏBBƏHƏ

'Ərəb lisanında sifəti-müşəbbəhə içün on vəzn vardur, amma dilimizdə çox müstə'məl olan (**فعيل** *fə'il*) vəznidür, məsələn: *şərif, zərif, kərim* kimi. Bu siğə gah ismi-fa'il və gah ismi-məf'ul məqamında iste'mal olunur, məsələn: (**قتيل** *qətil*) kəlməsindən bə'zən **قاتل** *qatil* və bə'zən مقتول *məqtul* iradə olunur.

ƏF'ALİ-NAQİSƏ

Türkcə bə'zi fe'llər vardur ki, mə'naları özləriylə tamam olmaz. Bu cəhətə onlara (*naqisə*) deyilür. Onlardan bə'ziniŋ sair mə'nası tamam fe'llər kimi [60] məsdəri olub məsdərdən doğulan fe'llərə də təhvil olunur, məsələn: *olmaq, oldı, olur, olacaq; ol, olsun* və ğeyrə. Amma mə'nası öz-özinə tamam olmayub, fər'i fe'ldən birinə və ya mütləq bir ismə qoşulmaqa ehtiyacı vardur, məsələn: (*oldı*) deyildikdə mə'ni *naqis*, (*'alim oldı*) və ya (*ğovğa oldı*) deyildikdə *tamam* olur. Və bə'zileriniŋ nə məsdəri

[6] Əlyazmada söz *qa'il* şəklində yazılmışdır

vardur və nə də mazi və şərtiyyə siğəsindən başqa sayir fe’llərə təhvil olur, ایدی ***idi,*** ایمش *imiş*, (ایسه *isə*) kimi.

Bunlardan hər biri öz-özinə bir mə’ni andırmaz və andırsa da naqis olur, məsələn: (*idim*) deyildikdə *nə idüŋ* sualı verilür, amma (*gəlür idim*) deyildikdə mə’ni məfhum və tam(m) olur. Bu cəhətə bunlar həmişə mə’nası tamam fe’llər ilə mürəkkəb olub, əvvəlimci (*hekayə*), ikinci (*rəvayə*), üçünci (*şərt*) mə’nasını andırar.

İki əvvəlimcilər, yə’ni (*idi*) və (*imiş*) şühudidən və əmr və nəhydən başqa fe’liŋ cəmi’ qismlərinə mülhəq olur. Amma axırımcı, yə’ni (*isə*) ancaq əmr siğələrinə qoşulmaz. Hər üçindən (*əlif* və *ya*) təxfif [61] içün yazıda və dildə saqit olur.

Misalları:

HEKAYƏTİ-MAZİYİ-NƏQLİ

Müfrəd: gəlmiş idim, gəlmiş idiŋ, gəlmiş idi.
Cəm’: gəlmiş idik, gəlmiş idiŋiz, gəlmiş idilər.

Müxəffəfi:

gəlmişdim, gəlmişdiŋ, gəlmişdi,
gəlmişdik, gəlmişdiŋiz, gəlmişdilər.

RƏVAYƏTİ-MAZİYİ-NƏQLİ

Müfrəd: gəlmiş imişəm, gəlmiş imişsən,
gəlmiş imiş.
Cəm’: gəlmiş imişik, gəlmiş imişsiŋiz,
gəlmiş imişlər.

HEKAYƏTİ-HAL

gəlür idim, gəlür idiŋ, gəlür idi;
gəlür idik, gəlür idiŋiz, gəlür idilər.

RƏVAYƏTİ-HAL

gəlür imişəm, gəlür imişsən, gəlür imiş;
gəlür imişik, gəlür imişsiŋiz, gəlür imişlər.

[62] HEKAYƏTİ-MÜSTƏQBƏL *(əvvəlimci qismi)*

gələr idim, gələr idiŋ, gələr idi;
gələr idik, gələr idiŋiz, gələr idilər.

[*RƏVAYƏTİ-MÜSTƏQBƏL*]

gələr imişəm, gələr imişsən, gələr imiş;
gələr imişik, gələr imişsiŋiz, gələr imişlər.

Zikr olan müstəqbəl siğəsiniŋ hekayət surəti həmişə cavabi-şərt vaqe' olur və rəvayət surəti ğalibən məqami-tə'əccidə işlənür.

HEKAYƏİ-MÜSTƏQBƏL (ikinci qism)

Müfrəd: gələcək idim, gələcək idiŋ, gələcək idi;
Cəm': gələcək idik, gələcək idiŋiz, gələcək idilər.

RƏVAYƏ [*İ-MÜSTƏQBƏL*]

gələcək imişəm, gələcək imişsən, gələcək imiş;
gələcək imişik, gələcək imişsiŋiz, gələcək imişlər.

HEKAYƏTİ-FE'Lİ-VÜCUBİ

gəlməli idim – gəlməli idik; gəlməli idiŋ – gəlməli idiŋiz;
gəlməli idi – gəlməli idilər.

[63] *RƏVAYƏTİ-FE'Lİ-VÜCUBİ*

Müfrəd: gəlməli imişəm, gəlməli imişsən, gəlməli imiş;
[*Cəm*']: gəlməli imişik, gəlməli imişsiŋiz, gəlməli imişlər.

HEKAYƏTİ-FE'Lİ-TƏMƏNNİ

gələ idim, gələ idiŋ, gələ idi;
gələ idik, gələ idiŋiz, gələ idilər.

RƏVAYƏTİ- [*FE'Lİ-TƏMƏNNİ*]

gələ imişəm, gələ imişsən, gələ imiş;
gələ imişik, gələ imişsiŋiz, gələ imişlər.

Qeyd: Fe'li-təmənniniŋ hekayət və rəvayət su[r]ətlərində hayi-rəsmiyyəni və əlifi atub, *gələydi* və *gələymiş* deyilür.

ƏF’ALİ-ŞƏRTİYYƏ

MAZİYİ-ŞÜHUDİ ŞƏRTİ

gəldim isə, gəldiŋ isə, gəldi isə;
gəldik isə, gəldiŋiz isə, gəldilər isə.

[64] ***Qeyd***: Əf’ali-şərtiyyədən maziyi-şühudi qismində zəmiri-fa’il hər bir siğədə (*isə*) -dən müqəddəm gəlür, amma maziyi-nəqli hal və müstəqbəl siğələrində (*isə***)** ləfzindən soŋra deyilür.

MAZİYİ-NƏQLİ ŞƏRTİ

gəlmiş isəm, gəlmiş isəŋ, gəlmiş isə;
gəlmiş isək, gəlmiş isəŋiz, gəlmiş isələr.

HAL ŞƏRTİ

gəlür isəm, gəlür isəŋ, gəlür isə;
gəlür isək, gəlür isəŋiz, gəlür isələr.

MÜSTƏQBƏL ŞƏRTİ (əvvəlimci qism)

gələr isəm, gələr isəŋ, gələr isə;
gələr isək, gələr isəŋiz, gələr isələr.

MÜSTƏQBƏL ŞƏRTİ (ikinci qism)

gələcək isəm, gələcək isəŋ, gələcək isə;
gələcək isək, gələcək isəŋiz, gələcək isələr.

[65]*Amma bunda hər iki kəlmənin ’ərəbi olmaqı və təzkir və tənisdə mütabiqətləri lazımdur, məsələn: *sırati-müstəqim, şəri’əti-müstəhhərə*. Amma cəm’ siğəsi ’ərəbidə müənnəs hökmində olmaqa görə, sifəti müənnəs və müfrəd gətürilür, məsələn: *əxlaqi-həmidə* və *ə’mali-mərziyyə* kimi[7].

HAL

O kəlmədür ki, müsnədün-ileyhin və ya məf’ulun heyətini bildirə, yə’ni fe’lin icrasında hər biri nə halda bulundıqı[nı] bəyan edə, məsəla: (*Fərhad çaparaq getdi*)*;* (*Mən bu kağızı ağ ikən qaraladım*). Əvvəlimci misalda *çaparaq* kəlməsi ki, haldur, müsnədün-ileyhin və ikincidə *ağ ikən* ləfzi məf’ulun halını bəyan edir. Halı bəyan olunmış kəlmə (ذی حال *zihal*) adlanur, *hal sahibi* deməkdür. **رَق (a)raq** (xəfif kəlmələrdə **رَك (ə)rək**) və (**ایکن ikən**) ədatlarından başqa, bə’zən (**ده də**) ədatı fe’li-mazidən mütəkəllim mə’əl-ğeyr siğəsinə qoşulub eyzən hal və heyət bəyan edər, məsələn: (*Mən qapuya çatdıqda o da evdən çıxdı*). Və habelə, fe’li-təmənninin ğayib siğəsi mükərrər deyildigi [66] surətdə gah tədric mə’nasını və gah müsnədün-ileyhin nə hal üzrə bulundıqını bəyan edər, məsələn: *Oxuya-oxuya ’alim oldum*. Məsələn, hal (*Fərhad çapa-çapa getdi və gülə-gülə gəldi*). *İkən* ایکن ədatından gah (*əlif* və *ya*) təxfif içün sərf olunur.

Qayda: Ədat ’ətf vasitəsilə bir zihal içün neçə hallara düşə bilür. Və lakin (*ikən*) ədatıyla tə’əddüd edən

---

[7] Bu qeydlərin üstündən, yəqin ki, başqa mövzuya (uzlaşmaya) aid olduğu üçün iki çarpaz xətt çəkilib.

halların çoxısında ədatı tərk etmək cayiz və bəlkə övladur. Məsələn: *Təhsili-'elm içün hər cür məktəblər mövcud və mühəyya (ikən) və hər qism əsbabı-tə'lim hazır və amadə (ikən) və valideyniŋ himmət və ğeyrəti dəxi məsruf ikən fərzəndiŋ bu ne'məti-'üzmadan müstəfid olmaması bişübhə ba'isi-nədamət və xüsrandur.*

TƏMYİZ

O kəlmədür ki, nisbətdən rəf'i-ibham edə. Bu da üslubi-türkidə ismiŋ axırına *cəhətilə* ləfzi və bə'zən (*cə*) ədatı lahiq olmaqla hasil olur. Məsələn: *Biz fənn və sənaye' cəhətilə çox geri qaldıq (*və ya *fənn və sənaye'cə.* Amma 'ərəbcə təmyiz kəlməniŋ axırına tənvin gəlməklə hasil olur, məsələn: *Mən* [67] *qardaşımdan sinnən böyügəm, amma o məndən 'elmən və mənsəbən artıq və böyükdür*. Təmyiz dəxi 'ətf vasitəsilə mütə'əddid ola bilür, lakin *ədati-təmyiz* əŋ axırımcıda qoşulur, məsələn: *Əhməd əxlaq və ədəbcə əŋ baş şagirddür*. Amma üslubi-'ərəbidə hər bir kəlməyə tənviniŋ daxil olmaqı lazımdur, məsələn, məzkur misalda: (*Əhməd xəlqən və ədəbən* və ilaxır) deyilür.

TƏRKİBİ-İZAFİ

Bir ismiŋ bir ismə tə'əllüq və ixtisası andıran tərkibdür. Siyaqi-türkidə əvvəlimci kəlmə (*müzafün-ileyh*), ikinci (*müzaf*) olur, məsələn: (*mü'əllimiŋ 'əsası*) tərkibində *mü'əllim* müzafdur və ədati-izafə ki, sağır nundur, 'əsanı mü'əllimə təxsis vermək içün xidmət edir. İzafəniŋ türki və farsicə mövcud olan əqsamı və keyfiyyət tərkibləri

babül-ismdə zikr olundı (səfhəyə rücu’ olına), ancaq burada, ’ərəbiyə, mövcud tərkibi-izafi zikrinə, hansı ki dilimizdə müstə’məldür, işarə olunur.

’Ərəbidə izafə eyzən iki kəlmədən mürəkkəb olur, amma siyaqi-türki [68] ’əksincə, əvvəlimci cüzi *müzaf*, ikinci *müzafün-ileyh* olur. Müzafıŋ axırımcı hərfi məzmum və müzafün-ileyh *əlif-lamlu* olmaqı dəxi şərtidür, məsələn: **دارُالمعلّمين** (*dar<u>ül</u>-mü’əllimin*), **دارُالفنون** *dar<u>ül</u>-fünun*, **شيخُ الاسلام** *şeyx<u>ül</u>-islam*, **عبدُالصّالح** *’əbdü<u>s</u>-salih*, **عبدُالسّلام** *’əbd<u>üs</u>-səlam* və ğeyrə. Türkcə və farsi izafələrində bir neçə ismiŋ bir-birinə izafəsi cayizdür, amma türkidə ikidən yuxarı izafə münasib və fəsih degildür, məsələn bu tövr: (<u>*Mü’əllimiŋ oğlunuŋ gözləriniŋ ağırısı*</u> *şiddətlüdür*). Farsidə iki və dəxi ziyadə ola bilür, məsələn: *sərdari-’əsakiri-dövləti-’aliyyeyi-rus*.’Ərəbidə birdən ziyadə izafə yoxdur, məgər ’ərəbidə olan müzaf və müzafün-ileyh farsi ’ibarələrdə bir ismiŋ üzərinə izafə olunur, məsələn: *şeyxül-islami imam*. Və ya bir ism o sifəteyn olan *müzaf müzafün-ileyh* üzərinə izafə olu[r], məsələn: *tərəfi-qərinuş-şərəfə.*

TƏRKİBİ-TE’DADİ

Bir ismiŋ kəmiyyət və miqdarını bəyan edən tərkibdür, bu da iki cüzindən mürəkkəb olur; əvvəlinci cüzə *ismi-’ədəd*, ikinciyə (*mə’dud*) deyilür.

[69] *BABÜL-MÜBHƏMAT VƏL-ƏDƏVAT*

Mübhəmat fe'lə və ismə və bil-'ümum cümlələrə qoşulmış bir para mübhəm ədatlardur ki, istifham və sualı andırar: *nə, ha, nə içün? niyə?* (müxəffəfi: *niçün?*), *neçə?* (*kim?*), *haçaq? hansı?* (*hanki? qanqı?*) kimi. (*Nə*) ədatına ğalibən *qədər, tövr, qism, növ', cür, günə* ləfzləri dəxi mülhəq olur. Əvvəlimciylə (*qədər*) kəmiyyətdən və sayirləriylə keyfiyyətdən sual olunur, məsələn: *Gündə nə qədər dərsiŋiz var*? *Səmədiŋ güzəranı nə tövr ya nə qism .... keçir*?

Başqalarından misal:

Nə 'elmdən təhsil edirsən? Nə içün bu gün dərsə gəlmədiŋ? Neçə aydır məktəbə gedirsən? Bu xətti kim yazubdur? Haçaq dərsdən fariğ olursıŋız? Yoldaşlarıŋdan hansı bu il təhsil tamam edəcəkdür? (*Kim*) və (*hansı*) ləfzi bə'zən *istifham inkarı* içün işlənür, məsələn: *hansı adam (və ya kim) bu işə razı olur?* Yə'ni heç kəs olmaz deməkdür. Və 'əlavə (*kim* ləfzinə) bir ***i*** oldıqda, *bə'z(i)* mə'nasına da gəlür, məsələn: [70] *Məktəbdə kimi oxuyur, kimi yazır, kimi məsəleyi-hesabiyyə həll edir* kimi. *Kim* ləfzi həmişə zi'əqldə iste'mal olunur, amma *hansı* ləfziylə ğeyri-zi'əqldən də sual cayizdür, məsələn: *Bu xət(t)lərdən hansı biri xoşuŋuza gəlür? Hansı sözüŋə e'tibar edim?*

ƏDƏVAT

O cürə ləfzlərdür ki, ismə və fe'lə və bə'zi kəlamlara qoşulub bir-birinə rəbt verər və özləri də yalquz iste'mal olunmayub sərf gəlməzlər.

Bu qism ədatlar türk dilində əslən çox isə də, ’ərəbi və farsi kəlmələrdən bə’zi isimlər türkidə ədat məqamında işlənməginə görə dəxi də çoxlaşubdur, necə ki, məşhur ədatlar hürufi-heca tərtibi üzrə zeyldə müradif və münasib kəlmələr ilədür:

HƏRFİ-ƏLİF **ا :**

1) ***əŋ*** **اگ** – “*ədati-təfzil*”dür;
2) ***əsla*** **اصلا ,** (m.) (***qət’ən*** **قطعاً** , ***hərgiz*** **هرکز, *heç*** // ***hiç*** **هیچ**) – “*ədati-rədd və nəfy*”dür;
3) ***əgər*** **اگر ,** (m.) ***hərgah*** **هرکاه** – “*ədati-şərt*”dür; [71]
4) ***əlbəttə*** **البتّه ,** (m.) (***bi şəkk*** **بی شکّ , *bi şübhə*** **بی شبهه**) – “*ədati-təkid*”dür;
5) ***amma*** **امّا ,** (m.) ***lakin*** **لکن** (***bu qədər var ki*** **بو قدر وار کی**) – “*ədati-istidrak*”dur; iki kəlamı bir-birindən ayırar;
6) ***ancaq*** **آنجق ,** (m.) ***yalquz*** **یالقوز** (***tənha*** **تنها , *məhz*** **محض, *fəqət*** **فقط , *tək*** **تک**) – “*ədati-həsr*”dür, məsələn: *Bu məsələni <u>ancaq</u> ..... müə’llim həll edə bilər*;
7) ***ah*** **آه** , (m.) ***uff*** **اُفّ**, türkcə ***of*** **اوف , *eyvah*** **ایواه , *ox*** **اوخ** – “*ədati-təhəssür və təəssür*”dür;
8) ***a // ə*** **أ** , (m.) ***ay*** **أی, *ey*** **أی** – “*ədati-nida*”dur;
9) ***imdi*** **ایمدی** , (m.) ***şimdi*** **شمدی, *indi*** **ایندی, *hala*** **حا لا** – “*ədati-ibtida və təfsil*”dür.

HƏRFİ-BA **با :**

10) ***bari*** **باری** , (m.) ***heç olmasa, la məcalə*** – “*ədati-təmənni*”dür, cümlələriŋ əvvəlinə gəlür: *Dərsə sə’y etməzsən (<u>bari</u>) ədəblü otur*;

11) ***bəri* بری** – “*ədati*-*istimrar*”: *Bu mü’əllim gələndən (<u>bəri</u>) dərsimiz çox yaxşı keçir*. *Bəri* ləfzi ğalibən *tərəf* mə’nasına da işlənür (*gəl bəri*);
12) ***binabərin* بنا برين ,** (m.) ***binaən ’aleyh, binaən ’alə həzə ’alə zəlikə, buŋa binaən, buŋa görə*** mə’nasına – “*ədati-təfri’* ”dür;
13) ***başqa* بشقه** , (m.) ***özgə* اوزكه *, səva//siva* سوا *, ğeyri* غيرى** – “*ədati*-*istisna*”dur, məsələn: *Allah Tə’aladan <u>başqa</u>* ..... [72] *hamu fanidür*.
14) ***belə* بيله** , (m.) ***bu nəhv, bu qism, bu tövr, bu şəkil, bu tərz*** – “*ədati*-*təşbih*”dür,
məsələn: *Belə* ...... *xəttə heç olmaz*;
15) ***bəlkə,*** türkcə ***gah* “***ədati*-*ehtimal*” və gah “*ədati*-*tərəqqi*” içün iste’mal olunur, məsələn: *Dur gedək*, *<u>bəlkə</u>* (farsicə: ***şayəd***) *Əhməd bizə rast gələ. Bu hökmdə nəinki rə’iyyətlər, bəlkə bəglər də müsavidür*.

Qayda: ***bilə*** (***belə***) **بيله** ləfzi ’Osmanlu ləhcəsində *ədati*-*tərəqqi* içün dəxi iste’ma[l] [olunur], məsələn: *Bu mədrəsədə tək ’elmi-hal degil, ’elmi-hikmət belə oxunur*.
16) ***pəh-pəh* په په ,** (m.) ***afərin* آفرين *, mərhəba* مرحبا** – “*ədati*-*mədh*”dür. *Pəh*-*pəh* ləfzi gah istehza məqamında da işlənür.

HÜRUFİ-TA **تا :**

17) (***ta* تا**), m. ***dək* دك** (***dəkin* دكين**), ***kimi* كمى** (***kibi*** // **gibi گبى**), ***cən* جن** – “*ədati-intəha*”dur. (*Ta*) ğalibən müradiflərindən birisiylə iste’mal olur: *Bu işi küçükdən <u>ta</u> böyügə dək bilür*.

18)[8] ***təxminən*** – “*ədati-təqrib*”dür, yəqinən bilinməyən əmrdə işlənür.

[73] خ [*xa*]:

20) ***xeyr*** **خير**, ’ərəbcə “*ismi-təfzil*”dür, amma türkidə ğalibən nəfy və inkar məqamında işlənür, məsələn: (*Ataŋ evdədürmi*?) sualıŋ cavabında (*Evdə yoxdur* və ya *degildür*) cümləsinə *xeyr* ləfzi dəxi münəzzəm olur və bə’zən yalquzca da cavab düşər. *Müradifi* ***yox*** **يوخ** // (***yoq*** **يوق**), (***degil*** **دكل**) və bunlarıŋ *müxalifi* (***var*** **وار**) kəlməsidür.

21) ***xüsusən***, (m.) ***’ələlxüsus, ’ələt-təxsis, siyyəma*** –
“*ədati-tərcih və təxsis*” [dür].

د [***d****al*]:

22) ***da/də*** **ده** , (m.) (***və*** **و** , ***dəxi*** **دخى** , ***həm*** **هم**) – “*ədati-iştirak*”dur, məsələn: *Mən də* منده *, sən də* سنده *bu barədə müqəssirik.* Ya (*Mən və sən ..... həm mən, həm sən ..... bir dəxi iki-üç eylər*). (də) “*ədati-zərf*” və “*ədati-istimrar*” dəxi ola bilür: (*bazarda*), (*gəlməkdədür*) kimi.

ر[***r****e*]:

23) (***raq*** **ر ق**), (***rək*** **ر ک**), m. ***ikən*** **ايكن** – “*ədati-hal*”dur, amma əvvəlimci ismi-sifətə qoşuldıqda dərəceyi-izafi bildirir: *gözəlraq, yaxşıraq* kimi.

---

[8] əlyazmada 19-cu bənd verilməyib.

[74] س [***sin***]**:**

24) ***siz/sız*** **سِز**, müradifi: (***bidun* بدون**), (***bi* بى**), (***na* نا**) – "*hərfi-nəfy*"dür, məsələn: *Əhməd (biduni-izn)* ya (*bi izn*) ya (*iznsiz*) *getdi. 'Əcəb nadandır* (*aŋlaqsızdur*).

ش [*şin*]:

25) ***şol* شول** , (m.) ***ol* اول** – "*ədati-işarə*"dür və ***şöylə ki* شويله كه** , ***öylə ki* اويله كه** – "*ədati-tə'rif və bəyan*"dur.

ص [*sad*]:

26) ***sanki* صا نكه** – "*ədati-ehtimal və təmsil*"dür.

ع ['***a****yn*]:

27) ***'əcəb***, ***'əcib***, ***'əcayib***, (m.) ***ğərib***, ***ğəribə*** – "*ədati-tə'əccüb*"dür.
28) ***'aqibət***, (m.) ***bilaxir***, (***filaxir***), ***axırda*** – "*ədati-zərf*"dür, mali-karı bildürmək məqamında işlənür.

غ [*ğayn*]:

29) ***ğayətdə***, müradifi: ***nəhayətdə***, ***intəhada*** – "*ədati-təksir və mübaliğə*"dür: *Kizb və böhtan ğayətdə ... günah və yaman sifətdür*.

[75] ق [***q****af*]:

30) ***qaç* قاچ**, müradifi: ***neçə* نيچه** , ***nə qəd(ə)r*** – kəmiyyətdən "*ədati-sual*"dur.

31) ***qarşu*** **قارشو** , (m.) ***öŋ*** **اوگ** “*ədati-zərf*”dür, yüziŋ müqabilinə deyilür.

ک [***k****af*]:

32) ***ki*** **که** “*ədatı-rəbt*”dür.

ل [***l****am*]:

33) ***lik*** **لِک** , ***lıq*** **لِق** ismi-sifətə qoşulanda “*ədati-məsdər*”, ismi-cinsə mülhəq oldıqda “*ədati-məkan*”dur: *gözəllik, ağlıq; çəmənlik, dağlıq* kimi.
34) ***lu*** **لو** , ***li*** **لی** – “*ədati-nisbət*”dür: *qüvvətli, şirvanlu* kimi.

م [***m****im*]:

35) ***məsələn***, (m.) ***fərzən*** – “*ədati-təmsil*”dür.
36) ***müxtəsər***, ***mücməla***, (m.) ***xülasə***, ***əlhasil*** – “*ədati-ixtisari-tətmim*”dür.
37) ***məgər*** **مکر** – “*ədati-istisna*”dur.

[76] **ه** [***h****ə*]:

38) ***hər*** **هَر** , (m.) (***küll*** **کلّ**) – “*ədati-tə’mim*”dür.
39) ***həman*** **همان** farsicə “*ismi-işarə*”, ’Osmanluca ***əlhal*** **الحال** mə’nasına işlənür.

ی [***y****ə*]:

40) ***ya*** **یا** , (m.) ***yainki*** **یا اینکه** , ***yaxud*** **یاخود** – “*ədati-tərdid*”dür.
41) ***yə’ni*** **یعنی** ’ərəbcə fe’ldür, məqami-təfsirdə işlənür.
42) ***yoqsa*** **یوقسه** , (m.) (***və illa***) – “*ədati-istisna və*

təhdid”dür: *Nə qədər cavansan ’elm və hünər kəsb etməgə çalış, yoqsa qocalıqda nədamətin çəkərsən.*

FƏNNİ-NƏHV

BABÜL-KƏLİMƏT VƏL-KƏLAM

Nəhv o fənnə deyilür ki, kəlamıŋ təlifindən və kəlməniŋ məhəll iste’malından bəhs edə. Kəlam kəlmələrdən tərkib tapar. Kəlmə də üç qismdür: *ism, fe’l, hərf*. [77]

(***İşarə***): Bu qismdə fe’ldən murad fe’li-zəmanidür, fe’li-əsli (yə’ni məsdər) və fər’i, yə’ni ismi-fa’il və ismi-məf’ul və sifəti-müşəbbəhə hökmindədür.

İsm odur ki, müstəqillən bir mə’nanı andıra və zamana dəlaləti olmaya: *adam, heyvan*.

Fe’l o kəlmədür ki, öz-özinə bir mə’naya və həm zamana dəlalət edə: *gəldi, gəlür, gələcək* kimi.

Hərf odur ki, başqa kəlməyə qoşulmasa bir mə’na andırmaya. Hürufi-tə’əddiyə (*t* ت *, dır* دِر *, (ı)r* ر) və ğeyr ədatlar kimi, məsələn: *oxumaq, oxutmaq, gəzmək, gəzdirmək, doğmaq, doğırmaq* və ğeyri-zəlikə.

KƏLAM // *CÜMLƏ*

Kəlam o ’ibarəyə deyilür ki, müxatəbi müntəzir qoymaya, yə’ni qarşudakı şəxs o kəlamı eşidəndə oŋa fayideyi-tammə verüb sükut edə. Bu da əqəllən iki ismdən ya bir ism və bir fe’ldən tərkib tapar. Məsələn: (*Əhməd gəldi*). (*Hava istidür*). Əvvəlimci misalda *Əhməd* fa’il, *gəldi* fe’ldür. İkincidə *hava* (mübtəda), *isti* ki, ismi-

sifətdür, (xəbər), [78] “*dür*” ədati-xəbərdür, yə’ni xəbəri mübtədaya isnad vermək içün xidmət edir. Fa’il və mübtədaya (*müsnədün-ileyh*), fe’l və xəbərə (*müsnəd*) deyilür.

KƏLAMİ-MÜTLƏQ VƏ MÜTƏQƏYYİD

Kəlamıŋ baş cüzvləri müsnəd və müsnədün-ileyhdür. Əgər bir məqsuduŋ ifadəsi məhz bunlar ilə hasil oldı, o kəlama (*mütləq*) deyilür, və illa bir para qeydləri izafə etməklə hasil olsa, oŋa *kəlami-müqəyyəd* deyilür. Məsələn: (Hava istidür) *mütləq* və (Hava istiligi gündən alur) *kəlami-müqəyyəd* olur.

Qeydlər: *sifət, hal, təmyiz, tərkibi-izafi, tərkibi-te’dadi, məf’ullar*dur, necə ki, hər biri atidə bəyan olunur.

MÜTABİQƏT

Müsnəd ilə müsnədün-ileyh arasında mütəkəllim və müxatəb siğələrində mütabiqət şərtdür, yə’ni müsnədün-ileyh əgər müfrəd və ya cəm’ olsa, müsnəd də gərək oŋa mütabiqət eyləsün. Məsələn: *Mən yazdım, sən yazdıŋ*, [79] *biz oxuyurıq, siz oxuyursıŋız, mən şa’irəm, siz katibsiŋiz.* Amma ğayib siğəsində müsnədün-ileyh cəm’ olsa da, müsnədi müfrəd gətürmək cayizdür. Məsələn: *Qonaqlar gəldi* və ya (*gəldilər*). Məgər fa’il *ğeyri-’aqil* ola, o surətdə fe’li müfrəd gətürmək vacibdür. Məsələn: *Atlar kişnəyür, qoyunlar mələyür, gözlərim ağrıyur* və ğeyrə.

Əgər müsnədün-ileyh *hərfi-’ətf* vasitəsiylə mütə’əddid olub, biri mütəkəllim və biri müxatəb və o biri ğayib siğəsində dura, müsnəd mütəkəllimə mütabiqət edüb

cəm’ gətürilür. Məsələn: *o və sən və mən şa’irik*. Və əgər biri müxatəb və o biri ğayib olsa, müsnəd müxatəbə mütabiqət edüb cəm’ gələcəkdür. Məsələn: *o və sən katibsiŋiz*. Türki kəlmələrdə *’əlaməti-tənis* olmadıqı içün müsnədün-ileyh *müənnəsi-həqiqi* olsa da, müsnəd *müzəkkər* surətində gəlür. Amma əgər hər ikisi ’ərəbi ləfzlər və müsnədün-ileyh müənnəsi-həqiqi olsa, o surətdə müsnədi müənnəs gətürmək vacibdür, məsələn: *Zeynəb(un)*[9] *salihə və ’aqilədür*. Və hərgah müənnəs ləfzi və ya səma’i olsa, müsnədi müənnəs gətürmək lazım degil. Məsələn: “*Küreyi-ərz* və ya *ərz mütəhərrikdür*” deyilür, *mütəhərrikə* [80] deyilməz. *Ərz* ’ərəb dilində müənnəsi-səma’i və *kürə* müənnəsi-ləfzidür.

İXBARİYYƏ, İNŞAİYYƏ

Hərgah bir kəlamıŋ ehtimalı sidqə və kizbə ola, oŋa (*ixbariyyə*) deyilür. Məsələn: (*Müə’llim gəldi*). Bu kəlam ola bilür ki, vaqe’yə mütabiq olsun və ya olmasun. Əgər mütabiq oldı (*sadiq*), və illa (*kazib*) olur. Və əgər ehtimal sidqə və kizbə olmayub, məhz bir şeyi tələb və ya təmənna etməgə və sual və tənbihə şamil olsa, oŋa (*inşaiyyə*) deyilür. Məsələn, tələbdən misal: (*Dərsiŋə çalış, vəqtiŋi itürmə*). Təmənnadan misal: (*Kaş mən də oxumış ola idim*). Sualdan misal: (*Nə ’elmdən təhsil edirsən*?) Tənbihə şamil kəlam o cümlədür ki, onda *hərfi-nida* və ya *ədati-qism* və ya *ədati-tə’əccüb* və *təəssür* olmış ola. Məsələn: *Ey Taŋrı, sən bilürsən qəlbimdəki dərdimi. Pərvərdigara, bu iş saŋa ’əyandur. Taŋrı haqqı, bu rəhnümalılıq saŋa*

---

[9] Ərəb dilində Zeynəb sözü morfoloji cəhətdən kişi cinsindədir .

zərərdür. Subhanə, ah, bu nə rəftardur. Ax, biçarə, nə bəlalı başıŋ var imiş.

Fayda: İnşaiyyəniŋ tələbi qismində əgər tələb iste’la üzrə [81] vaqe’ olsa, oŋa (*əmr*) deyilür, böyükdən küçügə sadir olan hökmlər kimi. Və əgər rica və niyaz üzrə vüqu’ya gəlsə (*du’a və istid’a*) deyilür, bəndəniŋ Allahu Tə’ala dərgahına olan ’ərzi-halı kimi. Və əgər müsavat vəchilə vüqu’ bulsa (*iltimas*) deyilür, yoldaşdan yoldaşa izhar olunan tələb və xahişlər kimi.

KƏLAMİ-ƏSLİ VƏ FƏR’İ

Hərgah bir fəqərədə iki kəlam bir-biriniŋ dalınca gəlüb aralarında ədati-rəbt olmaya və ya olsa da hər biri ’ümdəligini itürməyə, hər ikisinə (*kəlami-əsli*) deyilür və əgər onlardan biri əsl və ’ümdə olan kəlamı tövzih və təkmil etsə, oŋa (*kəlami-fər’i*) deyilür. Məsələn: *Yaz gəldi, çiçəklər açıldı. Yaz gəldi, hava mütə’əddid oldı* – bunlarıŋ hər ikisi *kəlamı-əsli*dür. *’Elm və ədəbsiz adam hər yerdə xar və həqir olur (zira ki) insanıŋ şərəf və e’tibarı ’elm və ədəblə müttəsif olmaqına bağludur*. Bu fəqərədə *zira ki* ləfzindən başlanan kəlam əvvəlimci kəlamı tövzih etdigi içün *kəlami-fər’i* olur.

[82] Bir-birinə mərbut kəlami-əslilər bu ədatlara müqarin olur:

1) ***və, də, həm***. Allah Tə’alaya ’ibadət etmək lazımdur *və* padişaha ita’ət. Mən yazırdım, Əhməd *də* oxuyurdı. *Həm* yazdım, *həm* müqabilə eylədim.

2) ***nə _ nə***. *Nə* işim var(dur), *nə* məcalım. Hökmdə bir-birinə müqabil olan...[10]

3) ***amma*** (***lakin***). Hər şey çox olsa qiyməti ucuz olur, *amma* ’əql artdıqca qiymətdə artar.

4) ***əgərçi,*** (***hərçənd***) ***_ amma***. *Əgərçi* ata və ana övladıŋ qanı, vücudinə səbəbdür, *amma* həmişəlik həyatına ba’is mü’əllim.

5) ***ancaq _ də***. Bu sözi *ancaq* mən demirəm, ğeyriləri *də* deyir.

6) ***nəinki _ hətta***. Çox yemək *nəinki* kəsalət gətürər, *hətta* müzir(r)dür.

7) ***ya _ ya*** . *Ya* dərsi çalış hazırla, *ya* bilmərrə dərsdən əl çək – Təqsimiyyə-tərdidiyyə...

9)[11] ***gah_ gah***. Əhməd *gah* oxuyur, *gah* yazır, *gah* şəkil çəkir.

Kəlami-fər’ini rəbt verən ədatlar bunlardur:

1) ***ki***. Bir va’iziŋ *ki*, fe’li qövlinə müvafiq olmadı, söziniŋ təsiri olmaz (burada kəlamı-fər’i sifət yerindədür və təqdiri belədür ki, fe’li qövlinə müvafiq olmayan va’iziŋ sözi təsir eyləməz). [83]

2) ***hansı ki***. Məsələn: Bosman, *hansı ki* çox girdablar görmişdi, özini bu girdabda heç itürmədi (eyzən sifət məqamındadur): (çox girdablar görmiş bosman heç özini burada itürmədi) təqdirdədür. Bu cürə kəlami-fər’ilərə *fər’iyi-vəsfi*_deyilür.

3) ***zira*** / ***çünki*** / ***bu cəhətə*** / ***ondan ötri ki*** / ***o səbəbə ki*** / ***onuŋ içün ki*** və ğeyr. Məsələn: Şükri-mün’im vacibdür, *zira* şükr və səna ne’mətiŋ artmaqına ba’is olur. Gah bu

[10] Əlyazmada cümlənin son hissəsi oxunmur.
[11] 8-ci bənd yoxdur, ya da səhvən birbaşa 9 yazılıb.

cürə kəlam başqa tərzə girüb, kəlami-fər'iniŋ axırına bu ədatlar gəlür: (*binaən*), (*görə*), (*içün*), (*səbəbə*), (*zəminə*). Məsələn: *Şükr və səna ne'mətiŋ artmaqına ba'is oldıqına görə şükri-mün'im vacibdür*. Və yainki: *Sizdən dostluq hüquqini görmədigim içün siziŋlə dostluq etməgi tərk eylədim*. Bu cürə kəlami-fər'ilərə səbəb və 'illət göstərdigi içün (*fər'iyi-səbəbi*) deyilür.

4) ***vəqtiki*** (**zamaniki**), **(*o və'də ki*)**, (***o zamanki***). Məsələn: Həzrət Nuh *vəqtiki* 'əlaməti-tufanı gördi, öz tabe'lərini gəmiyə daxil eylədi. Belə məqamda ixtisar içün kəlami-fər'idə bulunan [84] fe'l maziyi-siğeyi-'ətfiyyədə və hal tərkində qoyulub, bu nəhv deyilür: *Həzrət Nuh 'əlaməti-tufanı görüb və ya görcək və ya gördikdə tabe'lərini gəmiyə daxil eylədi*. Bu cürə fər'[i_kəlam]lara "*fər'iyi-zəmani və hali*" deyilür.

5) ***əgər*** (***hərgah***). *Əgər* bir kəs saŋa yamanlıq eyləsə, sən oŋa yaxşılıq eylə. Ədati-şərtə müqarin olan kəlam *fər'iyi-şərti* və xəbər düşən kəlam *əsli* adlanur. İkisinə mə'ən 'ərəbidə "*kəlami-şərti*" deyilür. Bir kəlam ki, (*yə'ni*) və (*belə ki*) kəlmələrindən soŋra vaqe' ola, özindən irəliki kəlama tabe' olacaqdur, məsələn: *Təbaye' müxtəlifdür, yə'ni bə'z adam həlim və bə'z tünd məzac olur*. Burada hər iki kəlam əslidür. Kəlamlardan biri də (*cümleyi-mö'tərizə*)dür ki, bir kəlamıŋ və gah iki kəlamıŋ arasında vaqe' olub təfsiri-məram içün və ya du'a və şükr məqamında iste'mal olunur, kəlamdan atılsa, əsl məqsuda xələl gəlməz. Bu cürə kəlamı beynəlqövseyn yazmaq münasibdür. Məsələn: Misir padişahları (Misirdə səltənət edənlər fir'aun ləqəbiylə məşhur idilər) bəni-İsrailiŋ haqqında çox zülm eylədilər. Bu il yoldaşlarımdan üç nəfər təhsilini tamam eylədi (inşaallah) [85] mən də gələn

sənə qurtarıram. Bəndəŋiziŋ halın sorsaŋız (şükrallah) səlamət varam.

QÜYUDİ-MÜBİN

Əczayi-kəlamı bəyan edici qeydlər *sifət, hal, təmyiz, tərkibi-izafi və te'dadi və məf'ullar*dur. Sifət o kəlmədür ki, (*hansı*), (*nə tövr*), (*necə*) sualına cavab vaqe' ola. Vəsf olunmış ismə (*mövsuf*) deyilür, məsələn: (*Əhməd sə'ylü şagirddür*). Bu kəlamda *Əhməd* müsnədün-ileyh, *sə'ylü* sifət, *şagird* [möv]sufdur. Vəsf mövsufiylə müsnəd düşübdür. Türk dilində (necə ki, sabiqən zikr olundı) sifətlə mövsuf arasında mütabiqət yoxdur, yə'ni mövsuf müənnəs olsa da, sifət müzəkkər surətində gəlür, əgərçi hər ikisi 'ərəbi ləfzlər də olsa. Məsələn: (*Bəni-İsrail qədim millətdür*) deyilür, *qədimə millətdür* deyilməz. Amma mövsuf müənnəsi-həqiqi olan surətdə mütabiqət üladur, məsələn: *salihə 'övrət, 'aqilə xatun* deyilür. Sifətləriŋ (*'adi*) və (*izafi*) və (*ə'la*) qismləri və habelə hər biriniŋ keyfiyyət tərkibi babül-ismdə məzkurdur, oraya rücu' oluna; burada ancaq hər birindən [86] bir misal gətürilür: *Yalançılıq yaman sifətdür. Səxavət şüca'ətdən yaxşıdur. İnsan əŋ gözəl məxluqdur*. (Dəxi hansı kəlmələriylə ə'la dərəcə hasil olur?).

FARSCA SİFƏT VƏ MÖVSUF

Fars lisanında sifət və mövsuf iki farsi kəlmədən, ya biri farsi, o biri 'ərəbi ləfzlərdən tərkib tapar. Əvvəlimci cüz (qa'ideyi-türki 'əksincə) *mövsuf* və ikinci *sifət* düşər. Mövsufuŋ axırına gah kəsrə (izafə surəti kimi) və bə'z

maddədə həmzə və bə’zən (i ی) artacaqdur, məsələn: (*afitabi-’aləmi-tab*), (*bəndeyi-həqir*), (*qaziyi-dadgər*), (*qəbayi-kühən*), (*’əmuyi-mehriban*). Babül-ismdə səfhəyə rücu’ oluna. (*Məzkur ’ələmət və hürufuŋ hansı ləfzlərə gətürməligindən və ləfziŋ ədasından mü’əllim gərəkdür sual versün*). Siyaqi-türki üzrə farsi dilində də sifət ilə mövsuf arasında mütabiqət yoxdur, məsələn: *xaneyi-’ali* deyilür, *’aliyə* deyilməz. Tərkibi-farsi kimi, ’ərəbi tərkiblərdə də mövsuf sifətindən müqəddəm gətürilür. [87] Məsələn: *Gecə və gündüz də altı sa’ət işləyürəm*. Mə’dud, necə ki sabiqən zikr olundı, həmişə müfrəd gəlür; xah türki və xah farsi və xah ’ərəbi ola. Məsələn: *üç quşlar, dört mədaris* (’ərəbidə mədrəsəniŋ cəm’idür), *on şagirdan* (farsidə şagirdiŋ cəm’idür) deyilməz. Məgər ’ədəd mə’dud içün sifət düşdigi surətdə ’ərəbi kəlmələrdə təzkir və tənisdə mütabiqət şərtdür. Məsələn: *məqami-sani, hücreyi-salisə* deyilür.

MƏF’ULLAR

Məf’ul əslən iki qismdür: birinə (*məf’ulun-bihi sərih*) və o birinə (*məf’ulun-bihi ğeyri-sərih*) deyilür. Əvvəlimci o kəlmədür ki (*kimi*) və ya (*nəyi*) sualınıŋ cavabında vaqe’ ola. Ləfzən ’ələməti, necə ki əhvali-ismdə bəyan olundı, kəlməniŋ axırında (ی i) və gah (نی ni)-dür. Məsələn: *Əhmədi gördüm, Kitabı oxudum*, (*Bu sətrdə bir kəlməni ğələt yazdım*). (Hansı kəlmədə (*i*) və nə cürə kəlmələrdə (*ni*) gətürilür? səfhəyə rücu’ olına). [88]

Məf’ulun-bihi ğeyri-sərih məf’ulun-ileyh / mə’əh / fih / minh-dür. (*Məf’ulun-ileyh*) o kəlmədür ki, *kimə* və ya *nəyə* (نه يه // نيه) sualınıŋ cavabında vaqe’ ola. Ləfzən

’əlaməti kəlmənin axırında *hayi-rəsmiyyə* (ه ه) və bə’z kəlmədə *sağır nunla əlif* olmaqdur. Məsələn: (*Mü’əllim bu gün Əhmədə tənbih eylədi*): (*dərsə vəqt eylə*), (*Maŋa* ايندن *indən bağa getmək nə münasibdür?*). (*Sağır nunla əlif* hansı kəlməyə lahiq olur?) Səfhə[yə rücu’ olına].

MƏF’ULUN-MƏ’ƏH

O kəlmədür ki, *kimi ilə* və ya (*nə ilə*) sualınıŋ cavabında vaqe’ ola. Ləfzən ’əlaməti kəlməniŋ axırına (*ilə*) ədatı qoşulmaqdur: (*’Aqil ilə daş daşı, cahil ilə bal yemə*), (*Mənim bu kitabçanıŋ təlifində mayəm az isə də* (بحمداه *bihəmdah*)[12] sə’y və ğeyrət ilə əncama yetürdim.

Fayda: (***ilə***) ədatından bə’zən *əlif* və *ya* ikisi mə’ən həzf olunur, amma tək əlifiŋ həzfi cayiz degildür, zira ki, müzaflara [89] iltibas yetürər. Məsələn: *kağız ilə, qələm ilə* ’əvəzinə *kağızla, qələmlə* deyilür, *kağıziylə, qələmiylə* deyilüb-yazılmaz. Məgər kəlmə müsavviṯ hərflərə qurtaran surətdə yalquz əlifi atmaq da cayizdür, məsələn: *’əsayla, orduyla*, *arabayla*. Amma axırı *yayi-müsavvitə*yə qurtaran kəlmədə iki *ya* bir yerdə cəm’ olmaq səqil oldıqı içün genə də tək əlifi atmaq cayiz degildür. Məsələn: قاضی ایله *qazi ilə* bədəlinə قاضی یله *qazilə* deyilməz, قاضیله *qaziylə* deyilüb-yazılur.

MƏF’ULUN-FİH

O kəlmədür ki, (*kimdə, nədə, harada, nə vəqt*) sualınıŋ cavabında vaqe’ ola. Ləfzən ’əlaməti ğalibən

---

[12] Güman ki, "Allaha həmd olsun!" mənasına gələn "bihəmdilillah"ın qısaldılmış şəklidir.

kəlmənin axırında (*da/də* ده) ədatıdur. Amma füsuli-ərbə’əni göstərən kəlmələrdə (*də*) ədatı müqəddər olur, məsələn: *Sənin pıçaqın məndədür*. *Sə’ydə Əhmədə tay bir şagird yoxdur*. *Bağçada güllər çox yaxşı açılubdur*. *Axşam Tiflisdən qayıtdım. Bu yaz (da) sizə gələcəgəm*. Bə’z ’ərəbi kəlmələrin axırına tənvin artub məf’ulun-fih yerində [90] işlənür: *zahirən, batinən, vaqe’ən, həqiqətən* kimi, *zahirdə, batində, vaqe’də, həqiqətdə* deməkdür.

MƏF’ULUN-’ANH // MİNH

O kəlmədür ki, *kimdən, nədən, haradan* sualının cavabında vaqe’ ola. Ləfzən ’əlaməti kəlmənin axırına (*dən*) ədatı qoşulmaqdur. Məsələn: *Səndən kömək umuram. Bu yüzük qızıldan qayrılubdur. Məktəbdən sa’ət ikidə azad oluruq*. Bə’zən ’ərəbi kəlmələrin əvvəlinə (*’an*) və ya (*min*) gəlüb türkcə məf’ulun-minh yerində iste’mal olunur, məsələn: *Məktubunızın vüsulində ’an səmimil-qəlb məsrur olub, minəl-əvvəli iləl-axir mütali’əsindən* [*ləzzət*] *apardım*.

Vəssalam, yanvar ayının [...] *bəndeyi-kəmtərin in çakəri-canfəşan dər məqami-tə’cil beetmam rəsanideəm, səm’ Əfşar, müqimi-vilayəti-Urum(s)ə və xələfi Mirzə Məhəmməd əsli-Əfşar əst, iltimasi-du’a darəm.*

DİLÇİLİK TERMİNLƏRİNİN İZAHLI LÜĞƏTİ

A

Ahad ə. آ حا د – təkliklər.

B

Bab ə. **با ب** – 1**.** əsərin fəsli // bölməsi; 2. mövzu, məsələ, bəhs.
Babül-fe'l ə. **با ب الفعل** – feil bəhsi.
Babül-hərf ə. **با ب الحرف** – hərf bəhsi // fonetika.
Babül-ism ə. **با ب الاسم** – isim bəhsi.
Babül-kəlimət vəl-kəlam ə. **با ب الكلمة و الكلام** – cümlə və cümləni təşkil edən sözlər bəhsi; sintaksis.
Babül-mübhəmat vəl-ədəvat ə. **با ب المبهما ت و الادوات** – köməkçi nitq hissələri bəhsi.
Beynəl-qövseyn ə. **بين القوسين** – "iki yay arası" // mötərizə.

C

Cəm' ə. **جمع** – qram.: təkdən (ərəb dilində həm də təsniyədən) yuxarı kəmiyyət.
Cəm'i-mütəkəllim ə. **جمع متكلّم** – I şəxs cəm əvəzliyi // *biz* // *bizlər*.
Cəm'i-ğayib ə. **جمع غا يب** – III şəxs cəm əvəzliyi // *olar* // *onlar*.
Cəzm ə. **جزم** – kəsmə, qət etmə; ərəb qram.: sükun və hərəkəsizlik işarəsi.

Cümleyi-mö'tərizə ə. **جملۀ معترضه** – aydınlaşdırıcı cümlə və ya ara söz; "*Bir kəlamıŋ və gah iki kəlamıŋ arasında vaqe' olub, təfsiri-məram içün və ya du'a və şükr məqamında iste'mal olunur; kəlamdan atılsa, əsl məqsuda xələl gəlməz, bu cürə kəlamı* beynəl-qövseyn *yazmaq münasibdür, məsələn: Misir padşahları (*Misirdə səltənət edənlər fir'aun ləqəbilə məşhur idilər*) Bəni-İsrailiŋ haqqında çox zülm eylədilər. Bu il yoldaşlarımdan üç nəfər təhsilini tamam eylədi (*inşaallah*) mən də gələn sənə qurtarıram*".

Cüz ə. **جزء** c. ***əcza*** **اجزاء** – 1.cüzv, hissə; 2.söz birləşməsinin tərəfləri; 3.cümlənin hər bir üzvü; "*kəlamıŋ baş* cüz*ləri müsnəd və müsnədün-ileyhdür*"; *əczayi-kəlam* – cümlə üzvləri.

Ç

Çalma t. **چالمه** – sükun, cəzm: "*qət' və aram*" mə'nasına bu nişanə...

D

Dərəceyi-'adi ə. **درجۀ عادى** – sifətin adi dərəcəsi; məs.: "*Yalançılıq* yaman *sifətdür*".

Dərəceyi-ə'la ə. **درجۀ اعلى** – sifətin qüvvətləndirmə dərəcəsi; məs.: "*İnsan* əŋ gözəl *məxluqdur*".

Dərəceyi-izafi ə. **درجۀ اضافى** – sifətin çoxaltma dərəcəsi: "*Səxavət şüca'ət*dən yaxşıdur".

Ə

Ədat ə. **ادات** c. ***ədəvat*** **ادوات** – 1. hissəcik; sözdüzəldici şəkilçi; 2. Köməkçi nitq hissələri (ədat, qoşma, bağlayıcı, modal sözlər, nida).
Ədati-ehtimal və ya tərəqqi ə. **ادا ت احتما ل // ادات ترقّى** – ehtimal və riqqətləndirmə ədatı: *bəlkə; belə* (*hətta*).
Ədati-ehtimal və təmsil ə. **ادا ت احتما ل و تمثيل** – ehtimal və nümunə ədatı: *sanki*
Ədati-ibtida və təfsil ə. **ادات ابتدا و تفصيل** – başlanğıc və anlatma ədatı: *imdi, şimdi, indi, hala*.
Ədati-ixtisari-tətmim ə. **ادا ت اختصار تتميم** – yekunlaşdırma ədatı: *müxtəsər, mücməla // mücmələn, xülasə, əl-hasil*.
Ədati-inkar və nəfy ə. **ادا ت انكا ر و نفى** – inkar ədatı: *xeyr, yox // yoq, degi*.
Ədati-intəha ə. **ادا ت انتها** – bitirmə ədatı: *ta, -dək, dəkin, kimi, kibi /gibi, cən.*
Ədati-istidrak ə. **ادات استد راک** – aydınlaşdırma ədatı: *amma, lakin, bu qədər var ki.*
Ədati-istimrar ə. **ادات استمرا ر** – sürəklilik, ardıcıllıq ədatı: *bəri; -maqda // -məkdə.*
Ədati-istisna ə. **ادات استثنأ** – istisna // ayırma, fərqləndirmə ədatı: a) *başqa, özgə, səva / siva, ğeyri;* b) *məgər.*
Ədati-istisna və təhdid ə. **ادا ت ا ستثنا و تهد يد** – istisna və təhdid ədatı: *yoqsa, və illa.*
Ədati-işarə ə. **ادا ت اشا ره** – işarə hissəciyi: *şol, ol.*
Ədati-iştirak ə. **ادا ت اشتراک** – iştirak ədatı: *da .. də, və, dəxi, həm.*
Ədati-izafə ə. **ادا ت اضافه** – yiyəlik hal şəkilçisi:-ıŋ^4;-nıŋ^4.
Ədati-hal ə. **ادا ت حا ل** – tərzi-hərəkət bildirən hissəcik:

-raq // -rək, ikən.
Ədati-həsr ə. **ادا ت حصر** – məhdudlaşdırıcı ədat: *ancaq, yalquz, tənha, məhz, fəqət, tək.*
Ədati-xəbər ə. **ادات خبر** – xəbərlik şəkilçisi: *-dır*[4].
Ədati-mədh ə. **ادات مدح** – mədh // öymə ədatı; nida: *pəh-pəh, afərin, mərhəba.*
Ədati-məkan ə. **ادا ت مكان** – məkan anlayışlı isim düzəldən şəkilçi: -lıq,-lik (ismi-cinsə qoşulduqda: *çəmənlik, dağlıq* kimi).
Ədati-məsdər ə. **ادا ت مصدر** – məsdər şəkilçisi: 1. -maq, -mək; 2. -lıq, -lik (ismi-sifətə qoşulduqda: *gözəllik, ağlıq* kimi).
Ədati-nida ə. **ادات ندا** – çağırış, səsləniş ədatı; nida: *a / ə, ey, ay.*
Ədati-nisbət ə. **ادا ت نسبت** – nisbət şəkilçisi: -li, -lu (qüvvətli, şirvanlu).
Ədati-rəbt ə. **ادا ت ربط** – bağlayıcı: *ki.*
Ədati-rədd və nəfy ə. **ادات ر دّ و نفى** – rədd və inkar ədatı: *əsla, qət'ən, hərgiz, heç / hiç.*
Ədati-sual ə. **ادات سوا ل** – (kəmiyyətə görə) sual ədatı; sual əvəzliyi: *qaç, neçə, nə qədər.*
Ədati-şərt ə. **ادات شر ط** – şərt ədatı: *əgər, hərgah.*
Ədati-tə'əddiyə ə. **ادا ت تعد يه** – təsirlilik şəkilçisi.
Ədati-tə'əccüb ə. **ادا ت تعجّب** – təəccüb ədatı: *'əcəb, 'əcib, 'əcayib, ğərib, ğəribə.*
Ədati-təfri' ə. **ادات تفر يع** – aydınlaşdırma, əsaslandırma ədatı: *binabərin, binaən 'aleyh, binaən 'alə həzə // 'alə zəlikə, buna binaən, buna görə.*
Ədati-təfzil ə. **ادات تفضيل** – üstünlük (qüvvətləndirmə) ədatı: *əŋ.*

Ədati-təhəssür və təəssür ə. **ادات تحسّر و تاَ ثّر** – hiss-həyəcan ədatı; nida: *ah, uff, of, eyvah, ox.*
Ədati-təkid ə. **ادا ت تأ كيد** – təkid // israr ədatı: *əlbəttə, bişəkk, bişübhə.*
Ədati-təksir və mübaliğə ə. **ادا ت تكثير و مبا لغه** – çoxaltma və şişirtmə ədatı: *ğayətdə, nəhayətdə, intəhada.*
Ədati-təqrib ə. **ادا ت تقريب** – təqribilik bildirən ədat: *təxminən.*
Ədati-təmənni ə. **ادا ت تمنّى** – arzu ədatı: *bari, heç olmasa, la məcalə.*
Ədati-tə'mim ə. **ادا ت تعميم** – ümumiləşdirmə ədatı: *hər, küll.*
Ədati-təmsil ə. **ادات تمثيل** – təmsil // nümunə ədatı: *məsələn, fərzən.*
Ədati-təmyiz ə. **ادات تمييز** – ayırma ədatı: -*ca*,-*cə* şəkilçisi.
Ədati-tərcih və təxsis ə. **ادا ت ترجيح و تخصيص** – seçmə və xüsusiləşdirmə ədatı: *xüsusən, 'aləlxüsus, 'aləttəxsis, siyyəma* (*xüsusilə, 'ələlxüsus*).
Ədati-tə'rif və bəyan ə. **ادات تعر يف و بيا ن** – bildirmə və anlatma ədatı: *şöylə ki, öylə ki.*
Ədati-tərdid ə. **ادا ت ترد يد** – rədd etmə ədatı: *ya*, *yainki, yaxud.*
Ədati-təşbih ə. **ادا ت تشبيه** – bənzətmə ədatı: *belə, bu nəhv, bu qism, bu tövr, bu şəkil, bu tərz*.
Ədati-vəsfi ə. **ادا ت وصفى** – vəsf ədatı: həmzə işarəsi.
Ədati-zərf ə. **ادا ت ضرف** – zərf ədatı; zaman, tərəf, yer bildirən sözlər və şəkilçilər: 1. zaman zərfi: *'aqibət, bil-axir, fil-axir, axırda*; 2. tərəf göstərən zərf: *qarşu, ön*;
3. yer zərfi düzəldən şəkilçi //-da^2 (yerlik halda olan isim, məs., bazarda).

Ədəvat ə. **ادوات** – ədatlar; ümumiyyətlə, köməkçi (qeyri-müstəqil) nitq hissələri (bu ad altında qeyri-müstəqil sözlər, şəkilçilər və sual əvəzlikləri ümumiləşdirilərək bunların əlifba sırası ilə 42 növü göstərilir): "*O cürə ləfzlərdür ki, ismə və fe'lə və bə'zi kəlamlara qoşulub, bir-birinə rəbt verər və özləri də yalquz iste'mal olınmayub sərfə gəlməzlər*".

Əf'ali-naqisə ə. **افعال ناقصه** – naqis feillər. Bu ad altında olmaq, eyləmək, etmək köməkçi feilləri və **ایدی** ***idi,*** **ایمش** ***imiş,*** **ایسه** ***isə*** hissəcikləri nəzərdə tutulur: "*Türkcə bə'z fe'llər vardır ki, mə'naları özlərilə tamam olmaz, bu cəhətə onlara "naqisə" deyilür ... bunlar həmişə mə'nası tamam fe'llər ilə mürəkkəb olub, əvvəlimci (hekayə), ikinci (rəvayə), üçinci (şərt) mə'nasını andırar*".

Əf'ali-şərtiyyə ə. **افعا ل شرطيّه** – şərt feilləri; feil şəkillərinin şərti.

Əhval ə. **احوال** – hallar: *əhvali-ism* – ismin halları;

'Əlaməti-nəfy ə. **علا مت نفی** - inkarlıq əlaməti / şəkilçisi: *-ma / -mə).*

'Əlaməti-tənis ə. **علامت تأ نيث** – qadın cinsini göstərən şəkilçi: (**ت**), (**ة**), (**ه**).

'Ələm ə. **علم** – xüsusi isim (antroponim): "*Bir ism mü'əyyən şəxsə dəlalət etsə, oŋa 'ələm deyilür, məsələn: 'Əli, Həsən, Hüseyn kimi*".

Əlif ə. **اليف** – ərəb əlifbasında ilk hərfin adı: ا.

Əlif-lam ə. **اليف لام** – ərəb dilində müəyyənlik göstəricisi, artikl: "**ال** [*əl*] *məhz 'ərəb dilinə müxtəssdür*".

Əmr ə. **امر** – feilin əmr şəkli: "*Əmr o siğədür ki, qarşudakı və ğayibdəki zatdan fe'liŋ tələbini göstərə: yaz, yazsun kimi. Tələb müxatəbdən olsa "əmri-hazır", ğayibdən olsa "əmri-ğayib" deyilür*".

Əmri-ğayib ə. **امر غايب** – feilin əmr şəklinin III şəxs təki və cəmi: “*yazsun, yazsunlar*”.
Əmri-hazır ə. **امر حاضر** – feilin əmr şəklinin II şəxs təki və cəmi: “*yaz, yazıŋız və ya (yazun)*”.
Əsli ə. **اصلى** – miqdar sayı, natural ədədlər (təkliklər, onluqlar, yüzlüklər, minliklər ...).
’Əşərat ə. **عشرات** – onluqlar.

F

Fa’il ə. **فاعل** – 1. iş görən // subyekt; qrammatik mənada: feili sifət. Mübtəda vəzifəsində çıxış edərkən şəxsi bildirir.
Fe’l ə. **فعل** c. ***əf’al* افعا ل** – 1. iş, hərəkət, əməl; 2. hal və hərəkət bildirən nitq hissəsi; feil; “*O kəlmədür ki, öz özinə bir mə’naya və həm, zamana dəlalət edə*: *gəldi, gəlür, gələcək kimi*”; 3. Sintaktik cəhətdən *müsnəd*.
Fe’li-’amm(ə) (//*’amm(ə)* ə. **فعل عا مّ // فعل عا مّـه** – ümumi feil: “*Mə’nasında ’ümumiyyət olmaqa görə ... etmək, e(y)ləmək, qılmaq, olmaq kimi*”.
Fe’li-əsli ə. **فعل اسلى** – şəxs və zaman göstərməyib, digər feillər üçün mənbə olan feil (məsdər): “*Fe’li-əsli məsdər adlanur*”
Fe’li-fər’i ə. **فعل فرعى** – ikinci dərəcəli feil, zaman göstərməyib, ancaq şəxs bildirən feil; feili-sifət: gedən, gedici və s.: “*Fər’i o siğədür ki, zaman göstərməyüb ancaq fe’liŋ bir zata müqarin olmaqına dəlalət edə. Bu da ismi-fa’il və ismi-məf’ul və sifəti-müşəbbəhə siğələridür*”.
Fe’li-iqtidari ə. **فعل اقتدا رى** – feilin bacarıq şəkli;
“*... **bilmək** məsdərindən müştəqq siğələr oŋa* (arzu şəklinə) *qoşuldıqda başarışı göstərir. Bu surətdə oŋa “fe’li-iqtidari” deyilür, yaza bilürəm, yaza bilür kimi*”.

Fe'li-xass (// *xass(ə)*) ə. **فعل خاصّ // فعل خاصه** – xüsusi feil: "*xüsus bir mə'naya dəlaləti içün, oxumaq, gəzmək kimi*".

Fe'li-lazım ə. **لازم** – təsirsiz feil; "*o fe'ldür ki, əsəri başqasına keçməyə və ancaq fa'il içün bir hal ola, gülmək, uzanmaq kimi*".

Fe'li-məchul ə. **فعل مجهول** = "***məsdəri-məchul***" – feilin məchul növü: "*o siğədür ki, məf'ulə isnad verilə*".

Fe'li-mə'lum ə. **فعل معلوم** – feilin məlum növü: "*o siğədür ki, fa'ilə isnad verilə, kəsmək, yazmaq kimi ki, yazan və kəsən adama nisbət verilür*".

Fe'li-mənfi ə. **فعل منفى** – feilin inkar forması: "*odur ki, fe'liŋ vücuda gəlməməgini bildirə, yazmamaq, gəlməmək kimi*".

Fe'li-mütə'əddi ə. **فعل متعدّى** – təsirli feil: "*o fe'ldür ki, əsəri başqasına təcavüz edə və kimi və ya nəyi kəlməsilə ondan sual səhih ola, kəsmək və dutmaq kimi*".

Fe'li-şərti ə. فعل شر طى – feilin şərt şəkli: "*o siğədür ki, bir fe'liŋ oŋa mütərəttib olmaqını göstərə, məsələn: əgər dərsimi bilsəm, mü'əllim bəndən razı olur. Bu da hasil olur maddeyi-əsliyyəniŋ axırına (sə سه) ədatını gətürməklə*".

Fe'li-təmənni ə. **فعل تمنّى** – feilin arzu şəkli: "*o siğədür ki, fe'liŋ təmənna və arzu olunmaqına dəlalət edə, bu da hasil olur maddeyi-əsliyyəniŋ axrına "hayi-rəsmiyyə" (ه) [-a,-ə] gətürməkilə*".

Fe'li-vücubi ə. **فعل وجو بى** – feilin vacib şəkli: "*o siğədür ki, fe'liŋ lüzumını göstərə, bu da hasil olur maddeyi-əsliyyəniŋ axrına (malı / məli ملى) ədatını gətürməkilə*".

Fe'li-zəmani ə. **فعل زمانى** – feilin zamanları və şəkilləri birlikdə şəxs və zaman göstərən feillər; məs.: getdi,

gedəcək və s.: “*Fe’li-zəmani doqquz qismdür*: *maziyi-şühudi, maziyi-nəqli, hali, müstəqbəl, vücubi, təmənni, şərti, əmr, nəhy*”.
Fənni-nəhv ə. **فنّ نحو** – sintaksis elmi: “*Nəhv o fənnə deyilür ki, kəlamıŋ təlifindən və kəlməniŋ məhəll iste’malından bəhs edə*”.
Fənni-sərf ə. **فنّ صرف** – morfologiya elmi.
Fər’i ə. **فرعى** – Hərfi mənada: şaxələnən, budaq(lanan); burada: əsas olmayan, ikinci dərəcəli (feil).
Fər’iyi-səbəbi ə. **فرعى سببى** – səbəb budaq cümləsi (əsərdə feili tərkiblər də budaq cümlə kimi izah edilir): “*Sizdən dostluq hüquqını görmədigim içün siziŋlə dostluq etməgi tərk eylədim*. *Bu cürə kəlami-fər’ilərə səbəb və ’illət göstərdigi içün (fər’iyi-səbəbi) deyilür*”.
Fər’iyi-şərti ə. **فرعى شرطى** – şərt budaq cümləsi: “*ədati-şərtə müqarin olan kəlam*”: “*Əgər bir kəs saŋa yamanlıq e(y)ləsə, sən oŋa yaxşılıq e(y)lə*”.
Fər’iyi-vəsfi ə. **فرعى وصفى** – təyin budaq cümləsi: “*Bosman, hansı ki çox girdablar görmişdi, özini bu girdabda heç itürmədi*”.
Fər’iyi-zəmani və hali ə. **فرعى زمانى و حالى** – zaman və tərzi-hərəkət budaq cümlələri: “*Həzrət Nuh vəqtiki ’əlaməti-tufanı gördi, öz tabe’lərini gəmiyə daxil eylədi*”.
Fəthə ə. **فتحه** – ərəb əlifbasında qısa [ə] səsini göstərən diakritik işarə.

H

Hayi-rəsmiyyə ə. **های رسميّه** – söz sonunda [ə] səsini göstərən **ه** (hey) hərfi.

Hal ə. **حا ل** – **1.** indiki zaman: “*o siğədür ki, fe’liŋ zamani-hazırda vüqu’unı göstərə, yazır, gedir kimi*”; 2. ismin hal kateqoriyası; 3. feili-bağlama.

Hal şərti ə. **حا ل شرطی** – indiki zamanın şərti: *gəlür isəm, gəlür isəŋ, gəlür isə; gəlür isək, gəlür isəŋiz, gəlür isələr*.

Heca ə. **هجا ء** – heca.

Hekayeyi-hal ə. **حكايۀ حا ل** – indiki zamanın hekayəsi, məs.: *gəlür idim, gəlür idiŋ, gəlür idi; gəlür idik, gəlür idiŋiz, gəlür idilər*.

Hekayeyi-müstəqbəl ə. **حكايۀ مستقبل** – qəti gələcək zamanın hekayəsi, məs.: *gələcək idim, gələcək idiŋ, gələcək idi, gələcək idik, gələcək idiŋiz, gələcək idilər*.

Hekayəti-fe’li-təmənni ə. **حكايت فعل تمنّی** – feilin arzu şəklinin hekayəti, məs.: *gələ idim, gələ idiŋ, gələ idi; gələ idik, gələ idiŋiz, gələ idilər*.

Hekayəti-fe’li-vücubi ə. **حكايت فعل وجو بی** – feilin vacib şəklinin hekayəti, məs.: *gəlməli idim – gəlməli idik; gəlməli idiŋ – gəlməli idiŋiz; gəlməli idi – gəlməli idilər*.

Hekayəti-maziyi-nəqli ə. **حكايت ماضی نقلی** – nəqli keçmişin hekayəti, məs.: *gəlmiş idim (gəlmişdim), gəlmiş idik (gəlmişdik)* və s.

Hekayəti-müstəqbəl ə. **حكايت مستقبل** – qeyri-qəti gələcək zamanın hekayəti, məs.: *gələr idim, gələr idiŋ, gələr idi; gələr idik, gələr idiŋiz, gələr idilər.*

Həmzə ə. **همزه** – ərəb dilində yarısamit, yarısait səciyyəli hərf (ء): “bu nişanə ’ərəb lüğətində بعينه الف “*bi’eynihi əlif*” adlanur”.

Həmzeyi-məftuhə ə. **همزۀِ مفتوحه** – fəthəli həmzə (ءَ).
Hərəkə ə. **حركه** – ərəb əlifbasında qısa saitləri bildirən hərflər olmadığından yazıda belə saitləri ifadə etmək üçün samitlərin üstündə və ya altında qoyulan xüsusi işarə.
Hərəkeyi-müsavvitə ə. **حركۀ مصوّته** – ərəb əlifbasında sait səsləri bildirən hərəkələr; f.zir // ə. kəsrə, f. zəbər // ə. fəthə, f. puş // ə. zəmmə.
Hərf ə. **حرف** c. ***hüruf*** **حر و ف** – 1. səsin yazıda ifadə edilən şəkli; hərf: *hərfi-əlif* – "əlif" hərfi, *hərfi-ba* – "be" hərfi;
2. şəkilçi, hissəcik: "*... odur ki, başqa kəlməyə qoşulmasa, bir mə'na andırmaya, hərfi-tə'əddiyə (t ت , dır دِر , (ı)r ر) və ğeyr ədatlar kimi*"; 3. münada (çağırış) halın əlaməti: *hərfi-nida* (*ay! ey! ya!* və s.); 4. kəlmə, söz.
Hərfi-'ətf ə. **حرف عطف** – bağlayıcı.
Hərfi-nəfy ə. **حرف نفى** – inkar şəkilçisi (sifət düzəldən): -siz // -sız, bi-, na-.
Hərfi-tə'əddiyə ə. **حرف تعدّ يه** – feilin təsirlik kateqoriyasının şəkilçisi (t ت , dır دِر , (ı)r ر).
Həzf ə. **حذف** – səs düşümü, eliziya.
Hürufi-heca ə. **حر و ف هجا ء** – ərəb əlifbasındakı hərflər: "*'Ərəb əlifbasınıŋ surəti-əsliyyəsi və şəkilləri 17-dür. Bu tövr:* ا ب ح د ر س ص ط ع ف ك ل م ن ه و ى *və lakin bə'zi şəkilləriŋ altına və ya üstünə bir və iki və ya üç nöqtə qoymaq ilə təmam igirmi səkkiz şəkil hasil olur, hansılara ki, hürufi-heca deyilür*".
Hürufi-həlq ə. **حر و ف حلق** – boğaz hərfləri: "*Boğazdan gələn hərflər altıdur; ikisi hai və həmzədür, bu tövr (ه ء), boğazıŋ əŋ axrından gəlür və ikisi də (ح ع)-dur, boğazıŋ vəsətindən xaric olur və ikisi dəxi (خ غ)-dur, boğazıŋ əvvəlindən gəlür. Bu altı hərfə hürufi-həlq deyilür*".

Hürufi-imla ә. حر و ف املاءِ – uzun saitlәri әks etdirәn hәrflәr (ا و ى ه).

Hürufi-qәmәriyyә ә. حر و ف قمريّه – qәmәriyyә hәrflәri; әrәb dilindә "әl" müәyyәnlik artiklindәn sonra gәldikdә artiklin dәyişilmәdәn olduğu kimi oxunmasına imkan verәn hәrflәr (ا ب ج ح خ ع غ ف ق ک ل م و ه ى)

Hürufi-lisani ә. حر و ف لسانى – dil hәrflәri: "*Dildәn törәnәn hәrflәr 18-dür; beşi* (ص ض ظ س ر) *-dur ki, diliŋ yan dişlәrә vırılmaqından vә bә'zi sünayi dişlәrdәn hasil olur vә on biri* (ط ت ش ج ى د ل ن ر ق ک) *vәsәti-lisanıŋ üst çәnәyә yapışmaqından 'әmәlә gәlür vә ikisi dәxi* (ذ ث) *diliŋ ucı qabaq dişlәrә e'timad etmәgindәn sәhmә gәlür, Bunlara 'ümumәn hürufi-lisani deyirlәr*".

Hürufi-münfәsilә ә. حر و ف منفصله – ayrı yazılan hәrflәr: "*... özlәrindәn soŋrakı hәrfә әsla müttәsil olmazlar* (ا د ذ ر ز ژ و)".

Hürufi-müsavvitә ә. حر و ف مصوّته – sәsli hәrflәr; saitlәri göstәrәn hәrflәr: "*... sövt verәn hәrflәrdür: (ا و ى)*".

Hürufi-müttәsilә ә. حر و ف متّصله – bitişik yazılan hәrflәr, hәr iki tәrәfdәn (özündәn әvvәl vә sonrakı hәrflә) birlәşәn hәrflәr.

Hürufi-samitә ә. حر و ف صا مته – "*lal hәrflәr*"; (ا و ى ه) hәrflәrindәn başqa qalan bütün hәrflәr.

Hürufi-şәfәvi ә. حر و ف شفوى – dodaq hәrflәri; qoşadodaq *m, b, p* vә dodaq-diş *v, f* hәrflәri.

Hürufi-şәmsiyyә (t. ***hәrfi-şәmsi***) ә. حر و ف شمسيّه – әrәb әlifbasında "әl" müәyyәnlik artiklindәn sonra gәldikdә artiklın tam oxunmasına imkan vermәyib qoşalaşan hәrflәr: (ت ث د ذ ر ز س ش ص ض ط ظ ن).

Hürufi-zәvayid ә. حروف زوايد – "artan hәrflәr" (= prefiks, suffiks, interfiks vә s.).

X

Xəbər ə. **خبر** – cümlənin baş üzvlərindən biri; xəbər (*müsnəd*); adlarla ifadə olunan xəbərlər *ismi-xəbər*, feillə ifadə olun xəbərlər *fe'l* adlandırılır. Məs., "Hava istidir" cümləsində "istidir" xəbər, "Əhməd gəldi"- cümləsində "gəldi" fe'ldir.
Xəfif kəlmə ə. **خفيف كلمه** – incə saitli söz.
Xətti-qövseyn ə. **خطّ قوسين** – mötərizə.

İ

'İbarə ə. **عبا ره** c. ***'ibarat*** **عبا را ت** –1.ifadə, cümlə; 2.bir neçə söz və ifadədən ibarət tərkib.
İxbariyyə ə. **اخباريّه** – 1. məntiqi cəhətdən doğru və ya yalan hökm (məlumat) bildirən cümlə; "*hərgah bir kəlamıŋ ehtimalı sidqə və kizbə ola, oŋa (ixbariyyə) deyilür, məsələn: mü'əllim gəldi. Bu kəlam ola bilür ki, vaqe'yə mütabiq olsun və ya olmasun; əgər mütabiq oldı (sadiq), və illa (kazib) olur*"; 2. qrammatik cəhətdən: nəqli cümlə.
İnqisami-fe'l ləfzən və mə'nən ə. **انقسا م فعل لفظاً و معنًا** – forma və mənaya görə feil formaları və növləri (təsirli, təsirsiz, məlum, məchul, təsdiq, inkar): "*Məsdər və ya mütləq fe'l ləfzinə və mə'nasına görə altı qismdür: mütə'əddi, lazım, mə'lum, məchul, müsbət, mənfi*".
İnşaiyyə ə. **انشائيّه** – cümlə; tələb, təmənna, sual və tənbih ifadə edən cümlələr; əmr, sual, nida cümlələri; "*Əgər bir kəlamıŋ ehtimalı sidqə və kizbə olmayub, məhz bir şeyi tələb və ya təmənna etməgə və sual və tənbihə şamil olsa, oŋa (inşaiyyə) deyilür, məsələn, (Dərsiŋə çalış vəqtiŋi*

itürmə); (Kaş mən də oxumış ola idim);Nə ’elmdən təhsil edirsən? Ey Taŋrı, sən bilürsən qəlbimdəki dərdimi; Pərvərdigar bu iş saŋa ə’yandur! və s.”.

İsm ə. **اسم** – əşyanın adını bildirən nitq hissəsi; isim: “*... odur ki, müstəqillən bir mə’nanı andıra və zamana dəlaləti olmaya*: *adam, heyvan*”.

İsmi-cənb ə. **اسم جنب** – tərəf, yön bildirən isim.

İsmi-cins ə. **اسم جنس** – ümumi isim: “*məsələn: heyvan, daş, ağac*”.

İsmi-’ədəd ə. **اسم عدد** – əşyanın miqdarını bildirən nitq hissəsi; say: “*... san göstərən kəlmələrə deyilür. O da üç qismdür*: *əsli, tərtibi, kəsri*”.

İsmi-fa’il ə. **اسم فاعل** – feildən düzələn və subyekt bildirən isim və ya subyekti təyin edən sifət; feili-sifət: “ *o siğədür ki, fe’liŋ bir zatla qaim olmaqını göstərə. Məsələn*: *gələn, alan, oxuyan, yazıcı kimi*”.

İsmi-fa’ili-’ərəbi ə. **اسم فاعل عر بی** – ərəb dilinə məxsus (subyekt bildirən) feili-sifət: “*’Ərəb diliniŋ qanununa görə, ismi-fa’il siğəsi məsdəri üç hərfli fe’ldən həmişə (fa’il) vəznində gəlür, məsələn: ’alim, ’adil, qadir, sadiq, raziq, xaliq kimi*”.

İsmi-işarə ə. **اسم اشا ره** – işarə əvəzliyi (*bu* və *o* // *ol*).

İsmi-məf’ul ə. **اسم مفعول** – feildən düzələn və obyekt bildirən isim və ya obyekti təyin edən sifət; feili sifət: “*... o siğədür ki, fe’liŋ bir zat üzərinə vaqe’ olmaqını göstərə ...* (*kəsilən, kəsilmiş, urılan, urılmış*) *kimi*”.

İsmi-məf’uli-’ərəbi ə. **اسم مفعول عر بی** – ərəb dilində obyekt bildirən feili sifət; “*’Ərəb lisanında məsdəri üç hərfli fe’ldən ismi-məf’ul siğəsi həmişə (məf’ul) vəznində gəlür*: *məqtul, məzlum, məhrum, mərhum, məxdum, mə’lum, məşhur kimi*”.

İsmi-məkan ə. **اسم مكان** – məkan, yer bildirən isim: "*... o kəlmədür ki, bir şeyiŋ məkanını göstərə, o da türkcə hasil olur ismi-cənbiŋ axırına* (*lik // lük*) və ya (*lıq // luq*) ədatını lahiq etməklə, məsələn: *çəmənlik, tikanlıq kimi*".

İsmi-mənsub ə. **اسم منسوب** – mənsubluq bildirən sifət: "*o kəlmədür ki, bir zatıŋ bir yerə və ya mütləq bir sifətə nisbətlənməgini ifadə edə, məs.*: *şirvanlu, gəncəli, güclü, qüvvətli*".

İsmi-məsdər (hasili-məsdər) ə. **اسم مصدر** – feildən (məsdərdən) düzələn isim: "*İsmi-məsdər o kəlmədür ki, məsdərdən hasil olan bir halı göstərə, məs.*: "*içmək – içim, atmaq – atım*; *salmaq – salma, dişləmək – dişləmə*; *getmək – gediş, gəlmək – gəliş ...*".

İsmi-sifət ə. **اسم صفت** – əşyanın əlamət və keyfiyyətini bildirən nitq hissəsi; sifət: "*İsmi-sifət bir ismiŋ əhvalından və necəligindən xəbər verən ismdür, məsələn*: *böyük, kiçik, ağ, qara, sarı*".

İsmi-təfzil ə. **اسم تفضيل** – sifətin çoxaltma dərəcəsi (*məs.*: *daha ... // ən ...*).

İsmi-təsğir ə. **اسم تصغير** – kiçiltmə bildirən şəkilçilərlə düzələn sözlər: "*... o kəlmədür ki, bir şeyiŋ kiçikligini andıra: oğlancıq – oğlancığaz, 'övrətcik – 'övrətcigəz, yaxşıca ...*".

İsmi-zəmir ə. **اسم ضمير** – şəxsə işarə edən bütün anlayış və kateqoriyalar (şəxs əvəzlikləri, mənsubiyyət, şəxs və xəbərlik kateqoriyaları).

İstiqbal ə. **استقبا ل** – gələcək zaman.

İstiqra ə. **استقرا ء** – xüsusi mülahizələrdən ümumi nəticə çıxarma üsulu, induksiya metodu; eyni məsələyə dair bir neçə əsəri tədqiq edib elmi nəticə çıxarma.

İstinbat ə. استنباط – 1. bir sözdən və ya işdən gizli məna çıxarma; 2. nəticə, xülasə; deduksiya metodu; 3. köçürmə.
İzafə(t) ə. اضافت // اضافه – 1.yiyəlik hal: "*İzafə halı hasil olur mübtədanıŋ axırına sağır nun* گ *hərfini artırmaqla, məsələn: kağız – kağızıŋ*"; 2. ərəb və fars dili qrammatikalarında: təyini söz birləşməsi, ismin əlavəsi; "*... bir şeyiŋ bir ismə tə'əllüq və təməllükini göstərir*".
İzafeyi-bəyaniyyə ə. اضافۀ بیانیّه – I növ təyini söz birləşməsi: "*Hərgah müzafün-ileyh müzafıŋ növ'ini və cinsini göstərə və ədati-izafədən mücərrəd ola, oŋa izafeyi-bəyaniyyə deyilür, məsələn*: *qızıl yüzük, gümüş kasə kimi*".
İzafeyi-lamiyyə ə. اضافۀ لامیّه – III növ təyini söz birləşməsi: "*məsələn: Azadıŋ kitabı, ağacıŋ barı, dostuŋ cəfası*".

K

Kazib ə. کاذب – yalan hökm ifadə edən cümlə.
Kəl(i)mə ə. کلمه – 1. söz, kəlmə; 2. cümlə üzvü: "*kəlmə də üç qismdür*: *ism, fe'l, hərf*".
Kəlam ə. کلام – cümlə: "*Kəlam kəlmələrdən tərkib tapar*"; "*... o 'ibarəyə deyilür ki, müxatəbi müntəzir qoymaya, yə'ni qarşudakı şəxs kəlamı eşidəndə oŋa fayideyi-tammə verüb, sükut edə, bu da əqəllən iki ismdən ya bir ism və bir fe'ldən tərkib tapar, məsələn*: *Əhməd gəldi*; *Hava istidür*".
Kəlami-əsli ə. کلام اصلی – tabesiz mürəkkəb cümlə: "*Hərgah bir fəqər(ə)də iki kəlam bir-biriniŋ dalınca gəlüb aralarında ədati-rəbt olmaya və ya olsa da, hər biri 'ümdəligini itürməyə, hər ikisinə kəlami-əsli deyilür.*

Məsələn:*Yaz gəldi, çiçəklər açıldı. Yaz gəldi, hava mütə'əddid oldı*".

Kəlami-fər'i ə. **كلام فرعى** – 1. hərfən: budaq(lanan) cümlə; 2. burada: tabeli mürəkkəb cümlə: "*Əgər bir fəqər(ə)də iki kəlam bir-biriniŋ dalınca gəlüb ... onlardan biri əsl və 'ümdə olan kəlamı tövzih və təkmil etsə, oŋa kəlami-fər'i deyilür. Məs.*: *'Elm və ədəbsiz adam hər yerdə xar və həqir olur (zira ki) insanıŋ şərəfi və e'tibarı 'elm və ədəblə müttəssif olmaqına buğludur*".

Kəlami-müqəyyəd ə. **كلام مقيّد** – 1. hərfən: asılı // şərtli (tabeli) cümlə"; 2. müasir terminologiya ilə: geniş cümlə: "*Əgər bir məqsud ki, ifadəsi ... bir para qeydləri izafə etməklə hasil olsa, oŋa kəlami-müqəyyəd deyilür.* Məs.: "*Hava istiligi Gündən alur*".

Kəlami-mütləq ə. **كلام مطلق** – 1. hərfən: "mütləq // şərtsiz (tabesiz) cümlə";
2. müasir terminologiya ilə: müxtəsər cümlə: "*Əgər bir məqsud ki, ifadəsi məhz bunlar* (cümlənin baş üzvləri) *ilə hasil oldı, o kəlama mütləq deyilür*". Məs.: "*Hava istidür*".

Kəlami-şərti ə. **كلام شرطى** – şərt budaq cümləli tabeli mürəkkəb cümlə: "*Əgər bir kəs saŋa yamanlıq e(y)ləsə, sən oŋa yaxşılıq e(y)lə*".

Kəsrə ə. **كسره** – ərəb əlifbasında qısa [i] səsini göstərən diakritik işarə.

Kəsri ə. **كسرى** c. ***küsur*** **كسور** – kəsr sayı.

L

Lazımi-qiyasi ə. **لازم قياسى** – təsirli feildən düzələn təsirsiz feil: "*...odur ki, əslən mütə'əddi olub soŋradan bir*

*qa'idə üzərinə lazım qılına. Məsələn: sarımaq – sarı**n**maq, qatmaq – qatı**ş**maq, yığmaq – yığı**ş**maq kimi*".
Lazımi-səma'i ə. **لازم سماعى** – kök etibarilə təsirsiz feil: "*... odur ki, əslən lazım ola, uzanmaq və yatmaq kimi*".
Ləfz ə. **لفظ** c. ***əlfaz*** **الفاظ** – söz, kəlmə; ağızdan çıxan mənalı və ya mənasız səda.

M

Maddeyi-əsli // maddeyi-baqiyə ə. **ما دّۀ اصلى // با قيه** – sözün kökü; ərəb dilində: sözlərin əsasını təşkil edən samitlərin düzülüş sistemi // ardıcıllığı.
Mazi ə. **ماضى** – keçmiş zaman.
Maziyi-nəqli ə. **ماضى نقلى** – nəqli keçmiş zaman (-*ıb*[4]; -*mış*[4]).
Maziyi-nəqli şərti ə. **ماضى نقلى شرطى** – nəqli keçmiş zamanın şərti, məs.: *gəlmiş isəm, gəlmiş isəŋ, gəlmiş isə; gəlmiş isək, gəlmiş isəŋiz, gəlmiş isələr.*
Maziyi-şühudi ə. **ماضى شهود ى** – şühudi keçmiş zaman (-*dı*[4]).
Maziyi-şühudi şərti ə. **ماضى شهود ى شرطى** – şühudi keçmiş zamanın şərti, məs.: *gəldim isə, gəldiŋ isə, gəldi isə; gəldik isə, gəldiŋiz isə, gəldilər isə.*
Məc'ul (ləfz) ə. **مجعو ل** – yapma, süni düzəldilmiş (söz): "*məs.: həsbul-fərmayiş*".
Mədd(ə) ə. **مدّ // مدّه** – ərəb əlifbasında: saitin uzunluğunu göstərmək üçün "əlif" hərfinin üzərinə qoyulan işarə; əski Azərbaycan əlyazmalarında uzun "a", "ə" saitlərini göstərmək üçün "əlif"in üstünə qoyulan işarə.
Mə'dud ə. **معدود** – sayılan; sayın aid olduğu isim, saylarla yaranan birləşmələrin II tərəfi.

Məftuh(ə) ə. **مفتوحه** – fəthəli hərf**.**
Məf'ul ə. **مفعول** – 1. üzərində iş görülən obyekt; tamamlıq; 2. ismin təsirlik halı; 3. ümumiyyətlə, ismin halları.
Məf'ulun-bih ə. **مفعول به** – təsirlik hal.
Məf'ulun-bihi-sərih ə. **مفعول به صريح** – vasitəsiz tamamlıq; ismin təsirlik halı.
Məf'ulun-bihi-ğeyri-sərih ə. **مفعول به غير صريح** – vasitəli tamamlıq; ismin yönlük, birgəlik, yerlik və çıxışlıq halları.
Məf'ulun-fih ə. **مفعول فه** – yerlik hal
Məf'ulun-ileyh ə. **مفعول اليه** – yönlük hal
Məf'ulun-mə'əh ə. **مفعول معه** – birgəlik hal.
Məf'ulun-minh // 'anh ə. **مفعول منه // عنه** – çıxışlıq hal.
Məxrəc ə. **مخرج** – səslərin ağızdan çıxdığı yer; artikulyasiya.
Məksur ə. **مكسور** – kəsrəli hərf.
Məsdər (***fe'li-əsli*** // ***mütləq fe'l***) ə. **مصد ر** c. ***məsadir*** **مصادر** – məsdər (ərəbcə mənbə, mənşə, qaynaq mənası bildirir).
Məsdəri-'ərəbi ə. **مصدر عربى** – ərəb dilinə məxsus məsdər.
Məsdəri-xəfif ə. **مصد ر خفيف** – incə saitli "-mək" şəkilçisi ilə işlənən məsdər.
Məsdəri-məzid ə. **مصدر مزيد** – ərəb dilində artırılan hərflərlə müəyyən ölçüyə (vəznə) görə dəyişən məsdər forması, məs.: təkrim, tərəhhüm, tə'adül, inqisam, müqavilə və s.
Məsdəri-mücərrəd ə. **مصدر مجرّ د** – ərəb dilində artırılan hərfləri olmayan, yəni kök feildən ibarət olan, müəyyən ölçüyə görə hərəkələrlə dəyişən məsdər forması, məs.: heyran, hirman, ğufran və s.
Məsdəri-səqil ə. **مصد ر ثقيل** – qalın saitli "-maq" şəkilçisi ilə düzələn məsdər.
Məzmum ə. **مضموم** – zəmməli hərf.

Miətə ə. **مات** – yüzlüklər.
Mövsuf ə. **موصوف** – sifətin aid olduğu isim, təyin olunan.
Mübhəmat ə. **مبهمات** – sual əvəzlikləri, qeyri-müəyyən və nisbi əvəzliklər: "*Mübhəmat fe'lə və ismə və bil-'ümum cümlələrə qoşulmış bir para mübhəm ədatlardur ki, istifham və sualı andırar: nə? ha? nə içün? niyə? (müxəffəfi: niçün // ne(y)çün?), neçə? kim? haçaq? hansı? (hanki? qanqı?) kimi*".
Mübtəda ə. **مبتدا** – mübtəda; cümlənin iki baş üzvündən biri. Kim? sualına cavab verən söz fail, nə? hara? sualına cavab verən söz mübtəda adlandırılır: Məs.: "Hava istidir" cümləsində *hava* mübtəda, "Əhməd gəldi" cümləsində *Əhməd* isə faildir.
Mübtəda və münada ə. **مبتدا و منا دا** – adlıq və çağırış halı: *ey! ay! ya!* və s. nidalarla işlənən adlıq halındakı sözlər.
Müənnəs ə. **مؤ نّث** – ərəb dilində: qadın cinsi.
Müənnəsi-həqiqi ə. **مؤ نّث حقيقى** – leksik cəhətdən (cins şəkilçisi olmadan) qadın cinsini bildirən söz, qadın adı, məs.: *xanım, xatun, 'övrət, Zeynəb* və s.
Müənnəsi-ləfzi ə. **مؤ نّث لفظى** – qadın cinsinə aid olduğu hərfən, xüsusi morfoloji əlamətlə ifadə edilən söz, məs.: *salihə, 'aqilə, kürə* və s.
Müənnəsi-səma'i ə. **مؤ نّث سماعى** – qadın cinsinə aid olduğu eşidib əzbərləməklə, yəni xüsusi cins göstəricisi // şəkilçisi olmadan bilinən söz, məs.; *ərz* (Yer (planet).
Müfrəd ə. **مفرد** – təkdə işlənən söz (cəmin əksi).
Mühmilat ə. **مهملات** – sifətin «*ə'la*» dərəcəsinin *mübaliğə* növünün əlaməti: "*Və gahi ismi-sifətə bir parə mühmilat qoşulub mübaliğə andırar, məsələn:* ***qap*** *qara,* ***sap*** *sarı,* ***qup*** *qurı,* ***yam*** *yaşıl,* ***bom*** *boş və ğeyrə*".
Müxalif ə. **مخا لف** – antonim.

Mükəssər (// ***cəm'i-mükəssər***) ə. **مكسّر** – kökün daxildən dəyişməsi ilə yaranan cəm forması; daxili cəm.
Müradif ə. **مراد ف** – sinonim.
Mürəkkəb fe'l ə. **مركّب فعل** – iki tərkib hissədən ibarət feil: 1. frazeoloji söz birləşməsi, məs.: "*zəhmət çəkmək, ğəmgin oturmaq, köŋül tikmək, ev yıxmaq..*"; 2. "*idi, imiş, isə*" hissəcikləri ilə formalaşan feil.
Mürəkkəb ism ə. **مركّب اسم** – iki müstəqil mənalı sözün birləşməsindən yaranan isim: "*gül 'üzar*, *gül əfşan*, *pəri ruy*, *gül çöhrə*, *cahandar*, *cahangir* və ğeyrə".
Müsavvit hərf ə. **مصوّت حرف** – səsli hərf; sait.
Müsbət ə. **مثبت** – feilin təsdiq forması: "... *o siğədür ki, fe'liŋ vücuda gəlməgini andıra, oxumaq və gəlmək kimi*".
Müsəğğər ism ə. **مصغّر اسم** – kiçiltmə şəkilçiləri (-cik //cıq, -cigəz //-cığaz, -ca²) vasitəsilə düzələn isim.
Müsnəd // məsnəd ə. **مُسند** – xəbər (bu mənada *müsnəd* və *fe'l* terminlərindən istifadə olunur).
Müsnədün-ileyh ə. **مُسند اليه** – mübtəda (bu mənada *fa'il* və *mübtəda* terminlərindən istifadə olunur).
Müstəqbəl ə. **مستقبل** – gələcək zaman.
Müstəqbəl şərti ə. **مستقبل شرطى** – gələcək zamanın şərti, məs.: a) *gələr isəm, gələr isəŋ, gələr isə;* b) *gələcək isəm, gələcək isəŋ, gələcək isə* və s.
Müşarün-ileyh ə. **مشا ر اليه** – işarə ilə göstərilən.
Müşarikət ə. **مشاركت** – feilin qarşılıq-müştərək növü: "**ş** *hərfi ğalibən fe'lə lahiq oldıqda müşarikəti andırar; istər fe'l əslən lazım ola və ya mütə'əddi, məsələn: qaçmaq – qaçışmaq, urmaq – uruşmaq, yazmaq – yazışmaq*".
Müşəddəd ə. **مشدّ د** – təşdidli; üzərində təşdid ّ işarəsi olan hərf.
Müştəqq ə. **مشتقّ** – düzəltmə söz.

Mütabiqət ə. **مطابقت** - uzlaşma (cümlənin baş üzvlərinin şəxs, cins və kəmiyyətə görə uzlaşması).
Mütavi'ət ə. **مطاوعت** – 1. Ərəb dilində: a) mütəəddi feilin təsiriylə ortaya çıxan nəticəni anlatma; b) məchul qəlibi olmadan mütəəddi feillərə məchulluq mənası vermə;
2. Azərbaycan dilində: feilin qayıdış növü: "*Mütə'əddini lazım etməkdə qa'idə budur ki, ədati-məsdərdən müqəddəm bir nun (n) və ya bir (ş) məzid ola, məsələn: sarımaq – sarı**n**maq, qatmaq – qatı**ş**maq, yığmaq – yığı**ş**maq kimi. Lazımıŋ bu qisminə "mütavi'ət" deyilür*".
Mütə'əddiyi-kamil ə. **متعدّى كامل** – feilin icbar növü; məs.: "*örtmək – örtdürmək*".
Mütə'əddiyi-qiyasi ə. **متعدّى قياسى** – təsirsiz feildən düzələn təsirli feil; "*... odur ki, əslən lazım ola və bir qa'idə üzrə soŋradan mütə'əddi qılına... ərimək – əritmək, dinmək – dindirmək, durmaq – durğuzmaq, qalxmaq – qalxızmaq // qaldırmaq kimi*".
Mütə'əddiyi-səma'i ə. **متعدّى سماعى** – təsirli feil: "*... odur ki, əslən və vəz'ən mütə'əddi ola, kəsmək və yazmaq kimi*".
Müzaf ə. **مضاف** – izafət birləşməsinin təyin edilən II tərəfi.
Müzafün-ileyh ə. **مضاف اليه** – izafət birləşməsinin təyin edən I tərəfi.
Müzəkkər ə. **مذكّر** – ərəb dilində: kişi cinsi.

N

Nəhy ə. **نهى** – feilin əmr şəklinin inkarı: "*Əmri-hazırıŋ mənfisi nəhy adlanur, ... yaz – yazma kimi*".
Nuni-mənqutə ə. **نون منقوطه** – nöqtələnmiş, nöqtəsi olan "*nun*".

Nuni-viqayə ə. **نو ن وقا يه** – bitişdirici "*nun*".

P

Puş f. **پوش** (əsərdə: پُش) – qısa [o, ö, u, ü] səslərini göstərən işarə // ə. *zəmmə.*

R

Rəvayəi-müstəqbəl ə. **روايۀ مستقبل** – qəti gələcək zamanın rəvayəti, məs.: *gələcək imişəm, gələcək imişsən, gələcək imiş, gələcək imişik, gələcək imişsiŋiz, gələcək imişlər*.

Rəvayəti-fe'li-təmənni ə. **روايت فعل تمنّى** – feilin arzu şəklinin rəvayəti, məs.: *gələ imişəm, gələ imişsən, gələ imiş; gələ imişik, gələ imişsiŋiz, gələ imişlər.*

Rəvayəti-fe'li-vücubi ə. **روايت فعل وجوبى** – feilin vacib şəklinin rəvayəti, məs.: *gəlməli imişəm, gəlməli imişsən, gəlməli imiş; gəlməli imişik, gəlməli imişsiŋiz, gəlməli imişlər.*

Rəvayəti-hal ə. **روايت حا ل** – indiki zamanın rəvayəti, məs.: *gəlür imişəm, gəlür imişsən, gəlür imiş; gəlür imişik, gəlür imişsiŋiz, gəlür imişlər*.

Rəvayəti-maziyi-nəqli ə. **روايت ماضى نقلى** – nəqli keçmişin rəvayəti, məs.: *gəlmiş imişəm, gəlmiş imişsən, gəlmiş imiş, gəlmiş imişik, gəlmiş imişsiŋiz, gəlmiş imişlər.*

Rəvayəti-müstəqbəl ə. **روايت مستقبل** – qeyri-qəti gələcək zamanın rəvayəti, məs.: *gələr imişəm, gələr imişsən, gələr imiş; gələr imişik, gələr imişsiŋiz, gələr imişlər.*

S

Sadiq ə. **صاد ق** – doğru hökm ifadə edən cümlə.
Sağır nun صاغر نو ن – türk dillərinə məxsus spesifik səsi ifadə edən hərf; (گ) [ŋ].
Sakin ə. **ساکن** – ərəb əlifbasında hərəkəsi olmayan, sükunlu hərf.
Salim ə. **سالم** – ərəb dilində cəm forması; sözlərin kökünün dəyişilmədən saxlanılmasıyla cəmlənmə: "... *odur ki, müfrədiŋ heyəti-əsliyyəsi cəm' bağlananda pozulmaya. Salimdə qa'ideyi-külliyə budur ki, müzəkkər içün müfrədiŋ axırına -un̄ və gah -in̄ və müənnəsdə -at̄ ləfzi gəlür, məsələn: mu'allimun̄ = mu'allimin̄, mu'allimat̄ ...*".
Samit ə. **صامت** – "*lal hərf*", səssiz hərf; samit.
San t. **سا ن** – kəmiyyət kateqoriyası: "*Türk dilində san ikidür*: *müfrəd* və *cəm'* ".
Səqil ə. **ثقیل** – qalın saitli söz.
Sərf ə. **صرف** – morfologiya.
Sərfü nəhv ə. **صرف و نحو** – morfologiya və sintaksis.
Sifət ə. **صفت** – cümlə üzvü kimi – "təyin"; nitq hissəsi kimi – "sifət": "... *o kəlmədür ki, hansı, nə tövr, necə sualına cavab vaqe' ola. Vəsf olunmuş ismə mövsuf deyilür*".
Sifəti-müşəbbəhə ə. **صفت مشبّهه** - ərəb dilində: *sifəti-müşəbbəhə bismil-fa'il* – "ismi-fa'ilə bənzəyən sifət"; əsərdə feildən düzələn sifət mənasında işlənir: "*o siğədür ki, vəsfiyyət göstərə, bə'zi ismi-fa'il və bə'zi ismi-məf'ul yerində işlənür ... məsələn: kəs<u>kin</u>, öt<u>kin</u>, yor<u>qın</u>, düş<u>kin</u> kimi*".
Siğə ə. **صیغه** – forma, qəlib (cəm siğəsi, təsniyə siğəsi, əmr siğəsi və s.); zamanca dəyişən feilin formalarından hər biri; *siğeyi-fə'il* – fəil forması.

Sövt ə. **صوت** c. ***əsvat*** **اصوات** – səs, səda.
Sükun ə. **سكون** – samitin üzərinə qoyulan və ondan sonra saitin gəlmədiyini göstərən işarə.

T

Tai-mənqutə ə. **تاءِ منقوطه** – nöqtəli “tə” (ت).
Tə’bir ə. **تعبير** c. ***tə’birat*** **تعبرات** – 1. ifadə etmə, anlatma;
2. müəyyən bir məna ifadə edən söz, cümlə, tərkib və s.
3. termin, istilah.
Təhvil ə. **تحويل** – 1. dəyişdirmə; 2. qram.: hallan(dır)ma.
Təmyiz ə. **تميز** – ayırma, seçmə, fərq qoyma; ayrılma, təmiz, ayrılmış: “*... o kəlmədür ki, nisbətdən rəf’i-ibham edə; bu da üslubi-türkidə ismiŋ axrına <u>cəhət(i)lə</u> ləfzi və bə’zən (<u>cə</u>) ədatı lahiq olmaqla hasil olur, məsələn*: **(Biz)** *fənn və sənaye’ <u>cəhət(i)lə</u> çox geri qaldıq (və ya fənn və sənaye’<u>cə</u> ..). Əmma ’ərəbcə təmyiz kəlməniŋ axrına tənvin gəlməklə hasil olur, məsələn*: ... *sinnən* (yaşca) *və s.*”.
Tənis ə. **تأنيث** – ərəb dilində: isim və ya feili qadın cinsində işlətmə.
Tənvin ə. **تنوين** – hərfən: «nunlama, nunlandırma»; ərəb əlifbasında ad qruplu sözlərin son hərfi üzərində qoyulan qoşa zəmmə ٌ [un] // f. *düpuş* (iki puş) və qoşa fəthə ً [ən] // f.*düzəbər* (iki zəbər), altında qoyulan qoşa kəsrə işarələri ٍ [in] // f. *düzir* (iki zir).
Tərkib ə. **تركيب** – 1. bir neçə şeyi birləşdirməklə mürəkkəb bir şey əmələ gətirmə;
2. bir neçə sözdən ibarət <u>birləşmə;</u> əsərdə *heca* mənasında da işlənir.
Tərkibi-izafi ə. **تركيب اضا فى** – izafət tərkibi ; III növ təyini söz birləşməsi: “*Bir ismiŋ bir ismə tə’əllüq və ixtisası*

andıran tərkibdür, məsələn: mü'əllimiŋ 'əsası, ... mü'əllimiŋ oğlunuŋ gözləriniŋ ağırısı".

Tərkibi-te'dadi ə. **تركيب تعدادى** – say tərkibi: "*Bir ismiŋ kəmiyyət və miqdarını bəyan edən tərkibdür, bu da iki cüzindən mürəkkəb olur; əvvəlimci cüzə* <u>*ismi-'ədəd*</u>*, ikinciyə* <u>*mə'dud*</u> *deyilür*".

Tərtibi ə. **ترتيبى** – sıra sayı (*ikinci, dördünci, yeddinci; əvvəlinci // əvvəlimci, axırımcı*).

Təsniyə ə. **تثنيه** – ərəb dilində: kəmiyyətcə ikilik bildirən qrammatik kateqoriya: "*'Ərəb dilində təsniyə siğəsi 'əmələ gəlür müfrədiŋ axırına ān və gah eyn hissələrini artırmaqla, məsələn: tərəf – tərəfān = tərəfeyn* (iki tərəf), *dövlət – dövlətān = dövləteyn* (iki dövlət)".

Təsrif ə. **تصريف** **c.** ***təsrifat*** – feilləri zamana görə dəyişdirmə.

Təşbih ə. **تشبيه** – bənzətmə, oxşatma, tutuşdurma.

Təşdid ə. **تشديد** – şiddətləndirmə; ərəb yazısında: eyni samiti iki dəfə oxumaq üçün onun üstünə qoyulan işarə (ّ): "*...bərkitmək*" *mə'nasına bu nişanə ..*".

Təzkir ə. **تذكير** – ərəb dilində: isim və ya feili kişi cinsində işlətmə.

Ü

Üluf ə. **الوف** – minliklər.

V

Vavi-müsavvitə ə. **واو مصوّته** – hərfən: "səsli **v**av", yəni [o, u, ö, ü] səslərini bildirən **و** (vav) hərfi.

Vavi-sakin ə. **واو ساكن** – hərfən: "sükunlu **v**av", yəni [v] səsini bildirən **و** (vav) hərfi.

Y

Yayi-müsavvitə ə. **يا ى مصوّ ته** – hərfən: “səsli *ya*”, yəni [i,ı] səslərini bildirən ى (*ya*) hərfi.

Z

Zaman // zəman ə. **ز ما ن** – zaman kateqoriyası: “*... zaman üçdür*: *mazi, hal, istiqbal*”.
Zat ə. **ذات** – şəxs.
Zəbər f. **زبر** – yazıda qısa [ə] səsini ifadə etmək üçün samitin üzərinə qoyulan hərəkə // ə.fəthə.
Zəbər sövti زبر صوتى – qısa [ə] səsi.
Zəmir ə. **ضمير** c. ***zəmair* ضماير**//**ضمائر** – əvəzlik; əsərdə *şəxsə* işarə edən bütün kateqoriyalar bu adla adlandırılır: “*... o kəlmədür ki, söyləyən şəxsə və ya qarşuda və ğayibdəki şəxsə dəlalət edə*”.
Zəmiri-izafi ə. **ضمير اضا فى** – mənsubiyyət kateqoriyası şəkilçiləri: *-m,-ŋ,-ı* //*-i* və ya *-sı; cəm’də: -miz, -ŋiz, -ları* //*-ləri.*
Zəmiri-münfəsil ə. **ضمير منفصل** – ayrı yazılan əvəzliklər (*mən, sən, o, biz, siz, onlar*).
Zəmiri-müttəsil ə. **ضمير متّصل** – bitişik yazılan əvəzliklər.
Zəmiri-mütəkəllim ə. **ضمير متكلّم** – I şəxs əvəzliyi (*mən, biz* // *bizlər*).
Zəmiri-müxatəb ə. **ضمير مخا طب** – II şəxs əvəzliyi (xitab olunan: *sən, siz* // *sizlər*).
Zəmiri-ğayib ə. **ضمير غايب** – III şəxs əvəzliyi (*o, olar* // *onlar*).
Zəmiri-fe’li (***// zəmiri-fa’il***) ə. **ضمير فعلى // ضمير فاعل** – şəxs kateqoriyası şəkilçiləri:*-m, -ŋ, -k, -ŋiz, -lər*.

Zəmiri-nisbi ə. **ضمير نسبى** – nisbi əvəzlik.
Zəmiri-rəbti ə. **ضمير ربطى** – xəbərlik kateqoriyası şəkilçiləri: *-əm, -sən, -dur, -ik //-ıq, -sıŋız, -durlar*.
Zəmmə ə. **ضمّه** - ərəb əlifbasında qısa [o, ö, u, ü] səslərini göstərmək üçün hərfin üstündə qoyulan hərəkə // f. *puş*.
Zihal ə. **ذى حا ل** – *-araq //-ərək, ikən //-kən, -dıqda*[4], *-a*[2] feili bağlama şəkliçili mübtəda və ya tamamlıq.
Zir f. **زير** – ərəb əlifbasında qısa [ı, i] səslərini göstərmək üçün hərfin altında qoyulan hərəkə // ə. *kəsrə.*

ƏSƏRDƏ İZAHINA EHTİYAC DUYULAN ƏRƏB VƏ FARS MƏNŞƏLİ SÖZLƏR LÜĞƏTİ

A

Af(i)tabi-’aləmi-tab f. **آ فتا ب عا لم تا ب** – aləmi işıqlandıran günəş.
’Alə ə. على – üstün(d)ə, üzərin(d)ə.
Amadə f. **آما ده** – hazır
’An-səmimil-qəlb ə. **عن صميم القلب** – səmimi qəlbdən.
’Ariz ə. **عارض** – sonradan hasil olan, əmələ gələn, baş verən (xəstəlik, dərd və s.).
Aşina f. **آشنا** – xəbərdar, müəyyən bir işlə tanışlıq.
Ati ə. **آتى** – 1. gələcək, gələcək zaman; 2. ön, qabaq.

B

Baqi ə. **باقى** –1. həmişəlik, daimi; 2. qalan,qalıq.
Ba’isi-nədamət ə. **باعث ندامت** – peşmanlıq yaradan, peşmanlığa səbəb olan.
Beynə ə. **بين** – 1. ara, aralıq, orta; 2. vaxt, an, çağ.
Beynəl-əqvam ə. **بين الاقوام** – xalqlararası.
Bə’d(ə) ə. **بعد** – sonra
Bədəl ə. **بد ل** – qarşılıq, əvəz.
Bədgu f. **بد گو** – pisliyə danışan, başqası haqqında pis sözlər danışan; qeybətçi; iftiraçı.
Bəhəm f. **بهم** – 1. bahəm, birgə; **2**. əmələ gəlmə, törəmə.
Bəhr ə. **بحر** **c.** ***bühur*** بحور – dəniz
Bəxil ə. بخيل – paxıl; xəsis, simic.
Bə’id ə. **بعيد** – uzaq, uzaqda olan.
Bəndeyi-aciz f+ə. **بنده عاجز** – aciz, gücsüz bəndə; qul

Bəndeyi-həqir f+ə. **بند ه حقير** – dəyərsiz bəndə; qul
Bəndeyi-kəmtərin f. **بنده كميترين** – ən kiçik bəndə; qul.
Bəyan ə. **بيا ن** – 1. anlatma, söyləmə; 2. gözəl yazma; 3. üslubiyyat; 4. ərizə.
Bə'z ə. **بعض** – bəzi; bir hissə, bir qədər.
Bə'zi ə. **بعضى** – bəzən, hərdənbir.
Bəzl ə. **بذ ل** – 1. əsirgəməmə, bol-bol sərf etmə; 2. bağışlama, vermə.
Bi[1] **ə. بِ** – ilə, -la /-lə
Bi[2] f. بى – -sız[4]
Bi'eynihi ə. **بعيّنه** – eynilə, eynən.
Billahit-tövfiq ə. **بالله التوفيق** – Allahın köməyilə.
Bilmərrə ə. **بالمرّه** – 1. birdəfəlik; 2. tamamilə, bütünlüklə.
Bil-'ümum ə. **بالعموم** – ümumilikdə, ümumiyyətlə.
Bina bərin f. **بنابرين** – buna görə
Bişübhə f+ə. **بى شبهه** – şübhəsiz

C

Canfəşan f. **جان فشا ن** – canını əsirgəməyən, canından keçən.
Cani ə. جا نى – cinayətkar
Canib ə. **جانب** – yan, tərəf, cəhət.
Cayiz // Caiz ə. **جايز //جائز** – icazə verilən, yolverilən, mümkün olan.
Cəbəl ə. **جبل** ***c. cibal*** جبا ل – dağ
Cəmil ə. **جميل** – qəşəng, gözəl.
Cənb ə. **جنب** – tərəf, yan.
Cəzil ə. **جزيل** – çox, bol.
Cövhər ə. **جوهر** – **1**. zat, mahiyyət, əsl, maya; **2**. təbiət, xassə; 3. qiymətli daş.

Ç

Çakər f. چاکر – qul, kölə, nökər, qulluqçu.

D

Dadgər f. داد کر – 1. ədalətli adam; 2. hakim; 3. vergi yığan.
Darul-fünun ə. دارُالفنون – universitet.
Darül-mü'əllimin ə. دارالمعلّمين – müəllimlər seminariyası.
Dəf' ə. د فع – 1. rədd etmə, uzaqlaşdırma; 2. aradan qaldırma, yox etmə, məhv etmə; 3. geri qaytarma.
Dəhr ə. دهر *c.* ***dühur*** دهور – 1. zaman, vaxt, dövr; 2. dünya, cahan; 3. m. tale, fələk.
Düşvar f. د شوار – çətin, ağır.

E

E'timad ə. اعتما د – 1. istinad, dayanma, asılılıq; 2. inam, inanma; güvənmə.
Eyzən ə. ايضاً – həmçinin, bunun kimi.
E'zaz ə. اعزاز – əzizləmə.

Ə

Əbna ə. ابناء – oğullar
Əcr ə. اجر – qarşılıq, mükafat.
Əfşan f. افشا ن – // fəşan, səpən, səpələyən; saçan.
Əğləb ə. اغلب – 1. ən qüvvətli , daha qüvvətli ; 2. ən çox, daha çox.
Əx ə. اَخ – qardaş.

Əxlaq ə. **اخلاق** – 1. xülqlər // yaradılışlar; 2. yaradılış, var olma; 3. mənəviyyat; xasiyyət; davranış qaydası.
Əxlaqi-həmidə ə. **اخلاق حمیده** – gözəl əxlaq.
Əxz ə. **اخذ** – alma, əldə etmə, götürmə.
’Əqaid ə. **عقائد** – əqidələr
Əqəll ə. **اقلّ** – ən az; daha az.
Əqəllən ə. **اقلاً** – ən azı
Əqsam ə. **اقسام** – qismlər / hissələr.
Əqvam ə. **اقوام** – qövmlər / bir nəsildən olan, qohum, tayfa, millət.
Əlhal ə. **الحا ل** – indi(cə), bu an.
Əlhasil ə. **الحا صل** – sözün qısası, nəticə.
Əlvan ə. **الوان** – rəngarəng // t. ***lövn*** – rəng, boya; növ, çeşid.
Ə’mali-mərziyyə ə. **اعمال مرضیّه** – razı qalınan // razı qalınmış əməllər.
’Əmmə ə. **عمّه** – bibi .
’Əmmal ə. **عمّا ل** – işçilər, fəhlələr.
Əmsilə ə. **امثله** – misallar, nümunələr.
’Əmu ə. **عمو** – əmi (atanın qardaşı); *’əmuyi-mehriban* **عموئ مهربا ن** – mehriban əmi; *’əmuyi-mən* **عموئ من** – mənim əmim.
Ərbab ə. **ار با ب** – yiyə, sahib, əhl; *ərbabi-mə’arif* – maarif əhli, bilik sahibləri.
Əsbab ə. **اسبا ب** – 1. səbəblər, vasitələr; 2. alətlər, yaraqlar.
Əsbabı-tə’lim ə. **اسبا ب تعلیم** – təlim vasitələri // ləvazimatları // avadanlıqları.
Əsər ə. **اثر** – 1. iz; 2. təsir.
Əsl ə. **اصل** – kök, əsas, mahiyyət, başlanğıc.
’Əsri-hazır ə. **عصر حاضر** – indiki əsr / yüzillik.
Əşkal ə. **اشکا ل** – şəkillər, formalar.

Əşribə ə. **اشربه** – şərablar, içkilər.
’Ətf ə. **عطف** – əymə, çevirmə, meyil.
Əti’mə ə. **اطعمه** – tə’amlar.
’Ətufət ə. **عطوفت** – mərhəmət, şəfqət, mehribanlıq.
Ətvar ə. **اطوار** – tövrlər.
’Əvaqib ə. **عواقب** – aqibətlər.
Əvan ə. **اوان** – anlar, çağlar.
’Əzimət ə. **عزيمت** – 1. əzm, niyyət, məram; 2. getmə, yola düşmə; 3. tilsim, ovsun; ovsunçuluq.

F

Fariğ ə. **فارغ** – 1. boş, asudə; 2. işi-gücü qurtarmış; 3. tərk etmiş; 4. rahat.
Fasid ə. **فا سد** – pozuq, pozulmuş, pozğun.
Faydabərdar ə+f. **فايده بر دار** – 1. bar verən; 2. m.xeyir, mənfəət verən.
Fayideyi-tammə ə. **فايدۀ تا مّه** – tam fayda.
Fazil ə. **فاضل** – 1. fəzilətli, fəzilət sahibi // gözəl əxlaqa sahib olan; 2. üstün, yüksək; 3. artıq, çox.
Fəqərə ə. **فقره** – 1. bel sümüyü, sütun; 2. məqalənin, yazının müstəqil parçası; 3. bənd, maddə; 4. kiçik hekayə, qissə; 5. qram.: cümlə quruluşu
Fər’ ə. **فرع** – 1. budaq, qol-budaq; 2. şöbə, bölmə; 3. əsas olmayan, ikinci dərəcəli və s.
Fərzənd f. **فرزند** – övlad.
Fəsahət ə. **فصاحت** – gözəl, aydın danışma; gözəl yazı qabiliyyəti.
Fəsih ə. **فصيح** – fəsahətli, bəlağətli, aydın, gözəl danışan.
Fəsl ə. **فصل** **c.** ***füsul*** فصول – fəsil; 1. kitabın bölündüyü

qismlərdən hər biri; bölmə; 2.ilin dörd qismindən hər biri və s.; *füsuli-ərbə'ə* – dörd fəsil.
Fil-cümlə ə. **فى الجمله** – sözün qısası; xülasə, müxtəsər.
Fövq ə. **فوق** – üst, yuxarı.
Fövqətən ə. **فوقتًا** – üst(də), yuxarı(da).
Fuad ə. **فؤاد c.** ***əfidə*** افئد ه – ürək, qəlb, könül.
Fünun ə. **فنون** – fənnlər
Füru'at ə. **فروعات** – budaqlar, şöbələr; burada: nəticələr.
Füzəla ə. **فضلاء** – fazillər / üstünlər

Ğ

Ğalib ə. **غا لب** – qalib, üstün.
Ğalibən ə. **غا لبًا** – 1. ehtimal ki, güman ki; 2. çox zaman, çox vaxt; əksəriyyət, çoxusu.
Ğeyr(ə) ə. **غيره //غير** – olmayan, qeyri, başqa.
Ğeyrət ə. **غير ت** – qeyrət; fövqəladə səy; çalışqanlıq; qayğı və s.
Ğeyri-'aqil ə. **غير عا قل** – ağıllı olmayan; insandan başqa digər canlı varlıqlar.
Ğeyri-mənus ə. **غير مآ نو س** – alışmamış, vərdiş etməmiş.
Ğeyri-sarih ə. **غير مأ نوس** – açıq-aşkar olmayan.
Ğeyri-zəlikə ə. **غير ذالک** – və sayirə, və başqaları ...
Ğeyri zi 'əql ə. **غير ذى عقل** – ağıllı olmayan, yəni digər canlı varlıqlar və cansızlar.
Ğələt ə. **غلط** – qələt, səhv, yanılma.
Ğələyan ə. **غليا ن** – qaynama, coşma.
Ğəllat ə. **غلّات** – taxıllar.
Ğərabət ə. **غرابت** – 1. qəriblik, yadlıq; **2**. qəribəlik, orijinallıq.

